Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Gəncə şəhər İcra Hakimiyyəti
Gəncə Dövlət Universiteti





# KONFRANS MATERİALLARI

# Gənc alimlərin beynəlxalq elmi konfransı

Konfrans "Konstitusiya və Suverenlik İli"nə həsr olunur.



11-12 iyul 2025

GƏNCƏ

www.gdu.edu.az info@gdu.edu.az

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

# "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"NƏ HƏSR OLUNAN GƏNC ALİMLƏRİN BEYNƏLXALQ ELMİ KONFRANSI

**11-12 iyul 2025-ci il**

**GƏNCƏ – 2025**

**Baş redaktor**: GDU-nun rektoru, kimya elmləri doktoru, professor Yusif Yusibov.
**Baş redaktorun müavini**: GDU-nun Elm və innovasiyalar üzrə prorektoru, dosent Pərvin Kərimzadə.

***Konfransın proqram komitəsi***
***Sədr:*** Yusif Yusibov-rektor, kimya elmləri doktoru, professor.
**Həmsədr:** Pərvin Kərimzadə-prorektor, dosent.

***Proqram komitəsinin üzvləri***

1. Mübariz Yusifov – professor, filologiya fakültəsinin dekanı;
2. Vaqif Novruzov – professor, botanika kafedrasının müdiri;
3. Şahin Tağıyev – professor, pedaqogika kafedrasının müdiri;
4. Sevda Qurbanəliyeva – professor, musiqi kafedrasının müdiri;
5. Telman Quliyev – professor, Azərbaycan dili kafedrasının müdiri;
6. Həsənbala Sadıqov – professor;
7. Sevda Əhmədova – professor, ekologiya kafedrasının müdiri;
8. Muğan Quliyev – professor, fizika və texniki fənlər fakültəsinin dekanı;
9. İsfəndiyar Alverdiyev - professor;
10. Şaiq Məmmədov - professor;
11. Tağı Tağıyev – professor.

**Konfrans materialları GDU-nun Nəşriyyat şöbəsinin və konfransın proqram komitəsinin 25 iyun 2025-ci il tarixlı qərarı ilə çap olunur.**

**Nəşrə məsul:** Nəşriyyat komitəsinin müdiri G.T.Cəfərova;
**Mühəndis-proqramçı:** S.A.Piriyev;
**Operatorlar:** Ş.M.Hüseynova, N.H. Nəbiyev.

Konfrans materialları, Gəncə, 2025, 95 s

## MÜNDƏRİCAT

**Abasova A.Ə.** *Ətraf Mühitin Qorunmasında İnklüziv Təhsil Metodlarının Tətbiqi* ................4
**Abdullayev Ə.T.** *Milli vətənpərvərlik keyfiyyətlərin formalaşmasında pedaqoji prosesin təşkili və rolu* ........................................................................................................5
**Ələsgərov B.İ.** ***Ekoloji*** *problemlər*.........................................................................................7
**Abdullayev F.F.** *Rəqəmsal maliyyə texnologiyalarinin bank fəaliyyətinin səmərəliliyinə təsiri* ...........................................................................................................................10
**Ağaməliyeva Z.** *Teleradio yayimin və sosial şəbəkələrin ictimai rəyə təsiri: yaşil dünya, COP29 və inkişaf perspektivləri*..................................................................................................12
**Cəfərova S.N.** *Məktəbəqədər tərbiyə müəssisələrinin ailə ilə apardiği işin istiqamətləri*..................................................................................................................14
**Cəlil F.C., Məmmədova X.R.** *Kiçik yaşlı məktəblilərdə ekoloji şüuru formalaşdırmanın innovativ üsulları*.....................................................................................17
**Muhittin D.** *Yeşil gelecek için pedagojik yaklaşimlar: çevresel duyarlilik nasil geliştirilir?*........................................................................................................................18
**Alakbarov T.T.** *The concept of legitimacy in political realism: an overview*………………......20
**Həşimova R.A., Namazova G.T.** *Autentik materiallar vasitəsilə ingilis dilinin öyrənilməsinin təkmilləşdirilməsi:strategiyalar və üstünlüklər*............................................22
**Gülşah A.** *Türk Cihan Hakimiyeti anlayişi ve yansimalari*..................................................27
**Məbudova F.E.** *Diskurs və sintaksis: dilin struktural təbiətinə yeni baxiş*............................29
**Hüseynov M.O.** *Yaponiya iqtisadiyyatinda ağilli şəhərlər: İnnovativ biznes modellərinin tədqiqi*........................................................................................................................31
**Kal Almira Tuğba Ali.** *Pedagoji: Eğitimin gelişiminde bilimsel ve sanatsal perspektif*........34
**Məmmədcan A.E.** *Suyun keyfiyyət göstəricilərinə təsir edən əsas antropogen və təbii amillər*..........................................................................................................................37
**Mirzəyeva S.T.** *Inklüziv təhsilin cəmiyyətimizdə yeri, rolu və gələcək perspektivləri*............39
**Quliyeva K.N.** *Elm və texnologiyanin iqtisadi inkişafa təsiri*.............................................42
**Qurbanov Q.F.** *Informasiya və kommunikasiya texnologiyalari*..........................................44
**Süleymanova L.N.** *Ekoloji problem və təmiz su ehtiyatlari*..................................................47
**Vəliyev M.R. , Hüseynov M.O.** *Yaşil iqtisadiyyatda marketinq faktorlari*......................50
**Wisnewskiy W.** *Die Idee der Legitimität im politischen Realismus: Eine Übersicht*……….....53
**Əfəndiyeva A.Ü.** *Azərbaycan dilində anlama feillərinin semantik xüsusiyyətləri*..................55
**Musayev E.A.** *Azərbaycan və regional enerji siyasəti: rusiya və iran konteksti*....................58
**Cabbarova T.R.** *"Çətin" tərbiyə olunan yeniyetmələrdə emosional sabitsizlik və onun korreksiyası yolları*...................................................................................................61
**Əhmədova A.A.** *Qoşma və flektiv dillərdəki predloq*......................................................... 64
**Hasanov E.L.** *Research of history of Ganja khanate based on the archive's materials*.........67
**Əsgərova X.I.** *XIX əsrin I yarsında Çar Rusiyasının Cənubi Qafqazda müstəmləkəçilik siyasətinə dair*.............................................................................................................70
**Səfərova F.A., İbrahimova A.M.** *Adi xiyar (cucumis sativus) bitkisinin təsərrüfat əhəmiyyəti*...................................................................................................................73
**Hüseynova G.Ş.** *Təhsil sahəsində azərbaycan dilinə daxil olan yeni sözlər*..........................77
**Muradov Ü.S.** *Palmitin turşunun statik elektrik keçiriciliyə molekulyar -fiziki təsiri: quruluşu, xassələri və material tətbiqləri*.......................................................................80
**Səlmanova S.C.** *Azərbaycan Respublikasının Konstitusiyasında dil məsələləri*....................83
**Qurbanova S.A.** "*Yarımçıq əlyazma" romanında parafraz*…………………………......85
**Cabbarova E.O.** *Tolerantlığın ünvanı Azərbaycan*.............................................................89

# ƏTRAF MÜHİTİN QORUNMASINDA İNKLÜZİV TƏHSİL METODLARININ TƏTBİQİ

***Abasova Aynişan Əli qızı***
***Bakı Slavyan Universiteti***
***aynisanabasova@gmail.com***

**Açar sözlər:** xüsusi qayğıya ehtiyacı olan uşaq, ətraf mühit, inklüziv təhsil

Müasir dövrdə ətraf mühitin qorunması qlobal səviyyədə aktual məsələlərdən biridir. Ekoloji tarazlığın pozulması, təbii sərvətlərin tükənməsi və iqlim dəyişikliyi kimi problemlər, bəşəriyyətin bütün təbəqələrinin birgə fəaliyyəti və həmrəyliyi ilə həll oluna bilər. Bu kontekstdə inklüziv təhsilin rolu xüsusilə diqqətəlayiqdir. İnklüziv təhsil yalnız müxtəlif ehtiyac və qabiliyyətlərə malik şəxslərin cəmiyyətə tam inteqrasiyasını təmin etmir, həm də ətraf mühitin qorunmasında onların fəal iştirakına şərait yaradır.

İnklüziv təhsil metodlarının əsas məqsədi cəmiyyətin bütün fərdlərinin bərabər imkanlarla təhsil almasını və inkişafını təmin etməkdir. Bu yanaşma ətraf mühitlə bağlı təhsil sahəsində də tətbiq edilə bilər. Ekoloji şüurun formalaşması üçün təhsil hər bir fərdin yaşından, sosial vəziyyətindən və ya fiziki imkanlarından asılı olmayaraq hər kəsə çatmalıdır. Bu məqsədlə inklüziv təhsil sistemində müxtəlif metodoloji yanaşmaların tətbiqi böyük əhəmiyyət kəsb edir.

Ətraf mühitin qorunmasında layihə əsaslı öyrənmə metodları xüsusi rol oynayır. Bu metod sayəsində şagirdlər real problemləri araşdırır, onların həlli üçün kollektiv şəkildə çalışır və təcrübədən öyrənirlər. Məsələn, məktəblərdə tullantıların çeşidlənməsi və ya ağac əkmə layihələri, bütün şagirdlərin, o cümlədən xüsusi ehtiyacları olan şəxslərin iştirakını təmin edən fəaliyyətlər kimi təşkil oluna bilər. Belə layihələr yalnız ekoloji maarifləndirməni artırmır, həm də uşaqlar arasında həmrəylik və əməkdaşlıq ruhunu gücləndirir.

Digər tərəfdən, inklüziv təhsildə təcrübəvi öyrənmə metodları da geniş istifadə edilə bilər. Şagirdlərin ətraf mühit problemlərini dərindən başa düşməsi üçün praktiki fəaliyyətlərə cəlb edilməsi vacibdir. Məsələn, məktəb yaxınlığında birgə təmizləmə aksiyaları təşkil etmək, yaşıllıqların qorunmasına yönəlmiş tədbirlər keçirmək və ya su resurslarının səmərəli istifadəsi mövzusunda təcrübələr aparmaq, uşaqlara ekoloji problemlərin real təsirlərini hiss etməyə imkan yaradır.

Ətraf mühit təhsili, həmçinin, rəqəmsal texnologiyaların tətbiqi ilə də daha inklüziv və maraqlı hala gətirilə bilər. Müxtəlif fiziki və ya koqnitiv ehtiyacları olan şagirdlər üçün uyğunlaşdırılmış vizual və interaktiv dərs materialları hazırlamaq, onların dərs prosesində tam iştirakını təmin edir. Belə yanaşmalar ətraf mühit problemlərinə daha geniş auditoriya cəlb etməklə yanaşı, ekoloji şüurun formalaşmasında bərabər imkanlar yaradır.

Ətraf mühitin qorunmasında inklüziv təhsilin əhəmiyyətini artıran digər bir mühüm aspekt isə icmalararası həmrəylikdir. İnklüziv təhsil prinsiplərinə əsaslanaraq müxtəlif qruplar arasında əməkdaşlıq təşviq edilir. Yerli icmalarla məktəblərin birgə ekoloji layihələr həyata keçirməsi, müxtəlif sosial təbəqələrdən olan fərdlərin ekoloji aksiyalarda iştirakını təmin edir. Bu isə təkcə ətraf mühit problemlərinin həlli üçün deyil, eyni zamanda cəmiyyətin sosial birliyinin möhkəmləndirilməsi üçün də vacibdir.

Nəticə etibarilə, inklüziv təhsil metodlarının tətbiqi ətraf mühit problemlərinin həllində mühüm rol oynayır. Bu yanaşma, yalnız ekoloji şüurun formalaşdırılmasını deyil, həm də cəmiyyətin hər bir fərdinin ekoloji fəaliyyətlərdə fəal iştirakını təmin edir. Bununla yanaşı, müxtəlif ehtiyaclı şəxslərin təhsil və fəaliyyət prosesinə cəlb olunması, ətraf mühit problemlərinə daha kreativ və effektiv yanaşmaların yaranmasına imkan yaradır. Bu baxımdan, inklüziv təhsil yalnız bərabərlik prinsipini təmin etməklə kifayətlənmir, həm də davamlı inkişaf və yaşıl dünya üçün daha inklüziv cəmiyyətin qurulmasına töhfə verir.

*Ədəbiyyat*

1. Анохин, П.К. Принципиальные вопросы общей теории функциональных систем / П.К. Анохин. -М.: Директ-Медиа, 2008. - 131 с.
2. Azərbaycan məktəbi | Azerbaijan Journal of Educational Studies | 2021. №3
3. https://www.old.muallim.edu.az


# MİLLİ VƏ TƏNPƏRVƏRLİK KEYFİYYƏTLƏRİN FORMALAŞMASINDA PEDAQOJİ PROSESİN TƏŞKİLİ VƏ ROLU


***Abdullayev Əli Telman***
***Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasının doktorantı***
***Email : alia18113@sabah.edu.az***
***https://orcid.org/0009-0003-2200-0810***



**Xülasə:** Tədqiqat işində şagirdlərin şəxsiyyət kimi milli vətəpərvərlik ruhunda tərbiyə olunmasına tarix dərsinin roluna və təşkili prosesləri araşdırılmışdır . Şagirdlərin psixologiyasına tarix obrazların rolu və onların dərsdə canlandırılması şagirdin gələcəkdə obraza uyğun keyfiyyətlərə sahib şəxs kimi formalaşması , məzmun xətlərinə uyğun ol araq (zaman, məkan, dövlət, şəxsiyyət, mədəniyyət ) təhsilalanların vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində nümunələr verilmiş və məzmun xətlərinin şagird şəxsiyyətinə təsiri araşdırılmışdır .



**Açar sözlər:** vətəpərvərlik , vətəndaşlıq , şəxsiyyət , təsir , tarix , vətən
**Key words:** patriotism, impact, history, homeland, citizenship, identity


**Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir".**

**Heydər Əliyev**

Vətənpərvərlik dedikdə vətənə , dövlətə , xalqa bağlılığı nəzərdə tutulur . Vətənpərlik anlayışı XX əsrin sonunda cəmiyyətin modernləşdirilməsi yönündə addımlardan sonra başladı. Belə ki , SSRİ - nin süqutundan sonra Azərbaycan cəmiyyətinin modernləşdirilməsi, vətəndaşlıq, Konstitusiya kimi yeni ifadələrin meydana gəlməsilə vətənpərvərlik müxtəlif cərəyanları özünü göstərdi .

Məktəbəqədər yaşlı uşaqlarda (3 - 5 yaşlı) vətənpərvərlik tərbiyəsini formalaşdırmaq üçün ilk əvvəl onlara Vətənin gözəlliklərindən danışmalı, Vətənin təbiətini sevdirməli , müxtəlif əyani fraqmentlər, şəkillər və.s göstərilməlidir. 3 yaşından etibarən uşaqlara Vətənpərlik ruhunda yazılmış şeirlərlə tanış olmalı , nağıllar oxunmalı, müxtəlif dövrə aid tarixi qəhrəmanlardan danışılmalıdır. Uşaqların yaş xüsusiyyətlərinə görə nəzərə sadə və qısa başlıqlı müxtəlif sərgilər, eksursiyalar təşkil etmək lazımdır . "Azərbaycan – Vətənim mənim", "Azərbaycan " kimi müxtəlif məzmunda yarışlar təşkil edilməlidir .

Məktəbəqədər uşaqların rəsmə marağını nəzərə alaraq dövlət atributlarımızın şəklin çəkilməlisi kimi tapşırıqlar verməklə dövlət atributlarına hörmət etməyi öyrənirlər .

Sözsüz ki , tarix dərsi tərbiyə dərsidir . Belə ki , tarix dərsləri uşaqların psixologiyasına onların şəxsiyyət kimi formalaşmasında rolu olduqca böyükdür. Məsələn müəllim tarixi

obrazlarla bağlı dərsin təşkil edərkən mümkün qədər müasir təlim texnologiyalarından istifadə etməlidir . Məsələn Babək obrazı haqqında mövzu şagirdlərdə mərdik nümunəsin təbliğ edir , Babək yadelli düşmənlərə qaşı qorxmadan mübarizə aparır , hətta oğlu Babəkə təslim olmağın istəyəndə Babək : " qırx  il miskin qul kimi ömür sürməkdənsə, bir gün ağa kimi yaşamaq daha yaxşıdır "  Babək öz əqidəsinə  , xalqına sədaqətinə son nəfəsinə kimi sadiq qalır. Şagirdlər Babəkin obrazında şəxsiyyət kimi yenilməzliyi, möhkəmlik, əzmkarlıq, xalqa sədaqəti öyrənirlər. Bu mövzunu tədris edərkən müəllimlərin şagirdlərin həm aktyorluq qabiliyyətin inkişaf etdirmək , həmdə onların bu şəxsiyyətin prototipi kimi çıxış etməsi üçün canlandırma (əyani səhnəcik) şəklində təşkili onlarda Babək obrazına marağı artırmaqla yanaşı Babək obrazın daxili hiss həyəcanlarını , Babəkin vətənin yadelli Ərəb xilafətindən azadlığı uğrunda mübarizəsi, son damla qanında belə düşmənə qarşı mübarizəsi milli vətənpərvər şəxsiyyət kimi formalaşmasına imkan verir .

Tarix dərsində sözsüz ki, şagirdlərin təlim - tərbiyəsinin təşkilində tarixi ideologiyalarda mühüm rol oyanıyır. Məsələn əsası Ulu Öndər Heydər Əliyev Heydər tərəfindən qoyulan azərbaycançılıq ideologiyası şagirdlərin milli vətəndaşlıq, xalqa dövlətə bağlı , torpağın hər qarşı uğruna canından belə keçməyə qadir vətəndaşlar yetişdirir. Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. (Heydər Əliyev )

2020 - ci il Qarabağ müharibəsində torpağına, xalqına bağlı olan gənclərimiz Qarabağ torpaqlarını azad etdi . Azərbaycan xalqında formalaşmış yurd sevgisi , dövlətçiliyə sədaqət , milli vətənpərvərlik kimi yüksək ali dəyərlər müstəqil dövlətçiliyimizi əsrlərlə qoruyacaq .

### *Ədəbiyyat*


1. Sadıqov F.B., Məmmədova Q., Abdulla P. Muğamlan 1tədrisi və şagirdlərin vətənpərvərlik tərbiyəsi. Bakı: Ünsiyyət , 1999.
2. Sadıqov F.B. Müqayisəli pedaqogika. Bakı: Ünsiyyət , 2001.
3. Sadıqov F.B. Pedaqoji düşüncələr. Bakı: Ünsiyyət, 1999 Saadıqov F.B., Sadıqov R.F., Məcidov M.K. Bakalavr (toplu). Bakı: Ünsiyyət, 2000.
4. Sadıqov F.B. Uşaqlann bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdınıması işinin elmi-pedaqoji əsaslan. Bakı:ADPU-nun nəşri, 1995
5. Əliyev . F Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi . Bakı 2012


## THE ORGANIZATION AND ROLE OF THE PEDAGOGICAL PROCESS IN THE FORMATION OF NATIONAL PATRIOTIC QUALITIES


***Summary***

In the research work, the role and organization processes of the history lesson in educating students in the spirit of national patriotism as a personality were investigated. The role of historical figures in the psychology of the students and their revival in the lesson, the formation of the student as a person with the qualities corresponding to the image in the future, the education of students in the spirit of patriotism according to the content lines (time, space, state, personality, culture) were given and the influence of the content lines on the personality of the student was investigated.

# EKOLOJİ PROBLEMLƏR

*Ələsgərov Baxış İslam oğlu*
*ADPU-nun Ağcabədi filialı*

**Xülasə:** Son illər Azərbaycanda ekoloji, eləcə də bioloji müxtəliflik problemlərinin həlli prioritet istiqamət kimi müəyyən edilib və bu sahədə çoxlu işlər görülür. Hökumət proqramı "Bitki Genetik Ehtiyatları". "Qapakə Ətraf Mühit" Milli Fəaliyyət Planı. "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi artım" Milli Proqramı və digər proqramlar qəbul edilib və icra mərhələsindədir və ya artıq icra olunub.

**Açar sözlər:** Ekosistem, ekologiyaya və mənfi təsirin azalmasi biomüxtəliflik, yeni şərtlərə uyğunlaşma.

Azərbaycan Respublikası Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur. Məmləkətimiz Yer kürəsində palçıq vulkanlarının unikal və klassik inkişaf regionu kimi tanınıb. Dünyaya çinarın 7 növü məlumdur. Torpaqlarımızda isə onun yalnız bir növü - Şərq çinarı bitir, yayılması, nadir bitki olması və son əsrlərdə xeyli azalması nəzərə alınaraq, onun adı Azərbaycanın "Qırmızı kitabı"na yazılıb. Bu, əlbəttə ki, Azərbaycanın yüksək floraya malik olmasından irəli gəlir.

Hazırda dünyada 15 milyondan çox canlı növlər mövcuddur. Hər gün onların yüzə yaxını bərpa prosesi keçmədən məhv olur, onların məhvi bir çox hallarda hiss edilmir. Lakin bəşəriyyətə belə itkilərdən olduqca böyük ziyan dəyir. Yer kürəsinin təbii zənginliyi gündən-günə azalır. Bioloji müxtəliflik təkcə növlərin müxtəlifliyi deyil, o, bütün canlı aləmin yaşayıb inkişaf etməsinə imkan verən əlamətlərin cəmindən ibarətdir. Ona görə də indiki və gələcək nəsillər üçün bioloji müxtəliflik misilsiz milli sərvətdir. [1]

Təbii sərvətlərin mühüm tərkib hissəsini bioloji müxtəliflik təşkil edir. Bioloji müxtəliflik bütün yaşayış mühitlərində, o cümlədən quruda, dənizdə və digər su ekosistemləri və ekoloji komplekslər də daxil olmaqla, canlı orqanizmlərin növ müxtəlifliyi deməkdir. O, həyatın mövcudluğunun əsasını təşkil etməklə, insanların ərzaq, geyim, enerji və digər materiallarla təminatçısıdır.

Azərbaycanın əsas ekoloji problemləri sırasında meşə ehtiyatlannın, xüsusən də, faunanın azalması mühüm yer tutur. Öz növbəsində biomüxtəlifliyin qorunub saxlanılmasını zəruri edir. Bu baxımdan Azərbaycanda da ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə problemlərinin həllinə böyük diqqət yetirilir.

1993-cü ildə xalqın tələbi ilə yenidən Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev tərəfindən ətraf mühitin mühafizəsi və bioloji müxtəlifliyin qorunmasına xidmət edən bir sıra tədbirlər həyata keçirilmişdir. Təbiətə böyük qayğı və həssaslıqla yanaşan Heydər Əliyev: "Ətraf mühitə insani münasibət göstərilməsi, biomüxtəlifliyin qorunub saxlanılması bizim gələcəyimiz üçün çox vacibdir. Biz, təbiətdən təcrid olunmuş şəkildə yaşaya bilmərik", - deyirdi.

Bu gün Ulu Öndərin bünövrəsini qoyduğu ekoloji siyasətin əsasında biomüxtəlifliyin qorunub saxlanılması dayanır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva beynəlxalq sammitdəki çıxışında deyib: "Bizim coğrafi mövqeyimiz nəinki mədəniyyətimizə, həmçinin təbiətimizə də təsirini göstərib. Belə ki, dünyadakı 11 iqlim qurşağından 9-u məhz Azərbaycanda yerləşir və bu, bizim biomüxtəlifliyimizi təmin edir".

Göründüyü kimi, ölkəmizdə həyata keçirilən davamlı ekoloji siyasət nəticəsində bioloji müxtəlifliyin qorunması üçün xüsusi mühafizə olunan ərazilərə qayğı göstərilir. Bitki genetik ehtiyatlarının pasportlaşdınlması, toplanması, bərpası, çoxaldılması, yüksək məhsuldar, keyfiyyətli nümunələrin aşkarlanaraq seleksiya işinə cəlb edilməsi üzrə ölkəmizdə görülən işlər də bu qəbildəndir.

İnsanın uzunmüddətli düşünülməz təsərrüfat fəaliyyəti nəticəsində respublikamızın bitki örtüyünün bioloji müxtəlifliyi dəyişilmiş, azalmış, bəzən məhv edilmişdir. Bitki örtüyünün bioloji müxtəlifliyinin məhvi ilə əlaqədar respublikamızın bəzi regionlarında müasir bitki örtüyünün bioloji müxtəlifliyi müasir iqlimə uyğun gəlmir.

Düşmən tapdağındakı ərazilərdən keçən təbii su mənbələrimiz həddindən artıq çirklənməyə məruz qalır. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranmışdır. [2]

Yer kürəsində bioloji müxtəlifliyin yalnız beynəlxalq əməkdaşlıq yolu ilə xilası mümkünlüyünü nəzərə alaraq Rio-de-Janeyro şəhərində 1992-ci ilin iyun ayında keçirilmiş Yer Zirvə toplantısında ilk dəfə bioloji müxtəlifliyin qorunması bütün bəşəriyyətin ümumi vəzifəsi və davamlı inkişafın tərkib hissəsi kimi qəbul olunmuş və müvafiq Konvensiya imzalanmışdır. [1]

Konvensiyanın əsas məqsədi bioloji müxtəlifliyin qorunması, ondan sabit istifadə və birlikdə əldə edilən gəlirdən eyni səviyyədə ədalətli faydalanmaqdan ibarətdir. Biomüxtəliflik üzrə Konvensiya Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2000-ci ilin mart ayında ratifikasiya olunmuşdur.

2000-ci ilin yanvarında Monrealda “Bioloji Müxtəliflik haqqında Konvensiya”ya Əlavə Protokol qəbul edilmişdir. XXI əsrin başlanğıcında ekologiya və ətraf mühit sahəsində fəaliyyət göstərən əsas beynəlxaq qurum isə Birləşmiş Millətlər Ətraf Mühit Proqramı - UNEP-dir (The United Nations Environment Programme). UNEP üzv dövlətlərin ətraf mühitlə bağlı fəaliyyətini koordinasiya edir, inkişaf etmiş ölkələrin ətraf mühit siyasətlərinin və təcrübələrinin implemen tasiyasını həyata keçirir. Baş qərargahı Keniyanın paytaxtı Nairobi şəhərindədir. UNEP tərəfindən “Qlobal ekoloji perspektiv – 2000” proqramı qəbul edilmişdir. Yeni minillik üçün ətraf mühitin mühafizəsi problemələrinin həlli ancaq birgə səylərlə mümkündür.

Son illərdə Azərbaycanda ekoloji, o cümlədən bioloji müxtəlifliyin problemləri, həlli vacib olan prioritetlər kimi müəyyənləşdirilib və bu sahədə ciddi səylər göstərilir. Belə ki, problemlərin həlli istiqamətində xeyli işlər görülmüş, “Bitkilərin genetik ehtiyatlarına dair” Dövlət Proqramı, “Ətraf mühitin mühafizəsi üzrə” Milli Fəaliyyət Planı, “Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair” Milli Proqram və digər proqramlar qəbul edilərək həyata keçirilir.

Orhus Konvensiyası 1998-ci ilin iyun ayında Danimarkanın Orhus şəhərində qəbul edilmiş, Azərbaycan Respublikası 1999-cu ildə bu Konvensiyaya qoşulmuşdur. Orhus Konvensiyası ətraf mühit hüquqlan ilə insan hüquqlarını birləşdirən bir müqavilədir. Konvensiyanın qəbulu əhalinin ekoloji, o cümlədən bioloji müxtəliflik haqqında məlumatlandırılmasında əhəmiyyətli rol oynamışdır.[2]

Ölkənin “Bioloji müxtəliflik barədə” Konvensiya qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il dekabr tarixli Fərmanına əsasən Bioloji müxtəlifliyin Genetik Ehtiyatlar üzrə Dövlət Komissiyası yaradılıb. Dövlət Komissiyasının yaratdığı Tədqiqat Şurasının rəhbərliyi, Qlobal Ekoloji Fondun və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyinin dəstəyi və respublikada bütün maraqlı tərəflərin iştirakı ilə ölkədə bioloji müxtəlifliyin

qorunub mühafizə edilməsi və davamlı istifadəsini təmini üçün 2003-cü ildə müvafiq Strategiya və Fəaliyyət planı hazırlanıb.

Son illər bəşəriyyəti narahat edən problemlərdən biri dünyada ekoloji gərginliyin artmasıdır.

Meşələrin məhv edilməsi, bozqırların (çöllərin) şumlanması, meliorasiya, süni göllərin və dənizlərin yaradılması, meqapolislərin salınması, yol, kanal və trasların tikilməsi nəticəsində yer səthinin landşaftı dəyişir. Təbii ekosistemlərin sahəsi hər il 1 % sürətilə azalır, o cümlədən meşələrin (xüsusilə tropik meşələrin) sahəsi ildə 200 min ha azalır, səhraların sahəsi isə ildə 60 min $km^2$ genişlənir.

Atmosferdə parnik (istilik) effekti yaradan toz və qazların toplanması nəticəsində yerin istilik balansı dəyişir, qlobal istiləşmə baş verir.

Ozon təbəqəsinin ildə 1-2 % nəzilməsi, ozon deşiklərinin əmələ gəlməsi müşahidə edilir.

Torpağın deqradasiyası (şorlaşma, şorakətləşmə, eroziya, münbitliyin aşağı düşməsi) baş verir.

Son illərin dövlət siyasətində "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair 2017-2020- ci illər üçün Milli strategiyamın çox mühüm əhəmiyyəti vardır. Belə ki, son zamanlar planetimizdə bir çox fauna növləri məhv olmuş və ya onların sayı kəskin surətdə azalmışdır. Bu da canlı aləmi ciddi təhlükədə qoymaqla qlobal faciəyəyə səbəb ola bilər.

Milli Strategiyanın əsas məqsədi nədən ibarətdir? Genetik ehtiyatlardan səmərəli istifadə, bioloji müxtəlifliyin qorunması və gələcək nəsillərə çatdırılması, yoxsulluğun aradan qaldırılması, ekoloji tarazlığın tənzimlənməsi, ekoloji təhsilin stimullaşdırılması, flora və yerli fauna növlərinin bərpası, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin təkmilləşdirilməsi, bioloji müxtəlifliyə təzyiqlərin azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsindən və sair.

2000-ci il dekabrın 20-də BMT Baş Assambleyası 22 may tarixini "Beynəlxalq bioloji müxtəliflik günü" elan etmişdir.

Bu gün dövlətimiz bioloji müxtəlifliyin qorunması üçün bir çox tədbirlər həyata keçirir. Həmin tədbirlər müasir beynəlxalq standartlara uyğundur. [3]

Hər bir azərbaycanlı vətəndaş ölkəsinin flora və faunası növlərinin bərpası, mühafizə olunan təbiət ərazi şəbəkələrinin təkmilləşdirilməsi işinə çalışmalıdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan mədəniyyət müəssisələrinin hər biri bioloji müxtəlifliyin qorunması üçün bir çox tədbirlər həyata keçirməlidir.

Bioloji müxtəliflik həm əhali tərəfindən, həm də dövlət qanunvericiliyinə görə qorunmalıdır. Əhalinin iştirakı olmadan heç bir təbii sərvəti qoruyub saxlamaq mümkün deyil. Bioloji müxtəlifliyin qorunması dövlət qanunvericiliyi ilə elmə əsaslanır, əhalinin iştirakı ilə qoruma isə xalqın özünün istəyi nəticəsində formalaşır.

Son illərdə respublikamızda təbiətin qorunması və mühafizəsi məsələsinə çox böyük diqqət yetirilir. Planetimizin bitki örtüyünü - onun flora və faunasını qorumaq hər bir vətəndaşın borcudur.

### ***Ədəbiyyat***

1. Məmmədov Q.Ş, Xəlilov M.Y. "Ekologiya və ətraf mühitin mühafizəsi" Bakı, 2005, 880 s.
2. Cəlilova S. Ekologiyaya və biomüxtəlifliyə mənfi təsirin azalması. Bakı, 2020.
3. Sultanov R.L və s., Ümumi ekologiya. Bakı, "Bakı universiteti"nəçiriyyatı, 2010, 384 səh.

***Summary***

In recent years, solving environmental and biological diversity problems in Azerbaijan has been identified as a priority direction, and a lot of work is being done in this field. Government program "Plant Genetic Resources". "Capacity Environment" National Action Plan. "Environmentally sustainable socio-economic growth" National Program and other programs have been adopted and are in the process of implementation or have already been implemented.

## RƏQƏMSAL MALİYYƏ TEXNOLOGIYALARININ BANK FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNƏ TƏSİRİ

***doktorant Abdullayev Fərid Fuad oğlu***
***Gəncə Dövlət Universiteti, Gəncə şəhəri***

**Xülasə:** Maliyyə texnologiyalarının bank fəaliyyətinin səmərəliliyinə təsiri kredit təşkilatlarının gəlirliliyini artırmaqla yanaşı, onların fəaliyyətinin təhlükəsizliyində mühüm rol oynayır. Bu baxımdan bank fəaliyyətinin məhsuldarlığının təmin edilməsində maliyyə alətləri öz əhəmiyyətliliyi ilə seçilir. Bankların fəaliyyətinə maliyyə texnologiyalarının tətbiqi üçün müəyyən edilmən tətbiq sahələri, innovativ bank xidməti platformasına keçidin əsasını təşkil edir. Qloballaşan iqtisadiyyatda bank sektorunun rəqəmsallaşması, banklardan müştərilərin ehtiyaclarına uyğun olaraq sabit və səmərəli inkişafı təmin etmək üçün maliyyə innovasiyalarından fəal istifadəni tələb edir.

**Açar sözlər:** bank, səmərəlilik, gəlir, maliyyə texnologiyaları, innovasiya, rəqəmsallaşma.

**Keywords:** banking, efficiency, income, financial technologies, innovations, digitalization.

Bankların fəaliyyətinin səmərəliliyi onun gəlirliliyini təmin etməklə yanaşı, qarşıya qoyulan məqsədə çatmaq və mövcud problemlərini həll etməklə bağlı ümumi nəticələri xarakterizə edir. Bankların sabitliyi ilə onun gəlirliliyi arasında sıx əlaqə mövcud olmaqla, bank mənfəətinin sabit şəkildə formalaşmasına kömək edir. Rəqəmsallaşma şəraitində kredit təşkilatlarının səmərəli fəaliyyəti bank işinin bütün sahələrinə nüfuz edən maliyyə texnologiyaları tətbiqi olmadan demək olar ki, mümkün deyil. Bank işində innovativ maliyyə texnologiyalarının daha geniş istifadəsinin qaçılmazlığını aşağıdakı səbəblərlə əlaqələndirmək olar:

- yeni texnologiyaların tətbiqi və genişləndirilməsi bank xidmətlərinin müasirləşməsinə, bank məhsulları və xidmətlərinin əlçatanlığına, onların təklifində zaman baxımından çevikliyinə gətirib çıxarır;
- bank əməliyyatların rəqəmsal sahəyə aktiv şəkildə ötürülməsi, bank fəaliyyəti ilə bağlı müəyyən risklərin yaranmasına şərait yaradır; Eyni zamanda, maliyyə texnologiyalarının istifadə etdirilməməsi daha mənfi nəticələrə səbəb olur.

Bankların səmərəliliyinin təmin edilməsində maliyyə texnologiyalarının istifadəsi qanunvericilik dəstəyini, o cümlədən rəqəmsal texnologiyaların və hüquqi statusun konsolidasiyasını nəzərdə tutur. Bu çərçivədə maliyyə bazarında rəqəmsal texnologiyaların inkişafı aşağıdakı mərhələləri əhatə edir:

- bankların fəaliyyətində istifadı olunan maliyyə texnologiyalarının təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması;

- maliyyə xidmətləri infrastrukturunun maliyyə texnologiyaları və bank innovasiyaları vasitəsilə formalaşdırılması və inkişafı.

Qeyd etmək lazımdır ki, innovativ maliyyə texnologiyalarının tətbiqi, bankların informasiya resurslarına çıxışını inkişaf etdirməklə, elektron sənəd dövriyyəsinə keçidi təmin edir və innovativ maliyyə texnologiyaları, məhsul və xidmətlərin sınaqdan keçirilməsi mexanizmlərinin tətbiqi kimi mühüm məsələləri nəzərdə tutur. Bank texnologiyaları sahəsində kredit təşkilatlarının fəaliyyətinin səmərəliliyi onun sabitliyi, təhlükəsizliyi və ətraf mühit amillərinin təsirini nəzərə alır. Bu, bank sisteminin maliyyə təhlükəsizliyinə nail olmaq ehtiyacı ilə bağlı olub, ödəniş münasibətləri sahəsində rəqəmsal texnologiyaların inkişafının vacibliyini müəyyənləşdirir. Bundan başqa, banklar, müştərilərinə xidmət göstərdiyi maliyyə texnologiyaları vasitəsilə ərazi mənsubiyyətindən asılı olmayaraq məhsul və xidmətlərə çıxışın əlverişliyini təmin etmək imkanı qazandırır [1].

Maliyyə texnologiyaları maliyyə təhlükəsizliyini təmin etmək və bank fəaliyyətinin səmərəliliyinin təminatı kimi ödəniş sistemini inkişaf etdirməklə, gəlirləri artırmağa kömək edir. Bankların gəlirliliyinin qlobal şəkildə azalması müştərilərə xidmət xərclərinin azaldılması yollarının tapılması üçün ilkin şərtləri müəyyən edir. Bu yollardan biri məhz müasir maliyyə texnologiyalarının tətbiqidir. İnnovasiya bank fəaliyyətinin səmərəliliyinə özünün gəlirliliyi baxımından müxtəlif üsullarla təsir göstərə bilər: banklar müştərilərinə xidmətdə internet dəstəyinin imkanlarının genişləndirilməsi, mobil proqramların və sosial şəbəkələrin təşviqi, təklif olunan xidmətlərin çeşidinin genişləndirilməsi, onların fərdiləşdirilməsinin artırılması, müştərilər üçün əlçatanlığın təmin edilməsi, istehlakçıları bank xidmətləri haqqında məlumatlılığının artırılması və s. [2, 235-236].

İnnovativ texnologiyaların bank əməliyyatlarının həyata keçirilməsində istifadəsi, riskləri azaltmaq vasitəsi kimi istifadəsi bankların maliyyə nəticələrinin sabitliyini artırmağa imkan verir. Beləliklə, ödəniş və köçürmələrin həyata keçirilməsindən investisiya və maliyyə konsaltinqinə qədər bir sistemdən istifadə edərək müştərini banka yaxınlaşdırmaq mümkündür. Bankların fəaliyyətində innovasiyalardan istifadə etmək şərti ilə, coğrafi mövqeyə görə banka istehlakçı müəyyən etmək zərurətinin olmaması müştərini dəqiq müəyyən etməyə, onun əməliyyatlarının mühafizəsini təmin etməyə, müştəri bazasını genişləndirməyə və boşluqları azaltmağa imkan verir. Nəticə etibarı ilə, bank fəaliyyətinin gəlirliliyi baxımından səmərəliliyinin artırılması vasitəsi kimi maliyyə texnologiyalarının tətbiqi, qarşıya qoyulan məqsədlərə nail olmağa və onlardan istifadə edən banklar üçün texnoloji liderliyi təmin etməyə imkan verir.

Müasir bank təcrübəsində innovasiyaların yayılma sürətini, eləcə də bu növ xidmətlərə tələbatı və müasir bank müştərilərinin xidmət keyfiyyətini nəzərə alaraq, istənilən kredit təşkilatı onların həyata keçirilməsi üçün vəsait ayırmaqda maraqlıdır. Təbii ki, bankların fəaliyyətində innovativ maliyyə texnologiyalarının tətbiqi əlavə maliyyə investisiyaları tələb edir. Bu, ilk növbədə onunla bağlıdır ki, bankların iqtisadiyyatın rəqəmsallaşdırılması prosesindən geri qalması gələcəkdə onların fəaliyyətinin səmərəliliyinin azalmasına səbəb ola bilər. Bankların rəqəmsal iqtisadiyyata inteqrasiyası nə qədər dərin olarsa, maliyyə texnologiyalarına investisiyaların geri qaytarılma müddəti bir o qədər uzun olar. Həmçinin, bank xidmətlərinə innovativ yanaşma bank fəaliyyətinin etibarlılığını və müştərilər üçün cəlbediciliyini artırmağa kömək edir. Bu, öz növbəsində bankların maliyyə göstəricilərinin yaxşılaşmasına gətirib çıxarır.

İnnovativ bank xidməti platformasına keçid banklara aşağıdakı müsbət dəyişikliklərə nail olmağa imkan verir:

- real vaxt rejimində əlverişli şərtlərlə zəruri bank xidmətlərini əldə etmək üçün müştəri təcrübəsinin təmin edilməsi;

- bankların inkişaf modelini dəyişdirmək imkanının yaranması;

- proqram təminatına və onun funksionallığına sərf olunan vaxtın azaldılması;

- bankların xidmət xərclərinin azalması;

- bank işçilərinin məhsuldarlığının artması və s.

Maliyyə texnologiyalarının bank fəaliyyətinin səmərəliliyinin təmin edilməsində rolunun ikili xüsusiyyələri önə çəkir: ödəniş sisteminin inkişafı yolu ilə xərclərin azaldılması və yeni sistemlərin yaranması maliyyə təhlükəsizliyinin təmin edilməsi [3, 7]. Bununla yanaşı, rəqəmsal texnologiyaların istifadəsi və bu prosesin avtomatlaşdırılması maliyyə texnologiyaları ilə bağlı artan risklərdən itkiləri minimuma endirməyə imkan verir. Beləliklə, bank sektorunda maliyyə texnologiyalarının tətbiqi ilə bağlı tədbirlərinin həyata keçirilməsi geniş miqyaslı texnoloji transformasiyaya əsaslanmalıdır və bu, aşağıdakı aspektlərlə bağlıdır: bankların etibarlılığını və bank fəaliyyətinin səmərəliliyinin təmin edilməsi; innovativ fəaliyyətin genişləndirilməsi; təhlükəsizliyə zəmanət; bank fəaliyyətinin inkişafına xidmət edən innovasiyaların və maliyyə texnologiyaları infrastrukturunun gücləndirilməsi.

### *Ədəbiyyat*

1. “Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu. 7 avqust 1992-ci il.

2. Батаев А.В. Анализ использования облачных сервисов в банковском секторе // Молодой ученый. 2015. № 5. С. 234-240.

3. Масленников В.В., Федотова М.А., Сорокин А.Н. Новые финансовые технологии меняют наш мир // Вестник Финансового университета. 2017. № 2. С. 6-11.

### *Summary*

The impact of financial technologies on the efficiency of banking activities plays an important role in ensuring the security of credit institutions, as well as increasing their profitability. From this point of view, financial instruments are selected based on their importance in ensuring the productivity of banking activities. Certain areas of application of financial technologies in banking activities are the basis for the transition to an innovative banking platform. Digitalization of the banking sector in a globalized economy requires banks to actively use financial innovations to ensure stable and effective development in accordance with customer needs.

## TELERADİO YAYIMIN VƏ SOSİAL ŞƏBƏKƏLƏRİN İCTİMAİ RƏYƏ TƏSİRİ: YAŞIL DÜNYA, COP29 VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Ağaməliyeva Züleyxa***
***Bakı Slavyan Universiteti***
***E-mail: agamaliyevazuleyxa02@gmail.com***

**Açar sözlər:** Teleradio yayımı, ictimai rəy, sosial şəbəkələr, COP29, yaşıl dünya, ətraf mühit, ekoloji maarifləndirmə, davamlı inkişaf, media təsiri, məlumatlandırma, ictimai həmrəylik, ekoloji problemlər, texnoloji inkişaf, rəqəmsal platformalar, iqlim dəyişikliyi.

**Keywords:** Television and radio broadcasting, public opinion, social networks, COP29, green world, environment, environmental awareness, sustainable development, media influence, awareness-raising, public solidarity, environmental problems, technological development, digital platforms, climate change.

Teleradio yayımı və sosial şəbəkələr cəmiyyətin maarifləndirilməsində, qlobal problemlərin işıqlandırılmasında və ictimai rəyin formalaşdırılmasında mühüm rol oynayır. Bu vasitələr müstəqil medianın inkişafı ilə paralel olaraq daha geniş auditoriyaya təsir imkanları əldə edib. Xüsusilə, ətraf mühitin qorunması və qlobal iqlim problemlərinin həllində həm ənənəvi, həm də rəqəmsal medianın rolu artmaqdadır. "Teleradio yayım əhalinin geniş təbəqəsinə çatmaq və maarifləndirmək üçün effektiv vasitədir. Proqramlar vasitəsilə ətraf mühit, ekoloji problemlər və iqlim dəyişikliyi ilə bağlı məlumatlar cəmiyyətə çatdırılır" [4, 46-47]. Azərbaycanda yayımlanan "EkoHəyat" və "Yaşıl Sabah" proqramlarında tullantıların təkrar emalı, su resurslarının qorunması və enerji səmərəliliyi mövzuları müzakirə olunur. Bu cür proqramlar vasitəsilə cəmiyyətin ekoloji mövzulara marağı artırılır. Sosial şəbəkələr də teleradio yayımla birlikdə ictimai rəy formalaşdırılmasında tamamlayıcı rol oynayır. İstifadəçilər bu platformalarda ətraf mühit problemləri və bu problemlərin həll yolu ilə bağlı interaktiv müzakirələr aparır, öz fikirlərini bölüşürlər. Sosial şəbəkə platformalarında COP29 ilə bağlı yaradılan səhifələrdə iqlim problemləri və tədbirin məqsədləri haqqında məlumatlar paylaşılır. Bu paylaşımlar vasitəsilə həmrəyliyin təşviqi və qlobal məsələlərə xüsusi diqqət formalaşdırılır. COP29, iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal tədbirlər sırasında mühüm yer tutur. "Azərbaycanın belə bir tədbiri təşkil etməsi ekoloji məsələlərə verdiyi önəmin göstəricisidir. Bu tədbir vasitəsilə həm beynəlxalq arenada ölkənin nüfuzu artır, həm də daxildə ictimaiyyət arasında ekoloji maarifləndirmə güclənir"[6]. Azərbaycanın televiziya kanalları və sosial media platformalarında COP29 və ətraf mühitin qorunması ilə bağlı məlumatlar geniş şəkildə işıqlandırılır. Televiziyada yayımlanan xüsusi reportajlar, sosial videoçarxlar və COP29-un məqsədlərinə həsr olunmuş qısa filmlər vasitəsilə əhali maarifləndirilir. Sosial şəbəkələrdə isə iqlim dəyişikliyi ilə bağlı "#COP29Baku" həştəqi ilə kampaniyalar keçirilib ki, bu kampaniyalar cəmiyyətdə rəy formalaşdırmaq və tədbirin mahiyyətini izah etmək üçün effektiv rol oynayıb. Teleradio və sosial media vasitəsilə "yaşıl dünya" anlayışı və davamlı inkişaf ideyalarının yayılması davam etdirilir. Azərbaycanda bu mövzuya diqqət çəkən müxtəlif layihələr həyata keçirilir. ""Yaşıl Qarabağ" kampaniyası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyətin yaxşılaşdırması, ağacəkmə aksiyaları təşkil edilir və bu tədbirlər həm teleradio, həm də sosial media vasitəsilə işıqlandırılaraq cəmiyyətdə ekoloji problemlərə və onun həlli yollarına diqqəti yönəldir" [1, 34-36]. Teleradio yayımı və sosial media cəmiyyətdə ekoloji şüurun inkişaf etdirilməsində mühüm rol oynayır. COP29 kimi tədbirlərin keçirilməsi bu vasitələrdən istifadə edərək həm ictimaiyyətin maarifləndirilməsi, həm də qlobal problemlərə diqqətin artırılması üçün unikal imkanlar yaradır. Azərbaycanda bu potensialın daha da genişləndirilməsi və media vasitələrinin sosial məsuliyyət çərçivəsində fəaliyyət göstərməsi vacibdir. "Teleradio yayımının ictimai rəyə təsiri yalnız informasiya vermək deyil, həm də cəmiyyətin müxtəlif məsələlərə yanaşma tərzini formalaşdırmaqdır. Teleradio yayımının ictimai rəyə təsir etməsinin əsas yolu onun həm məlumat yaymaq, həm də sosial hadisələrə dair mövqeyini açıqlamaqdır" [5, 47-48]. Teleradio yayımının gələcəyində sosial məsuliyyət və ekoloji mövzular da əhəmiyyətli rol oynayacaq. Ətraf mühitin qorunması, bərpa olunan enerji mənbələrinin təbliği və ekoloji təhsilin yayılması teleradio kanallarının gündəlik proqramlarında daha çox yer alacaq.

***Ədəbiyyat***


1. Əlizadə, A. (2022). "Sosial şəbəkələr və ekoloji maarifləndirmə". *Davamlı İnkişaf Jurnalı*, 10(2), 27-35.
2. Azərbaycan Respublikası Teleradio Yayım Şurası. (2023). *Azərbaycan teleradio yayım siyasəti haqqında hesabatlar*. Bakı: TRŞ Nəşriyyatı.
3. Cahan, İ. (2021). "Media və ekoloji məsuliyyət: Yaşıl dünya konsepsiyası". *Beynəlxalq Media Araşdırmaları Məcmuəsi*, 8(1), 32-40.
4. Mamedov, E. (2021). "Teleradio yayımının ictimai təsiri və medianın gücü". *Azərbaycan Media Araşdırmaları Jurnalı*, 15(3), 45-56.
5. Qasımova, L. (2020). *Teleradio yayımlarının inkişaf perspektivləri: Azərbaycanın müstəqillik dövrü təcrübəsi*. Bakı: Elm və Təhsil Nəşriyyatı.


**Onlayn resurslar:**


6. COP29 Rəsmi Veb-səhifəsi. (2023). "COP29 tədbirinin məqsədləri və əhəmiyyəti". https://www.cop29.org

7. Social Media Trends Report. (2023). "Sosial mediada ekoloji məzmunların təsiri". https://www.socialmediaimpact.org
8. United Nations Framework Convention on Climate Change (UNFCCC). (2023). "Climate Action for a Sustainable Future". https://unfccc.int

***Summary***

This article delves into the profound impact of television and radio broadcasting on shaping public opinion, particularly in the context of environmental awareness and social responsibility. It underscores how media serves as a powerful tool for disseminating information and mobilizing communities around global environmental initiatives, using Azerbaijan's coverage of COP29 as a case study. Furthermore, the article explores the synergy between traditional broadcasting and social media, emphasizing their combined influence in amplifying outreach and fostering public engagement. The successful promotion of campaigns like "Green Karabakh" illustrates the role of media in instilling environmental consciousness and advocating for collective action. Concluding with actionable insights, the article highlights the indispensable role of media in championing sustainable development and uniting societies in the pursuit of a greener, more sustainable future.

## MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNİN AİLƏ İLƏ APARDİĞI İŞİN İSTİQAMƏTLƏRİ

***Cəfərova Səbinə Namiq qızı***
***Bakı Slavyan Universiteti Azərbaycan, Bakı***
***sabina_16_86@mail. ru***

Məktəbəqədər tərbiyə müəssisələri ilə ailə arasında sıx əməkdaşlıq uşağın inkişafında mühüm rol oynayır. Bu əməkdaşlıq müxtəlif istiqamətlərdə həyata keçirilir və uşağın fiziki, əqli, emosional və sosial inkişafını dəstəkləyir.

Uşaq məktəbəqədər təhsil müəssisəsinə gələnə qədər ailədə müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnir. Ona görə də ailə uşağın ilk tərbiyəçisi hesab olunur. Böyük alim Nəsirəddin Tusi ailəni insan bədəni ilə müqayisə etmişdir. O qeyd etmişdir ki, ailədə doğulan uşaq dövlətin sərvətidir [1, s.44]. Müəyyən yaşa qədər uşağın sağlamlığı ailənin əlindədir. Ailə uşağın fiziki və əqli inkişafına təsir edən ilk kollektivdir. Ailələrlə işləmək məktəbəqədər təhsil əməkdaşlarının əsas məqsədidir. Uşaqların tərbiyəsini düzgün təşkil etmək üçün məktəbəqədər təhsil müəssisələri ailələrlə birgə əməkdaşlıq göstərir, əlaqə qurur, birlikdə fəaliyyət göstərir. Buna nail olmaq üçün müəssisə qarşısında bir sıra vəzifələr durur:

a) valideynlərin pedaqoji maarifləndirilməsi;

b) hər bir uşağın ailə həyatını öyrənmək və ailə təcrübəsini təbliğ etmək;

Uşaq bağçası ilə ailə arasındakı əməkdaşlıq uşağın tərbiyəsinə müsbət təsir edər. Görkəmli pedaqoq A.S.Makarenko deyir ki, uşaqların tərbiyəsi bizim həyatımızın bir sahəsidir [3, 35]. Düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək kədərimiz, göz yaşımızdır. Düzgün olmayan tərbiyə insanlar qarşısında ,dövlət qarşısında məsuliyyətini itirməkdir. Gənc ailələr üçün "Gənc ailələr məktəbi", "Gənc ailələr klubu", kitabxana təşkil etmək, disputlar və s. keçirmək valideynlərin uşaqlarla tərbiyəvi iş aparmasına yaxından kömək edir. Ailə uşağın doğulduğu, böyüdüyü, tərbiyə aldığı ilk ictimai-mədəni ocaq olduğundan tərbiyəçilər hər bir ailənin mədəni dəyərlərinə də hörmətlə yanaşır ,öz münasibətlərində bu amili diqqət mərkəzində saxlayır. Valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə problemlərin həllində iştirak etməyə cəlb edilirlər. Valideynlər tərbiyəçilərlə birlikdə uşağın inkişafının stimullaşdırılmasında fəal iştirak edir, səy göstərirlər. Bunun üçün, ilk növbədə qruplarda mənimsənilən bilik və bacarıqlar ailədə

möhkəmləndirilir. Valideynlər və tərbiyəçi müəllimlər tərəfindən qoyulmuş səylər məlumat və təcrübə mübadiləsinə, həmçinin uşaqların inkişafı və təlimi üçün ən əlverişli şəraitin təmini məqsədilə əməkdaşlığa əsaslanmalıdır. Belə bir qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin zənginləşməsinə, özünəinamın yaranmasına, nəticə etibarilə, məktəb həyatına uyğunlaşma dövrünü keçməyə təsir göstərir. Valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların təlim nailiyyətləri yüksəlir. Belə bir əməkdaşlıq şəraitində valideynlər bu məsələlərlə tanış olmalıdırlar:

•uşaqların yaş xüsusiyyətləri;

•təlim-tərbiyə işinin əhəmiyyəti;

•uşaqların fəaliyyətini stimullaşdıran öyrədici mühitin vacibliyi;

•fiziki ,emosional müdafiənin təmin edilməsi, mühitin təhlükəsizliyinin zəruriliyi;

•uşaqların fəallığı;

Valideynlər öz uşaqlarının inkişafı haqqında tərbiyəçidən məlumat alır, uşağın inkişafını təmin etmək məqsədilə tərbiyəçilərlə əməkdaşlıq edirlər. Valideynlər məktəbəqədər müəssisənin simasında dəstək əldə etməlidir ki, özlərini müəllimlər və ya tərbiyəçilərlə əməkdaşlıq prosesində lazımlı hiss etsinlər, həmçinin uşaqların iştirakı ilə keçirilən fəaliyyətin istənilən növlərində iştirak etsinlər [4, s.22].

Uşaq bağçasının əsas vəzifələrindən biri uşaqların emosional əhvali-ruhiyyəsini yaxşılaşması, valideynlərin tərbiyəedici təcrübələrini zənginləşdirərək uşaqların məktəbə hazırlanması zamanı valideynlərin pedaqoji kompetensiyalarının yüksəlməsi məqsədilə ailələrin tərbiyə-təhsil prosesinə cəlb edilməsidir. Uşağın tərbiyəsində həm bağçanın,həm də ailənin bərabər iştirakına sosial əməkdaşlıq kimi baxmaq lazımdır. Uşaq bağçalarında valideynlərlə işin səmərəli təşkili nəticəsində uşaqlarda intellektual bacarıqlar formalaşmış olur. Praktiki olaraq bütün uşaqlar fəaliyyətin məqsədini dərk edir, onun planını nəzərdə tutur, adekvat üsullar seçir, nəticəni yoxlayır, işdə qarşıya çıxan çətinlikləri dəf edir və işi müvəffəqiyyətlə sona çatdıra bilirlər. Ailələrlə əlaqə üçün bu strategiyalardan istifadə edilməsi tövsiyə olunur:

•uşaq bağçası mühiti xaricində ailələrlə uşaqların qarşılıqlı əlaqənin saxlanılması - uşaq bağçası mühiti xaricində ailələrlə uşaqların qarşılıqlı əlaqəsinin saxlanılması, uşağın sağlam inkişafı və tərbiyəsi üçün çox vacibdir. Məktəbəqədər tərbiyə müəssisələrinin və ailənin birgə fəaliyyətləri uşağın sosial və emosional bacarıqlarının inkişafına böyük təsir göstərir.

3.Serkan YÜKSEL, **Türklerde Cihân Hâkimiyeti Olgusu ve Orhun Abidelerindeki Yansımaları,** 2019.
4.Şaban ÖZ, “Kutadgu Bilig’de Türk Cihan Hakimiyeti Düşüncesi”, **Dinbilimleri Akademik Araştırma Dergisi,** Cilt 1, Sayı 1, 2011.
5.Yahya BAŞKAN, “Türk Devlet Geleneğinde Cihan Hakimiyeti ve Meşruiyet”,

## DİSKURS VƏ SİNTAKSİS: DİLİN STRUKTURAL TƏBİƏTİNƏ YENİ BAXIŞ

***doktorant Məbudova Fəxriyyə Elçin qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** Bu məqalə, diskurs və sintaksisin dilin strukturunu və funksional təbiətini necə formalaşdırdığını araşdırır. Sintaksis cümlə quruluşlarının necə təşkil olunduğunu və sözlər arasındakı əlaqələri müəyyən edərkən, diskurs bu quruluşların konkret kontekstdə necə işlədiyini və sosial əlaqələrdə necə tətbiq olunduğunu izah edir. Məqalədə müasir dilçilik nəzəriyyələrinə əsaslanaraq, həm İngilis, həm də Azərbaycan dilindən nümunələr təqdim ediləcək və diskurs ilə sintaksisin qarşılıqlı təsiri ətraflı şəkildə müzakirə olunacaqdır. Məqsəd, bu iki sahənin bir-birini necə tamamladığını və dilin ümumi strukturuna necə təsir etdiyini göstərməkdir.

**Açar sözlər**: Diskurs, Sintaksis, Dilin strukturu, Funksional qrammatika, Dilçilik nəzəriyyələri, Praqmatik, Koqnitiv, Dilin istifadəsi.

Dil, insanın əsas qarşılıqlı əlaqə vasitəsidir və həm struktur, həm də sosial funksiyaları vardır. Sintaksis və diskurs bu funksiyaların təhlilində əsas rol oynayan iki mühüm dil sahəsidir. Sintaksis, dilin qrammatik strukturunu təşkil edərək cümlələrin quruluşunu müəyyən edir. Diskurs isə, bu quruluşların sosial və mədəni kontekstdə necə işlədiyini, qarşılıqlı əlaqələrin necə qurulduğunu və cümlələrin məqsədini açıqlayır. Bu məqalə, diskurs və sintaksis arasındakı qarşılıqlı əlaqəni izah edəcək və onların bir-birini necə tamamladığını nümayiş etdirəcəkdir.

Sintaksis və diskurs bir-birini tamamlayır, çünki sintaksis cümlə strukturlarını tənzimləyərkən, diskurs bu strukturların mənasını və məqsədini sosial, mədəni və kommunikativ kontekstdə təyin edir. Beləliklə, dilin struktural və funksional aspektlərini başa düşmək üçün bu iki sahənin birgə işləməsini başa düşmək vacibdir.

Sintaksis dilin ən mühüm aspektlərindən biridir və cümlə quruluşlarını, sözlərin və frazaların birləşməsini tənzimləyir. Noam Çomski (1957) tərəfindən inkişaf etdirilən universal qrammatika nəzəriyyəsi, hər bir insanın dil qabiliyyətinin bioloji xüsusiyyətlərinə bağlı olduğunu və bu qabiliyyətin müxtəlif dillərdə təkrarlana biləcəyini irəli sürür. Çomski bu nəzəriyyəni dilin formalaşma prinsiplərini başa düşmək üçün təqdim edib [1, 42-56].

Sintaksisin əsas məqsədi, dilin qrammatik quruluşunu başa düşmək və cümlə elementlərinin necə birləşərək mənalı ifadələr yaratdığını müəyyən etməkdir. Məsələn, ingilis dilində "The cat sat on the mat" cümləsində subyekt (The cat), feil (sat), və obyekt (on the mat) elementləri müvafiq olaraq müəyyən bir sintaktik ardıcıllıqla birləşir.

Bu strukturlar dilin forması ilə əlaqədardır, lakin diskursun rolu bu quruluşların konkret kommunikativ və sosial məqsədini başa düşməkdir. Sintaksis yalnız qrammatik bir çərçivə təqdim edərkən, diskurs bu çərçivənin necə işlədiyini və konkret məqsədini izah edir.

Sintaksisin sosial və kommunikativ məzmuna necə tətbiq edildiyini başa düşmək üçün praqmatik yanaşmaları nəzərə almaq vacibdir. Praqmatika, dilin istifadəsi ilə bağlı məsələləri araşdırır və sintaksisin yalnız qrammatik qaydalarla deyil, həm də kommunikativ məqsəd ilə necə işlədiyini göstərir.

Məsələn, imperativ cümlələr (əmr cümlələri) praqmatik olaraq cəza, sifariş və ya təklif kimi sosial məqsədlər güdür. İngilis dilində “Close the door” (Qapını bağla) cümləsi yalnız sintaktik olaraq bir əmrdir, lakin diskurs kontekstində bu əmrin sosial məqsədini müəyyən etmək vacibdir [6, 75-79].

Diskurs, dilin sosial və kommunikativ tərəflərini təhlil edən bir sahədir. Bu sahə cümlələrin yalnız sintaktik quruluşlarını deyil, həm də onların necə, kimə və hansı məqsədlə istifadə edildiyini izah edir. Van Dijk (2008), diskursu, insanın sosial qarşılıqlı əlaqələrinin təzahürü olaraq görür və bunun dilin müxtəlif sosial funksiyalarını başa düşməyimizə kömək etdiyini vurğulayır [2, 108-110].

Diskurs analizi yalnız cümlə quruluşlarının əlaqələndirilməsi ilə məşğul olmur, həm də cümlələrin və frazaların sosial məqsədlərini və kommunikativ rolunu araşdırır [3, 221-223]. Diskursun əsasını təşkil edən praqmatika dilin necə konkret sosial vəziyyətlərdə istifadə olunduğunu göstərir. İngilis dilindəki “I am sorry, but I cannot come” (Bağışlayın, amma gələ bilmirəm) cümləsi həm sintaksik, həm də diskurs baxımından bir təmkin və ya üzr bildirmə məqsədi güdür.

Diskursu anlamaq üçün, həm də praqmatika nəzəriyyəsinin rolu əhəmiyyətlidir. Praqmatika dilin istifadə məqsədlərini və təhlilini araşdırarkən, diskurs cümlələrin daha dərin sosial və emosional məqsədlərə xidmət etdiyini izah edir. Diskursun məqsədini anlamaq, sintaksis tərəfindən qurulmuş cümlə strukturlarının sosial təzahürlərini başa düşmək üçün vacibdir [7, 61-65].

Sintaksis və diskurs bir-birini tamamlayan, lakin bir-birindən fərqli xüsusiyyətlərə malik olan iki sahədir. Sintaksis, cümlə quruluşunun bioloji və qrammatik əsaslarını təşkil edir, diskurs isə bu quruluşları kommunikativ və sosial məqsədlər üçün necə istifadə edildiyini izah edir [5, 15-20].

Çomski (1957) və Van Dijk (2008) tərəfindən irəli sürülən nəzəriyyələr, dilin yalnız qrammatik strukturlarla məhdudlaşmadığını, eyni zamanda sosial və kommunikativ bir vasitə olduğunu göstərir. Diskurs, bu strukturun tətbiq olunduğu məzmunu müəyyən edir və məqsədini açıq şəkildə ortaya qoyur.

Sintaksis, yalnız dilin formalarını yaratmaqla kifayətlənmir, diskurs isə bu formaların sosial mənalarını başa düşməyimizə kömək edir. İngilis dilindəki sualların qurulması, məsələn, "Can you help me?" (Mənə kömək edə bilərsiniz?) cümləsində yalnız bir sual deyil, həm də bir yardım istəyini əks etdirən sosial məqsəd mövcuddur.

Sintaksis və diskurs, dilin struktur və funksional aspektlərinin qarşılıqlı əlaqəsinin anlaşılmasında əsas rola malikdir. Sintaksis dilin qrammatik çərçivəsini təşkil edərkən, diskurs bu çərçivənin sosial, mədəni və kommunikativ məqsədlər üçün necə istifadə olunduğunu izah edir. Sintaksisin funksiyası cümlə quruluşlarının bioloji və qrammatik əsaslarını müəyyən etmək olsa da, diskurs bu quruluşların sosial və kommunikativ kontekstdə necə işlədiyini açıqlayır [4, 33-45].

Dilçilik nəzəriyyələrinin inkişafı ilə, diskurs və sintaksisin bir-birini tamamlayıcı rolu daha da aydınlaşıb. Hər iki sahə dilin strukturunu anlamağa və cümlələrin sosial məqsədlərini başa düşməyə imkan verir. Chomsky və Van Dijk kimi tədqiqatçılar bu anlayışları daha da dərinləşdirərək, dilin yalnız qrammatik qaydalardan ibarət olmadığını, həm də insanların gündəlik qarşılıqlı əlaqələrini necə formalaşdırdığını vurğulamışlar.

Sintaksisin əsas məqsədi cümlə quruluşlarını tənzimləmək olsa da, diskurs, bu quruluşların sosial məqsədlərini və kommunikativ funksiyalarını izah edərək dilin tam

mənasını açır. Həm sintaksis, həm də diskurs, dilin yalnız formal quruluşlarından deyil, həm də onun sosial təzahürlərindən necə istifadə edildiyindən xəbər verir. Bu iki komponentin birgə işləməsi dilin həm koqnitiv, həm də sosial funksiyalarını formalaşdırır.

Nəticə etibarilə, sintaksis və diskurs arasındakı qarşılıqlı əlaqənin başa düşülməsi, dilin müxtəlif aspektlərini və istifadəsini daha aydın şəkildə başa düşməyə kömək edir. Bu sahələrin birgə təhlili, dilin həm qrammatik quruluşunun, həm də onun sosial və mədəni məqsədlərinin necə işlədiyini göstərir.

### *Ədəbiyyat*


1. Chomsky, N. (1957). *Syntactic Structures*. Mouton & Co.
2. Van Dijk, T. A. (2008). *Discourse and Context: A Sociocognitive Approach*. SAGE Publications.
3. Halliday, M. A. K., & Matthiessen, C. M. I. M. (2004). *An Introduction to Functional Grammar*. Arnold.
4. Austin, J. L. (1962). *How to Do Things with Words*. Harvard University Press.
5. Gumperz, J. J., & Hymes, D. (Eds.). (1972). *Directions in Sociolinguistics: The Ethnography of Communication*. Holt, Rinehart & Winston.
6. Searle, J. R. (1969). *Speech Acts: An Essay in the Philosophy of Language*. Cambridge University Press.
7. Yule, G. (1996). *Pragmatics*. Oxford University Press.



### *Summary*

This article explores how discourse and syntax shape the structure and functional nature of language. While syntax defines how sentence structures are organized and the relationships between words, discourse explains how these structures work in specific contexts and how they are applied in social relationships. The article will present examples of both English and Azerbaijani languages, based on modern linguistic theories, and will discuss in detail the interaction of discourse and syntax. The goal is to show how these two areas complement each other and how they affect the overall structure of the language.


## YAPONİYA İQTISADİYYATINDA AĞILLI ŞƏHƏRLƏR: İNNOVATİV BİZNES MODELLƏRİNİN TƏDQİQİ


***Hüseynov Mustafa O.*** 0009-0002-1039-9046

***Gəncə Dövlət Universiteti***

***e-mail: huseynov0590@gmail.com***



**Açar sözlər :** İnnovativ İqtisadiyyat, ağıllı şəhərlər, biznes model


Yaponiya, dünya miqyasında texnoloji inqilabların mərkəzi kimi tanınan və iqtisadi sabitlik baxımından lider mövqedə duran bir ölkədir. Bu ölkənin iqtisadi və sosial siyasətində ağıllı şəhərlər konsepsiyası son illərdə daha da önəm qazanmışdır. Ağıllı şəhərlər yalnız texnologiyanın tətbiqi ilə məhdudlaşmır; onlar, eyni zamanda, resursların səmərəli istifadəsi, əhalinin rifahının yüksəldilməsi və dayanıqlı inkişafın təmin olunması üçün kompleks həll yollarını özündə birləşdirir. Bu məqalədə Yaponiya iqtisadiyyatı çərçivəsində ağıllı şəhərlərin inkişafına yönəlmiş innovativ biznes modellərinin tədqiqi həyata keçirilir, eyni zamanda bu modellərin qlobal əhəmiyyəti araşdırılır.

Yaponiyanın Ağıllı Şəhər Konsepsiyası

Yaponiya ağıllı şəhər təşəbbüslərində müxtəlif innovativ yanaşmalar tətbiq edir. Bu konsepsiyanın əsasını urbanizasiya nəticəsində yaranan problemlərin həlli təşkil edir.

Yaponiya əhalisinin yaşlanması, şəhərlərdə əhalinin sıxlığı, məhdud enerji resursları və artan ekoloji problemlər bu konsepsiyanın əsas motivasiyası olmuşdur. Ağıllı şəhər layihələri əhalinin yaşayış tərzini asanlaşdırmaq, şəhərlərin ekoloji davamlılığını təmin etmək və iqtisadi inkişafı gücləndirmək məqsədini güdür.

Ən diqqətəlayiq təşəbbüslərdən biri "Fujisawa Sustainable Smart Town" (Fujisawa Dayanıqlı Ağıllı Şəhər) layihəsidir. Bu layihə, enerjidən səmərəli istifadə edən evlər, bərpa olunan enerji mənbələri ilə təmin olunan infrastruktur və rəqəmsal texnologiyalarla idarə olunan şəhər modellərini özündə birləşdirir. Şəhərdə hər bir elementin bir-biri ilə əlaqəsi təmin edilmişdir. Beləliklə, enerjidən istifadə, su təchizatı, ictimai nəqliyyat və hətta tullantıların idarə olunması rəqəmsal sistemlər vasitəsilə optimallaşdırılmışdır.

Yaponiyanın ağıllı şəhərləri, həmçinin, əhalinin sosial rifahını artırmağa yönəlib. Məsələn, yaşlı insanlar üçün rəqəmsal sağlamlıq izləmə sistemləri tətbiq olunur. Bu sistemlər vasitəsilə əhalinin sağlamlıq vəziyyəti real vaxt rejimində izlənilir, tibbi yardımlar daha tez və effektiv şəkildə təmin edilir.

İnnovativ Biznes Modelləri: Yaponiyanın Yanaşması

Ağıllı şəhərlərin inkişafında Yaponiya həm dövlət, həm də özəl sektorun əməkdaşlığını müvəffəqiyyətlə həyata keçirir. Dövlət tərəfindən hazırlanmış qanunvericilik çərçivəsi və maliyyə dəstəyi ilə yanaşı, özəl sektorun texnoloji yeniliklərə yatırım etməsi bu modellərin uğurunda mühüm rol oynayır.

**Toyota Woven City** layihəsi bu əməkdaşlığın ən bariz nümunəsidir. Bu layihədə texnologiyanın və şəhər həyatının inteqrasiyası əsasında tamamilə yeni bir şəhər modeli yaradılır. Layihədə süni intellekt, robot texnologiyaları və bərpa olunan enerji mənbələri istifadə olunur. Şəhərdə nəqliyyat vasitələri, evlər və ictimai infrastruktur tamamilə bir-biri ilə əlaqəli şəkildə idarə olunur. Bu, şəhərdə enerji səmərəliliyini artırır, ətraf mühitə mənfi təsirləri azaldır və şəhər sakinlərinin rahatlığını təmin edir.

Digər bir önəmli nümunə "Kashiwa-no-ha Smart City" layihəsidir. Bu layihə, ictimai və özəl sektorun birgə səyləri nəticəsində həyata keçirilmişdir. Layihə çərçivəsində yaşıl enerji mənbələrinin istifadəsi, ictimai nəqliyyatda səmərəliliyin artırılması və şəhər sakinlərinin rəqəmsal həllər vasitəsilə cəmiyyətlə daha sıx inteqrasiyası təmin edilmişdir.

Texnologiyanın Rolu və Əsas İstiqamətlər

Ağıllı şəhərlərin uğurunda texnologiyanın rolu əvəzedilməzdir. Yaponiya, texnoloji yeniliklərin tətbiqində lider mövqeyə malikdir. Xüsusilə, "Internet of Things" (IoT), süni intellekt (AI) və böyük məlumatların (Big Data) tətbiqi şəhər həyatını köklü şəkildə dəyişdirir.

Məsələn, ağıllı nəqliyyat sistemləri şəhərdə hərəkətin optimallaşdırılmasını təmin edir. İctimai nəqliyyat vasitələri, sürücüsüz avtomobillər və ağıllı dayanacaqlar şəhər sakinlərinin həyatını asanlaşdırır və vaxt itkisinin qarşısını alır. Bununla yanaşı, ağıllı enerji sistemləri elektrik istehlakı və paylanmasını daha səmərəli edir. Bu yanaşma həm şəhər sakinlərinin xərclərini azaldır, həm də ekoloji tarazlığı qoruyur.

Eyni zamanda, binaların rəqəmsal idarə edilməsi enerji səmərəliliyinin artırılmasına və istixana qazlarının azalmasına töhfə verir. Bu sistemlər vasitəsilə enerji istehlakı real vaxt rejimində izlənilir və avtomatik olaraq tənzimlənir.

Ekoloji və Sosial Perspektivlər

Ağıllı şəhərlər, yalnız iqtisadi və texnoloji baxımdan deyil, həm də ekoloji və sosial faydaları ilə diqqət çəkir. Yaponiyada həyata keçirilən ağıllı şəhər layihələrində ekoloji davamlılıq əsas prioritetlərdən biridir. Bərpa olunan enerji mənbələrinin istifadəsi, tullantıların təkrar emalı və karbon emissiyasının azaldılması üçün xüsusi tədbirlər həyata keçirilir.

Eyni zamanda, ağıllı şəhərlər sosial məsuliyyət məsələlərində də ön plandadır. Yaponiyada bu modellər, xüsusilə yaşlı əhali üçün daha əlverişli şərait yaratmağa yönəlib. Rəqəmsal tibbi xidmətlər, avtomatlaşdırılmış ev sistemləri və xüsusi nəqliyyat vasitələri yaşlıların və əlillərin gündəlik həyatını asanlaşdırır.

Qlobal Əhəmiyyət və Nəticə

Yaponiya iqtisadiyyatı ağıllı şəhər konsepsiyasının inkişafında dünya üçün mühüm nümunə təşkil edir. Bu yanaşma, yalnız iqtisadi inkişafı deyil, həm də sosial rifahın yüksəldilməsini və ekoloji problemlərin həllini təmin edir.

Yaponiyanın təcrübəsi göstərir ki, innovativ biznes modelləri təkcə texnoloji yeniliklərə deyil, həm də insanlara yönəlib. Bu model, digər ölkələrdə də ağıllı şəhər konsepsiyasının tətbiqi üçün əsas götürülə bilər. Ağıllı şəhərlər gələcəkdə daha səmərəli, dayanıqlı və insan mərkəzli bir cəmiyyətin yaranmasına töhfə verəcəkdir.

## *Ədəbiyyat*


1. **Kiyoshi, T. & Makoto, I.** (2018). *Smart Cities and Innovation: Sustainable Development Models in Japan*. Tokyo: Japan Publishing.
2. **Honda, Y.** (2020). *The Role of Artificial Intelligence in Smart City Development*. Journal of Urban Technology, 15(3), 120-134.
3. **Fujisawa Sustainable Smart Town Project Report**. (2019). *Fujisawa City Council*. Retrieved from www.fujisawasmartcity.com.
4. **Toyota Motor Corporation**. (2022). *Woven City: Toyota's Vision for a Connected Future*. Retrieved from www.toyota.com.
5. **Sato, M. & Takahashi, S.** (2017). *Renewable Energy and Technology in Japan's Urban Development*. Asian Energy Review, 9(2), 45-58.
6. **Kobayashi, S.** (2021). *Public-Private Partnerships for Smart City Development in Japan: A Case Study of Toyota and Fujisawa*. Journal of Sustainable Development, 22(4), 233-249.
7. **Higashi, K.** (2019). *The Digital Transformation of Urban Spaces: Japan's Smart Cities*. International Journal of Urban Studies, 31(1), 102-115.
8. **Kato, R. & Nakano, T.** (2020). *Smart Cities in Japan: A New Era of Urban Solutions*. Global Urban Trends, 11(3), 90-108.


## *Summary*


This article explores the innovative business models for smart cities within the framework of Japan's economy. Japan, as a global leader in technology and sustainability, has developed groundbreaking approaches to address urban challenges such as population aging, limited energy resources, and environmental concerns. Notable initiatives like Fujisawa Sustainable Smart Town and Toyota Woven City integrate renewable energy, digital technologies, and artificial intelligence to enhance energy efficiency, social welfare, and ecological sustainability. The collaboration between public and private sectors has been instrumental in implementing these models. Japan's experience serves as a global example of how smart city concepts can contribute to economic growth, environmental balance, and social well-being.


## *Резюме*


В статье рассматриваются инновационные бизнес-модели для умных городов в рамках экономики Японии. Япония, являясь мировым лидером в области технологий и устойчивого развития, разработала передовые подходы к решению городских проблем, таких как старение населения, ограниченные энергетические ресурсы и экологические вызовы. Такие проекты, как Fujisawa Sustainable Smart Town и Toyota Woven City,

интегрируют возобновляемую энергию, цифровые технологии и искусственный интеллект для повышения энергоэффективности, социального благополучия и экологической устойчивости. Сотрудничество государственного и частного секторов играет ключевую роль в реализации этих моделей. Опыт Японии является примером для всего мира, как концепция умных городов может способствовать экономическому росту, экологическому равновесию и социальному благополучию.

## PEDAGOJİ: EĞİTİMİN GELİŞİMİNDE BİLİMSEL VE SANATSAL PERSPEKTİF

*Kal Almira Tuğba Ali*
*Abdurrahim Karakoç Anadolu Lisesi Ankara*

**Anahtar Kelimeler:** Pedagoji, eğitim, öğrenme süreçleri, bireysel gelişim, teknolojinin eğitime entegrasyonu, sosyal adalet, kapsayıcı eğitim, hayat boyu öğrenme, öğretim yöntemleri, eğitimde yenilikler

**Keywords:** Pedagogy, education, learning processes, individual development, integration of technology in education, social justice, inclusive education, lifelong learning, teaching methods, innovations in education.

PEDAGOJİ: EĞİTİMİN SANATI VE BİLİMİ

Pedagoji, bireylerin öğrenme süreçlerini düzenleyen ve bu süreci anlamlandıran bir bilim dalıdır. Eğitim, yalnızca bilgi aktarmanın ötesinde, bireyin kişisel, sosyal ve duygusal gelişimini destekleyen çok boyutlu bir süreçtir. Bu bağlamda pedagoji, hem eğitimin teorik temellerini inşa eder hem de uygulamada yol gösterici bir rehber olur. Günümüzde hızla değişen dünya, pedagojinin kapsamını genişletmiş ve ona yeni bir dinamizm kazandırmıştır.

Bu makalede pedagojinin temel kavramları, eğitime getirdiği yenilikler ve günümüz eğitim anlayışındaki rolü ele alınacaktır.

PEDAGOJİNİN TANIMI VE TEMEL AMACI

Pedagoji, kökeni Antik Yunan'a dayanan ve "çocuk eğitimi" anlamına gelen bir kavramdır. Ancak günümüzde bu terim, her yaştan bireyin öğrenme süreçlerini inceleyen kapsamlı bir disiplin haline gelmiştir. Pedagoji, öğrenmenin nasıl gerçekleştiğini anlamaya, bireylerin potansiyellerini ortaya çıkarmaya ve onları topluma faydalı bireyler haline getirmeye odaklanır.

Pedagoji neyi hedefler?

1. Bireysel Gelişim: Pedagoji, bireyin zihinsel, duygusal ve sosyal becerilerini geliştirmeyi amaçlar [1][4].

2. Toplumsal Uyum: Eğitim, bireyin toplumsal normlara uyum sağlamasını ve sosyal rollerini yerine getirebilmesini destekler [2][3].

3. Yaşam Boyu Öğrenme: Pedagoji, öğrenmenin yalnızca okullarla sınırlı olmadığını, yaşam boyu devam eden bir süreç olduğunu vurgular [7].

PEDAGOJİNİN İLKELERİ

Pedagoji, bireyin öğrenme sürecini etkili ve anlamlı hale getirmek için bazı temel ilkelere dayanır:

1. Bireysel Farklılıklar: Her birey, öğrenme hızı, stili ve ihtiyaçları açısından farklıdır. Pedagoji, bireylerin bu farklılıklarını göz önünde bulundurur [4].

2. Deneyim Temelli Öğrenme: İnsanlar, yaşadıkları deneyimlerden öğrenir. Bu nedenle, pedagojik yaklaşımlar bireyin aktif olarak sürece dahil olmasını teşvik eder [1][2].

3. Motivasyon: Öğrenme sürecinin etkin bir şekilde ilerlemesi için bireyin motivasyonunun yüksek olması önemlidir. Pedagoji, bireyin ilgi ve ihtiyaçlarını göz önünde bulundurarak öğrenme süreçlerini planlar [6].

4. Eleştirel Düşünce: Pedagoji, bireyin yalnızca bilgi almasını değil, aynı zamanda bu bilgiyi analiz etmesini, sorgulamasını ve uygulamasını sağlar [3][8].

PEDAGOJİ VE MODERN EĞİTİM

21. yüzyılda eğitim anlayışı, bilgi aktarımına dayalı geleneksel modellerden, bireyin merkezde olduğu dinamik ve yenilikçi yaklaşımlara evrilmiştir. Bu değişim, pedagojinin de modern çağın ihtiyaçlarına cevap verecek şekilde dönüşmesine neden olmuştur.

1. Teknolojinin Eğitime Entegrasyonu:

Dijital çağda pedagoji, teknolojiyi öğrenme sürecine entegre etmenin yollarını aramaktadır. E-öğrenme platformları, artırılmış gerçeklik uygulamaları ve yapay zeka destekli öğrenme araçları, pedagojik uygulamalarda devrim yaratmıştır [6][7]. Ancak bu teknolojilerin etkili kullanımı, pedagojik uzmanlık gerektirir. Teknoloji, pedagojik ilkeler doğrultusunda kullanıldığında bireyin öğrenme deneyimini zenginleştirebilir.

2. Kapsayıcı ve Eşitlikçi Eğitim:

Modern pedagoji, eğitimde fırsat eşitliğini ve kapsayıcılığı sağlamayı hedefler. Sosyoekonomik durum, kültürel farklılıklar ve bireysel engeller, bireyin öğrenme sürecini etkileyebilir. Pedagoji, bu engelleri ortadan kaldırmayı ve herkesin eğitimden eşit şekilde yararlanmasını amaçlar [3][7]

3. Bireyselleştirilmiş Öğrenme:

Tek tip eğitim modelleri yerini, bireysel ihtiyaçlara uygun öğrenme yaklaşımlarına bırakmaktadır. Bu bağlamda pedagoji, bireyin güçlü ve zayıf yönlerini analiz ederek, kişiselleştirilmiş öğrenme stratejileri geliştirmeye odaklanır [4][5].

PEDAGOJİNİN TOPLUMSAL ROLÜ

Eğitim yalnızca bireylerin gelişimiyle sınırlı değildir; aynı zamanda toplumsal dönüşümün temel araçlarından biridir. Pedagoji, bireyleri bilinçli, sorumluluk sahibi ve katılımcı bireyler olarak yetiştirerek toplumsal yapının güçlenmesine katkıda bulunur.

1. Sosyal Adalet:

Pedagoji, eğitimin herkes için erişilebilir olmasını sağlamayı hedefler. Fırsat eşitliği, toplumdaki eşitsizliklerin giderilmesine katkıda bulunur [3][6].

2. Kültürel Çeşitlilik:

Farklı kültürlere, değerlere ve yaşam tarzlarına saygı duymayı teşvik eden pedagojik yaklaşımlar, küreselleşen dünyada barış ve iş birliğini destekler [7].

3. Sürdürülebilirlik:

Pedagoji, bireylere çevre bilinci, toplumsal sorumluluk ve etik değerler kazandırarak sürdürülebilir bir gelecek inşa etmeye yardımcı olur [6][8].

GELECEĞİN PEDAGOJİSİ

Pedagoji, her dönem toplumun ihtiyaçlarına göre yeniden şekillenmiştir ve gelecekte de bu dönüşüm devam edecektir. Yapay zeka, büyük veri ve dijitalleşme, pedagojinin yeni araçlarını ve yöntemlerini belirleyecek unsurlar arasında yer almaktadır [6][7].Ancak geleceğin pedagojisi, teknolojinin ötesinde insan odaklı bir yaklaşımı benimsemek zorundadır. Bireylerin yaratıcı düşünme, eleştirel analiz ve duygusal zekâ gibi becerilerini geliştiren bir pedagoji anlayışı, yalnızca bireylerin değil, tüm insanlığın ilerlemesine katkıda bulunacaktır [5][8].

SONUÇ

Pedagoji, eğitimin hem sanatı hem de bilimidir. Bireylerin potansiyellerini ortaya çıkarmak, toplumsal sorunlara çözüm üretmek ve sürdürülebilir bir gelecek inşa etmek için

güçlü bir araçtır. Modern dünyada, pedagoji yalnızca bir öğretim yöntemi değil, bireyleri ve toplumları dönüştüren dinamik bir süreçtir.

Eğitim sistemlerinin başarılı olabilmesi için pedagojik ilkelerin temel alınması şarttır. Bireylerin yeteneklerini geliştiren, sosyal becerilerini destekleyen ve onları yaşam boyu öğrenme yolculuğuna hazırlayan bir pedagoji anlayışı, hem birey hem de toplum için en büyük kazançtır.

### *Kaynakça*


1. Dewey, John. Democracy and Education: An Introduction to the Philosophy of Education. New York: Macmillan, 1916. Pedagojinin temellerini anlamada demokratik eğitimin ve pratik yaklaşımların önemini vurgulayan temel bir kaynaktır.
2. Vygotsky, Lev. Mind in Society: The Development of Higher Psychological Processes. Harvard University Press, 1978. Öğrenmenin sosyal bir süreç olduğunu açıklayan ve yakınsak gelişim alanı teorisini ortaya koyan önemli bir eser.
3. Freire, Paulo. Pedagogy of the Oppressed. New York: Continuum, 1970. Eğitimin özgürlük ve sosyal adalet bağlamında nasıl bir dönüşüm yaratabileceğini açıklayan önemli bir çalışma.
4. Piaget, Jean. The Origins of Intelligence in Children. International Universities Press, 1952. Bireylerin zihinsel gelişim aşamalarını açıklayan ve pedagojide çocukların bireysel gelişimini temel alan önemli bir kaynak.
5. Bruner, Jerome. The Process of Education. Harvard University Press, 1960. Eğitimde yapısal yaklaşımın önemini vurgulayan ve pedagojide yeni bakış açıları sunan bir araştırma.
6. UNESCO. Education for Sustainable Development Goals: Learning Objectives. Paris: UNESCO, 2017. Sürdürülebilir kalkınma hedeflerine ulaşmak için eğitim ve pedagojinin nasıl kullanılabileceğini gösteren çağdaş bir yaklaşım.
7. OECD. The Future of Education and Skills 2030. OECD Publishing, 2018.Modern eğitim sistemlerinin geleceğiyle ilgili küresel perspektifleri ve pedagojik yaklaşımları analiz eden bir rapor.
8. Mead, George Herbert. Mind, Self, and Society. Chicago: University of Chicago Press, 1934. Eğitimin sosyal yönlerini vurgulayan ve bireylerin topluma entegrasyonunda pedagojinin rolünü açıklayan temel bir çalışma. Bu kaynaklar, pedagojinin bilimsel, felsefi ve uygulamalı alanlardaki çeşitli yönlerini derinleştirerek geniş bir anlayış sunmaktadır.


## PEDAGOGY: SCİENTİFİC AND ARTİSTİC PERSPECTIVE İN THE DEVELOPMENT OF EDUCATİON


***KAL Almira Tuğba Ali***
***Abdurrahim Karakoç Anadolu Lisesi Ankara***


Pedagogy is the science and art of education, focusing on the processes of learning and personal development. It aims to help individuals realize their full potential, adapt to societal norms, and engage in lifelong learning. Modern pedagogy is rooted in the understanding that each individual learns differently, and it emphasizes experience-based learning, motivation, critical thinking, and individualized approaches. The integration of technology into education, the promotion of inclusivity, and the focus on social justice are central to contemporary pedagogical practices.

In today's world, pedagogy not only facilitates the transfer of knowledge but also contributes to societal transformation. It plays a crucial role in addressing issues such as inequality, cultural diversity, and environmental sustainability. The future of pedagogy is shaped by advancements in artificial intelligence and digital learning tools, but its core

mission remains human-centered, aiming to develop critical skills like creativity, analysis, and emotional intelligence in learners.

Ultimately, pedagogy is a dynamic and evolving field that not only shapes individuals but also impacts the future of society by fostering responsible, knowledgeable, and compassionate citizens.

## SUYUN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNƏ TƏSİR EDƏN ƏSAS ANTROPOGEN VƏ TƏBİİ AMİLLƏR

***Məmmədcan Aysun Eldəniz***
***Qərbi Kaspi Universiteti, Bakı***
***memmedcanaysun055@gmail.com***

**Key words:** water, quality, anthropogenic

Su həyat üçün əsas resurslardan biridir və onun keyfiyyəti insanların sağlamlığına, kənd təsərrüfatına, sənaye proseslərinə və ekosistemlərin davamlılığına birbaşa təsir göstərir. Su, bütün dünyada istehsal proseslərinin hər bir mərhələsində əsas resurs kimi istifadə olunur.

Sular iki əsas qrupa bölünür:

1) təbii sənaye suları
2) təbii sular

Təbii sular isə öz növbəsində üç kateqoriyaya ayrılır:

1) atmosfer suları
2) səth suları
3) yeraltı sular

Suyun keyfiyyət göstəricilərinə onun codluğu, ümumi duzluluğu, sabitliyi və oksidləşmə təsiri daxildir. Codluq suyun tərkibindəki kalsium və maqnezium ionlarının verdiyi spesifik xüsusiyyətlərdən yaranır və üç növə bölünür:

1. müvəqqəti codluq
2. daimi codlu
3. ümumi codluq

Müvəqqəti codluq fiziki üsullarla asanlıqla aradan qaldırıla bilir. Bu növ codluğun tərkibində əsasən kalsium və maqnezium karbonatları mövcuddur və suyu qaynatmaqla bu maddələr ayrılır. Bu proses aşağıdakı reaksiyalarla izah olunur:

$Ca(HCO_3)_2 \rightarrow CaCO_3 + H_2O + CO_2$

$Mg(HCO_3)_2 \rightarrow MgCO_3 + H_2O + CO_2$

$MgCO_3 + H_2O \rightarrow Mg(OH)_2 + CO_2$

Daimi codluq isə suyun tərkibindəki kalsium və maqnezium xloridlərinin, sulfatlarının, nitratlarının və ya silikatlarının olması ilə bağlıdır. Daimi codluğun aradan qaldırılması kimyəvi üsullarla həyata keçirilir. Bu proseslər aşağıdakı reaksiyalarla baş verir:

$Ca(HCO_3)_2 + Ca(OH)_2 \rightarrow 2CaCO_3 + 2H_2O$

$Mg(HCO_3)_2 + 2Ca(OH)_2 \rightarrow Mg(OH)_2 + 2CaCO_3 + 2H_2O$

$MgSO_4 + Ca(OH)_2 \rightarrow Mg(OH)_2 + CaSO_4$

$CaSO_4 + Na_2CO_3 \rightarrow CaCO_3 + Na_2SO_4$ (kimya sənayesində).

Suyun keyfiyyət göstəricilərinə təbii və antropogen (insan fəaliyyəti nəticəsində yaranan) amillər təsir edir.

Təbii amillərə aşağıdakılar aid edilə bilər:

-geoloji
- hidrologiya
-iqlim
- torpaq xüsusiyyətləri və s.
Antropogen amillər isə aşağıdakılar aid edilə bilər:
- sənaye tullantıları
-kənd təsərrüfatı fəaliyyəti
-urbanizasiya [2; 3]

**Təbii amillərin təsiri.**

Su mənbələrinin geoloji quruluşu, suyun kimyəvi tərkibinə böyük təsir göstərir. Məsələn, əhəng daşı olan ərazilərdən keçən suların tərkibində kalsium miqdarı yüksək olur. [4] Azərbaycanda Mingəçevir və Şəmkir su anbarlarının yerləşdiyi ərazilərdə bu təsir müşahidə edilir.[7] Bu növ təbii minerallarla zəngin olan su keyfiyyət göstəricilərini yaxşılaşdırsa da, bəzi hallarda müəyyən mineralların artması suyun içməli keyfiyyətini aşağı sala bilər.

Suyun keyfiyyəti iqlim şəraitindən də asılıdır. Yağıntıların miqdarı, temperatur dəyişiklikləri və küləklər suyun çirklənmə səviyyəsinə təsir edə bilər. [5] Yağıntıların azalması ilə əlaqədar quraqlıq dövrlərində çirklənmə səviyyəsi yüksəlir, çünki suyun təmizlənməsi üçün təbii proseslər kifayət qədər sürətlə baş vermir. Eyni zamanda, suyun hərəkəti, yəni çayların və göllərin qarışması təbii təmizləmə prosesinə kömək edir.

**Antropogen amillərin təsiri.**

Sənaye müəssisələrinin fəaliyyəti suyun çirklənməsinə ən böyük təsir göstərən amillərdən biridir. Xüsusilə ağır metallar, kimyəvi maddələr və radioaktiv maddələr kimi çirkləndiricilər suyun keyfiyyətini kəskin şəkildə aşağı salır [1;2]. Bakı şəhəri yaxınlığında yerləşən sənaye zonaları, xüsusən də neft sənayesi tullantılarının çaylara axıdılması bu problemi daha da dərinləşdirir [6]. Bu tullantılar suyun içməli keyfiyyətinə mənfi təsir edir və insan sağlamlığı üçün təhlükələr yaradır.

Kənd təsərrüfatında istifadə olunan gübrələr və pestisidlər suyun tərkibində nitrat və fosfat səviyyələrini artırır [3]. Bu maddələr su yosunlarının çoxalmasına səbəb olur (evtrofikasiya), nəticədə ekosistem pozulur. Azərbaycanda kənd təsərrüfatının geniş yayıldığı Kür-Araz ovalığında bu növ çirklənmə müşahidə edilir [8]. Bundan əlavə, kənd təsərrüfatında istifadə olunan kimyəvi maddələr suya qarışaraq onun mikrobioloji və kimyəvi xüsusiyyətlərini dəyişdirir [2].

Şəhərlərin genişlənməsi ilə çirkab sularının su mənbələrinə axması artır. Urbanizasiya prosesi nəticəsində təmizlənməmiş məişət sularının çaylara axıdılması suyun çirklənmə səviyyəsini yüksəldir [5]. Bakı şəhərinin ətrafındakı bəzi çaylarda bu növ çirklənmə halları müşahidə olunur. Eyni zamanda, nəqliyyatın artması nəticəsində ətraf mühitə zərərli qazların yayılması da yağış suyu vasitəsilə çaylara çataraq çirklənməyə səbəb olur [4].

Su resurslarının keyfiyyətinin qorunması həm təbii proseslərin balanslaşdırılması, həm də insan fəaliyyətinin tənzimlənməsi ilə bağlıdır. Təbii amillər suyun təmizliyini təmin etsə də, antropogen amillər, xüsusilə sənaye və kənd təsərrüfatı fəaliyyətləri bu keyfiyyət göstəricilərini pozur [3]. Azərbaycanın su resurslarının qorunması üçün müvafiq ekoloji tədbirlər görülməli və çirkləndirici mənbələr azaldılmalıdır [8]. Bu istiqamətdə aparılan tədqiqatlar suyun keyfiyyətini yaxşılaşdırmaq və insanların sağlamlığını qorumaq üçün vacib elmi biliklər yaradır.

***Ədəbiyyat***

1. Albek, E., & Kara, M. (2013). Çevre Kirliliği ve Su Kaynaklarına Etkisi. Çevre Bilimleri Dergisi, 4(3), 100-112.

2. Barlas, N. (2018). Su Kirliliği ve İnsan Sağlığına Etkisi. Sağlık ve Çevre Bilimleri Dergisi, 12(2), 55-70.
3. Erturk, F. (2015). Tarım İlaçlarının Su Kaynaklarına Etkisi. Ekoloji Bilimler Dergisi, 6(2), 30-45.
4. Mehta, A., & Rai, S. (2020). Natural Factors Influencing Water Quality. Environmental Studies Journal, 15(1), 120-132.
5. Özdemir, H., & Çetinkaya, M. (2019). Endüstriyel Atıkların İçme Suyu Kalitesine Etkisi. Çevre Koruma Dergisi, 9(4), 75-88.
6. Əliyev, H. (2016). Azərbaycanın Su Tullantıları Problemi və Ekoloji Çıxış Yolları. Bakı: Elm Nəşriyyatı.
7. Quliyev, M., & Məmmədov, A. (2017). Azərbaycanın Hidroloji Şəraiti və Suyun Keyfiyyətinə Təbii Təsirlər. Bakı: Təbiət Nəşriyyatı.
8. Əliyev, H., & Quliyev, M. (2019). Kənd Təsərrüfatı Çirklənməsi və Kür-Araz Ovalığında Su Keyfiyyəti. Bakı: Ekologiya Nəşriyyatı.
9. https://www.azmiib.az/movzu/Kimya-s%C9%99nayesind%C9%99-su
10. https://www.britannica.com/science/water-pollution

***Abstract***

This article emphasizes that water is the main resource for life, and its quality is important for human health and ecosystems. Water sources are divided into two main groups: natural (atmosphere, surface and ground water) and industrial water. Water quality is affected by natural (geological structure, climate, etc.) and anthropogenic (industrial waste, agriculture, urbanization) factors. Natural factors shape the mineral content of water and the purification process, while anthropogenic factors increase the risk of pollution. Information is given about the negative effects of industry and agriculture on water in Azerbaijan.

## İNKLÜZİV TƏHSİLİN CƏMİYYƏTİMİZDƏ YERİ, ROLU VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

***müəllim Mirzəyeva Sevinc Tofiq qızı***
***ADPU-nun Ağcabədi filialı***

**Açar sözlər:** İnklüziya, inklüziv təhsil, SİM, inklüziv cəmiyyət, adaptasiya, layihə.
**Key words:** Inclusion, inclusive education, SIM, inclusive society, adaptation, project.

Dünyada yaşayan çoxsaylı insanlar cəmiyyətin bütün üzvlərin dəyərli hesab edildiyi və daxil olduğu qruplar şəklində görürlər. Bu məhz həmin insanlardır ki, inklüziv cəmiyyətin qurulması prosesini dəstəkləyir. Əks halda biz uşaqlarımıza mədəniyyət, milli mənsubiyyət, dil, ailə mənsubiyyəti və bəli, daha faciəvi müxtəlif əqli, sosial-emosional və hissi-fiziki bacarıqların müxtəlifliklərinə yalnız tolerantlıqla deyil hətta yüksək dəyərlərlə yanaşmaqla bir yerdə necə yaşayıb və işləməyi öyrətməliyik.

İnklüziv sözü fransızca – inclusive "özünə daxil edən", latınca – inkludə "nəticəyə gəlmək" mənasını verir. İnklüziv təhsil– uşaqların müxtəlif ehtiyaclarına tələbatlarına uyğunlaşdırılmış, fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, öz həmyaşıdları olan tipik uşaqlarla eyni məktəbdə, eyni sinifdə təhsilə cəlb edilməsidir. İnklüziv cəmiyyətin yaranması üçün, təhsilin hamı üçün əlçatan olmasını təmin edən özlüyündə mühüm inklüziv dəyərləri, prinsipləri birləşdirən inklüziv təhsil vacib

amillərdəndir. İnklüziv təhsilə cəlb olunanlar arasında sadəcə xüsusi qayğıya ehtiyacı olan uşaqlar deyil, eyni zamanda validey himayəsindən məhrum olmuş, davranışında müəyyən problemlər olan çətin tərbiyə olunan uşaqları və s. aid etmək olar. İnklüziv təhsilin əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarının, maraq və tələbatlarının, fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə düzgün, səmərəli metodun seçilməsi yolu ilə bacarıqlarının inkişaf etdirilməsi, onların sosial mühitə inteqrasiyasına şərait yaratmaqdır. Eyni zamanda valideynlərin, cəmiyyətin digər üzvlərinin maarifləndirilməsi, bu sahədə çalışan müəllimlərin metodik hazırlığının inkişaf etdirilməsi, inklüziv təhsildə valideyin icma, müəllimlər arasında sıx əməkdaşlıq, birgə layihələrin təşkili sayəsində SİM uşaqların cəmiyyətə qazandırılmasıdır. İnklüziv təhsil, hər bir uşağın potensialını ortaya çıxarmaq və onlara keyfiyyətli təhsil imkanı yaratmaq üçün vacibdir. Bu, cəmiyyətimizin daha ədalətli və bərabər bir gələcəyə doğru irəliləməsi üçün çox mühüm rol oynayır. Daha tolerant, anlayışlı, fərqliliklərə açıq və bərabər bir cəmiyyət qurmağa kömək edir. Gələcək nəsillərin daha bərabər və ədalətli bir dünyada yaşamaları üçün zəmin yaradır. İnklüziya, dilindən, dinindən, irqindən, sosial-iqtisadi statusundan, xüsusi ehtiyacı/əlillik vəziyyəti və s. olub-olmamasından asılı olmayaraq bütün insanların öz həyatlarında aktiv rol alaraq yaşadığı cəmiyyətin tam fəal üzvünə çevrilməsini müdafiə edir. İnklüziv cəmiyyətin yaradılması inklüziv təhsilin təşkili ilə birbaşa əlaqəlidir. İnklüziv Təhsil, anlayışlı olmağı təşviq edir, diskriminasiyanı azaldır və sosial inteqrasiyanı gücləndirir.[1]

BMT-nin "Uşaq Hüquqları Konvensiyası" nın 28-ci maddəsində qeyd olunur ki, hər bir uşağın təhsil almaq hüququ var və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsi dəstəklənir. Milli qanunvericilikdə də həmçinin bu öz əksini tapmışdır. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. BMT- nin "Əlillərin hüquqları haqqında" Konvensiyası xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsil almaq hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı avantajlı təhsil mühiti olduğunu təşviq edir.

Qeyd etməliyəm ki, inklüziv təhsilin təməli ilk dəfə Parisdə görmə məhdudiyyətli usaqlar üçün məktəbin açılması ilə qoyulub. Daha sonra bu bir estafet halında Avropanın bir çox ölkəsində və Rusiyada, 1830-cu ildə isə ABŞ-da tətbiq olunub. Azərbaycanda SİM uşaqların ehtiyaclarını qarşılamaq üçün çox işlər görüb, hal-hazırda da görülməkdə davam edir. 2001-ci ilin iyulunda Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Ölkəmizdə İnklüziv Təhsil haqqında qanun 2004 –cü ildən qüvvəyə minmiş, Nazirlər Kabinetinin 3 fevral, 2005-ci ildə verilmiş 20 № li qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin" təşkili üzrə İnkişaf Proqramının (2005-2009) təsdiq edilməsi ilə inklüziv təhsili tətbiq edilmiş, respublikanın şəhər və rayonlarının orta ümümtəhsil məktəb və uşaq bağçalarında İnklüziv Təhsil Pilot Layihələrinin icrasına başlanılmışdır. Hal-hazırda da davam edən prosesin inkişafına yönələn addımlar atılmaqda davam etdirilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil, reabilitasiya, sosial inteqrasiya üçün müxtəlif proqramlar mövcuddur. UNİSEF-in dəstəyi ilə 2012-2019-cu illər üçün "İnklüziv Təhsilin İnkişafı üzrə Dövlət proqramı" hazırlanıb və Nazirlər Kabinetinə təqdim olunub. Həmin Proqramın icrasına daha çox dəstək vermiş Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır və bu sahədə Azərbaycan Respublikasının birinci vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər əvəzolunmazdır. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı

ilə təsdiq edilmiş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” SİM şəxslərin təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir. ARTİ, RİİB, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondu (UNICEF) ilə əməkdaşlıq zəminində həyata keçirilən layihələr (Müəllim İnkişafı Mərkəzləri, “İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi” “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması”, “Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv keyfiyyətli təhsilin genişləndirilməsi, İnklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi”) “İnklüziya mədəniyyətinin formalaşdırılması” kimi mövzularda görüşlərin, maarifləndirici tədbirlərin təlimlərin təşkili, həmçinin mütəxəssislər tərəfindən müəllimlər, korreksiyaedici pedaqoqlar, məktəb psixoloqları və valideynlərə Fərdi Təlim Planlarının tərtibi, təkmilləşdirilməsi və tətbiqi üzrə lazımi köməkliyin göstərilməsi, təlim prosesinin səmərəli təşkilinə kömək etmək üçün “Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili” adlı metodik vəsait hazırlanması SİM uşaqların cəmiyyətə qazandırılması üçün dövlətimiz tərəfindən atılan önəmli amillərdən bəziləridir. Həmçinin Fin təhsil sisteminə nəzər saldıqda ən əsas məqamlardan biri də “erkən müdaxilə” məsələsi olduğunu görərik. Fin təhsil sistemində uşaqların erkən yaşlardan çətinlik çəkdiyi sahələr müəyyən edilir, ailə ilə müştərək şəkildə həmin sahələrdə uşaqların bacarıqlarının artırılması təmin edilir. Ailələr müəllimlər və şagirdlərlə birlikdə məktəbin təhsil və icra planlarının hazırlanması və tətbiqi və dəyərləndirməsində birbaşa iştirak edirlər. Bu da özlüyündə erkən müdaxilənin önəmini bir daha sübüta yetirir.

Ölkəmizdə İnklüziv təhsillə bağlı keçirilən innovativ layihələrə dəstək də artırılıb. Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalibi olan “Səsli dərslik” layihəsi bu gün də uğurla davam etdirilir. Müəllimlər inklüziv təhsili tətbiq edə bilmək üçün praktiki dəstəyə ehtiyac duyur. Bunu təmin etmək üçün peşəkar təlim icmaları yaradılmalıdır. Peşəkar Təlim İcmaları şagirdlərin nailiyyətlərini yüksəltmək üçün davamlı olaraq müəllimlərin fəaliyyətini birgə tədqiq edirlər.

BMT-nin 2030 Gündəliyinə nail olunması, o cümlədən “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən əhəmiyyətli işlər görülür. Beləliklə, Elm və Təhsil Nazirliyinin son dövrlərdə fəaliyyət planlarında inklüziv təhsil təşkil olunan ümumi təhsil müəssisələrinin əhatə dairəsinin genişləndirilməsi və əlilliyi olan uşaqların təhsilə cəlb edilməsi xüsusi olaraq nəzərə alınır.[2]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2023-cü il tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnklüziv təhsilin təşkili Qaydası” ilə tənzimlənir. İnklüziv təhsil zamanı uğurlu naliyyətlərin əldə edilməsi üçün məktəbin resurs təminatının strategiyalara uyğun təşkili, universal öyrənmə dizaynı ilə təhsilin hər kəs üçün əlçatan olmasını təmin etmək, əməkdaşlıq prosesinin sıx qurulması, müəllimin xüsusi qayğıya ehtiyacı olan uşaqların fərdi ehtiyac və tələbatlarını, xüsusiyyətlərini nəzərə alaraq dərs prosesinin uyğun metodları müəyyənləşdirərək təşkili, dəstəkləyici, inkişafetdirici, xüsusi ilə də sağlam psixoloji mühitin inklüziv dəyərlərə əsaslanaraq yaradılması inklüziv təhsildə dərs prosesinin keyfiyyətli təşkilinə uğurlu olması ilə nəticələnir. İnklüziv mərkəzlərin, fəaliyyət göstərən pedaqoq, psixoloq, loqopedlərin əzmkarlıqlarını, SİM uşaqların təhsil prosesini avantajlı hala gətirilməsi, ehtiyaclarına uyğun, əlçatan mühitin yaradılması üçün yardımçı təlim texnalogiyalarının (səsi mətnə, mətni səsə çevirən cihazlar, diktafonlar, interaktiv lovhələr) rolunu da xüsusi qeyd etmək lazımdır.

Gəlin bir vətəndaş kimi hər birimiz də üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirək, o uşaqların qanadlarını, gələcək ilə bağlı arzu, ümidlərini qırmayaq. Gəlin bu sahədə də həmrəy olaq xüsusi qayğıya ehtiyacı olan saf, təmiz fidanlarımızı parlaq gələcəkləri üçün inklüziv təhsilə cəlb edək. İnklüziv təhsil mühitinin davamlı inkişafı üçün müntəzəm qiymətləndirmə, təkmilləşdirmə və yeni təcrübələrin tətbiqi vacibdir. İnklüziv dəyərlər, gələcəkdə daha ədalətli, bərabər bir cəmiyyət yaratmağa istiqamətlənmişdir. Çatışmamazlıqları deyil mövcud potensialı aşkara çıxardığı, bərabərhüquqlu mühit yaratdığı üçün gəlin inklüziv təhsili daha da inkişaf etdirək.

Coralie Seversin sözləri ilə desək:
Mənim ayaqlarım yoxdur,
Lakin mənim hələ də hisslərim var,
Mən görmürəm,
Lakin mən hər zaman düşünürəm
Baxmayaraq ki, eşitmirəm,
Mən hələ də ünsiyyət qurmaq istəyirəm,
Nə üçün insanlar məni faydasız,
düşünə bilməyən, danışa bilməyən hesab edirlər,
Halbuki mən digərləri kimi Dünya haqqında fikirləşməyi bacarıram. [3]

Əngəl zehnimizdə, qəlbimizdə, vicdanımızda olmasın...ən böyük əngəl sevgisizlikdir! Gəlin xüsusi qayğıya ehtiyacı olan gül balalarımızı öz sevgimizlə sağaldaq!

***Ədəbiyyat***

1. İnkulizv Təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Loreman, Joanne Deppeler, David Harvey. Allen &Unwın 2005.
2. https://www.old.muallim.edu.az/news.php?id=2626
3. Ölkəmizdə və dünyada inkluziv təhsil təcrübələri. https://inclusiveduazerbaijan.wordpress.com › ...

***Summary***

The thesis talks about creating accessible and equal conditions for all children, and the importance of diverse education. The programs adopted in our country related to inclusive education, the full involvement of mentally and physically disabled children in all aspects of school and education is mentioned as the main priority factor.

The article also provides information on inclusive education measures, projects and future perspectives of inclusive education for the organization of an inclusive society.

## ELM VƏ TEXNOLOGİYANIN İQTİSADİ İNKİŞAFA TƏSİRİ

***Quliyeva Könül Nizami qızı***
***Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** Dünyada baş verən qlobal dəyişikliklər ölkələrin iqtisadi siyasətinin müəyyən dərəcədə dəyişməsini qaçınılmaz edir. İqtisadi inkişafının təmin edilməsi naminə görülən bir sıra tədbirlərdən ən başlıcası elmin və texnologiyanın iqtisadi sahələrə inteqrasiyasını təmin etməkdir. Hər bir ölkənin öz starteji yol xətirəsində innovativ ideyaların reallaşdırılması üçün münbit şəraitin yaradılmasını daxil etməsi məqsədəuyğundur. Elmi-texniki tərəqqinin istehsalatda öz əksini tapması ölkə iqtisadiyyatında mövcud olan çatışmazlıqların həll yolunun tapılmasında müsbət addım kimi qiymətləndirilə bilər.

**Açar sözlər:** elm, texnologiya, innovasiya, rəqabət, invesyisiya.

**Key words:** science, technology, innovation, competition, investment.

İqtisadi inkişaf göstəricilərinin maksimum səviyyəyə çatdırılması hər bir dövlətin iqtisadi siyasətinin prioritetlərindəndir. Bu kontekstdə, istər əhalinin həyat səviyyəsinin yüksəldilməsində, istər ümumi daxili məhsul və ümumi milli məhsulun artırlımasında ölkə iqtisadiyyatının digər ölkələrlə rəqabət aparmaq qabiliyyətinə malik olması diqqət yetirilməli olan məqamlardandır. Klassik məktəbin nümayəndələrinin müəyyən etdiyi iqtisadi artıma təsir edən amillərin əsasında əmək, kapital və torpaq dayanır [5]. Sadalanan göstəricilərin mərkəzində isə insan kapitalı durur. İnsan kapitalının inkişafının və ondan səmərəli şəkildə istifadənin ən vacib elementlərindən biri onun elmi, bilik və bacarığının istehsala verə biləcəyi tövhədir [4].

İnnovativ iqtisadiyyatda elmin istehsal prosesinə inteqrasiyası qaçınılmazdır. Yeni növ məhsulların və ya insanlar tərəfindən rəğbət görməyən məhsulların daha təkmil formalarının istehsalı günbəgün artan əhalinin tələbatını ödəməklə yanaşı, iqtisadiyyatın inkişafında da mühüm rol oynayır. Texnologiyanın inkişafı iqtisadi artım amillərinin sırasına texnologiyanın (Romer) və insititutların (Rodrik və Robinson) da əlavə edilməsinə imkan yaratmışdır. İnkişaf etmiş və resurs cəhətdən məhdud olan ölkələrin iqtisadi artımının mərkəzində texniki tərəqqinin olduğunu görmək mümkündür. Buna misal olaraq Şərqi Asiya ölkələrini (Sinqapur, Honq-Konq, Cənubi Koreya və s.) göstərmək olar.

**Cədvəl[7]**

**Elmin əsas göstəriciləri**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2018-ci ilə nis-bətən 2023-ci ildə, faizlə |
|---|---|---|---|---|---|---|---|
| Dövlət büdcəsindən elmə çəkilən xərclər: | | | | | | | |
| milyon manat | 117,8 | 122,3 | 143,6 | 151,8 | 167,8 | 193,6 | 164,9 |
| ümumi daxili məhsula nisbətən, faizlə | 0,15 | 0,15 | 0,20 | 0,16 | 0,13 | 0,16 | x |
| dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə | 0,52 | 0,50 | 0,54 | 0,55 | 0,52 | 0,53 | x |
| Tədqiqat və işləmələrə çəkilən daxili xərclər: | | | | | | | |
| milyon manat | 147,5 | 163,9 | 162,5 | 194,2 | 202,7 | 223,6 | 151,5 |
| ümumi daxili məhsula nisbətən, faizlə | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | x |
| Tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlər, milyon manat | 149,1 | 162,8 | 159,5 | 142,2 | 116,1 | 11103,7 | 69,5 |

Ölkə iqtisadiyyatında hal-hazırda mövcud vəziyyəti yeniliklərin istehsala və biznes fəaliyyətinin bütün mərhələlərinə inteqrasiyasının nəticəsində rəqabətqabiliyyətli iqtisadi mühitin yaranması kimi təhlil etmək olar. Davamlı inkişafın bir hissəsi kimi dövlət büdcəsindən elmə çəkilən xərclərin təhlili göstərir ki, 2018-2023-ci illər ərzində bu göstərici 64,9% artmışdır. Tədqiqat və işləmlərə çəkilən daxili xərclər son beş ildə 51,5% yüksəlmişdir. Məlumatlardan aydın olur ki, həm dövlət büdcəsindən elmə çəkilən xərclərin ümumi daxili məhsulda xüsusi çəkisi (0,13-0,20%), həm də tədqiqat və işləmələrə çəkilən daxili xərclərin ümumi daxili məhsulda payı (0,2%) müvafiq illərdə aşağı səviyyədədir. Tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlərin dəyərində də müqayisə olunan dövrdə 40,5% azalma qeydə alınmışdır (Cədvəl).

Elmin inkişafında əsas yük ali təhsil ocaqlarının və tədqiqat insititutlarının üzərinə düşür. Savadlı kadrların hazırlanmasını öz qarşısına məqsəd qoyan elm tutumlu müəssisələr beynəlxalq təcrübədə istifadə olunan innovativ islahatların ölkəmizə inteqrasiyası üçün öz əməkdaşlarının və tələbələrinin xaricdə təhsil alması üçün müəyyən proqramlar hazırlayır. Buna misal olaraq Elm və Təhsil Nazirliyinin 2019-2023-cü illərdə magistrantlar və doktorantların xaricdə dövlət hesabına təhsil almaları üçün müəyyən etdiyi təhsil proqramını və "hökümətlərarası təqaüd proqramı"nı göstərmək olar [2].

Nəticə etibarı ilə təbii resurslarla zəngin olmasına baxmayaraq öz iqtisadiyyatının inkişafını resurslardan asılı saxlamaq istəməyən bir ölkə olaraq Azərbaycan Respublikası digər inkişaf etmiş ölkələrin iqtisadi artım səbəblərini özünə model kimi götürərək innovativ iqtisadi siyasətə üstünlük verir və bu sahəyə müəyyən maliyyə vəsaitinin yatırılmasında maraqlı olduğunu vurğulayır. Ümumiyyətlə, iqtisadiyyat texnologiyanın və elmin vəhdəti nəticəsində inkişaf edir. Əldə edilən istənilən uğur üçün müəyyən vəsaitin qoyulması məqsədəuyğundur. İnnovativ islahatları bütün sahələrdə olduğu kimi iqtisadiyyata da tətbiq edən ölkə olaraq Azərbaycan Respublikası elmin və texnologiyanın inkişafını təmin etmək naminə bu sahəyə müəyyən investisiyanın yatırılmasında maraqlıdır. Ölkə üzrə keçirilən müəyyən startap proqramlar və mütəxəssislərin hazırlanmasını təmin etmək üçün həm ölkə daxili universitetləri, həm də xarici universitetləri birlikdə əməkdaşlıq etməsinə şərait yaradır.

### *Ədəbiyyat*


1. https://az.wikipedia.org/wiki/%C4%B0qtisadi_inki%C5%9Faf
2. https://edu.gov.az/higher-education/xarici-tehsil
3. https://ereforms.gov.az/files/publications/pdf/az/690754074dfdbab0ff9efeea37ae7985.pdf
4. https://www.jstor.org/stable/40229476
5. https://www.nber.org/reporter/2006number1/contribution-science-and-technology-production
6. https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf
7. https://www.stat.gov.az/source/education/
8. https://unec.edu.az/application/uploads/2016/07/ABBASZAD-L-YYAXANIM-.pdf



### *Abstract*

The global changes taking place in the world make it inevitable that the economic policies of countries will change to some extent. Among the measures taken to ensure economic development, the most important is to ensure the integration of science and technology into economic fields. It is appropriate for each country to include the creation of fertile conditions for the realization of innovative ideas in its strategy. The fact that scientific and technical progress is reflected in production can be considered as a positive step in finding a solution to the shortcomings in the country's economy.


## İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI


***Müəllim Qurbanov Qurban Fikrət oğlu***
***ADPU-nun Ağcabədi filialı***



**Açar sözlər** İnformasiya, texnologiya, aspekt, resurs, inkişaf.


İnformasiya cəmiyyətinə keçid dövrünün hal-hazırki informatika əsrinə təsadüf etməsi cəmiyyətin inkişafının qanunauyğyn nəticəsidir. İnformatika fundamental elm kimi müxtəlif

səviyyəli kadr və mütəxəssislərin hazırlığında müstəsna rol oynayır. İnformasiya texnologiyaları fundamental informatikanın tərkib hissəsi olmaqla bərabər onun mövcud nailiyyətlərindən bəhrələnir. Yeni informasiya texnologiyalarının intensiv şəkildə inkişafı informasiya cəmiyyətinə keçid prosesini səciyyələndirən informatlaşmanın həyata keçirilməsini təmin edərək daha da sürətləndirir. İnformasiya iqtisadiyyatı, informasiya infrastrukturları və informasiya mədəniyyəti insan fəaliyyətinin bir çox sahələrində tətbiqi həllini taparaq yüksək iqtisadi gəlirlərin əldə olunmasında əvəzsiz xidmət göstərirlər. Həmçinin informasiya kommersiya resursuna çevrilərək dünya iqtisadiyyatının əhəmiyyətli dərəcədə inkişafında təkanverici rol oynayır. O cümlədən, dünya təhsil sisteminin informatlaşması hesabına informasiya cəmiyyətinin inkişafının prioritet istiqamətləri çərçivəsində milli və dövlət proqramlarının layihələndirilməsi və yüksək nəticələrlə başa çatdırılması nəzərdə tutulur. İnformasiya texnologiyaları əsasında informasiya proseslərinin avtomatlaşdırılması məsələsi öz həllini tapır. İnformasiya, informasiya texnologiyalarının qeyri-maddi məhsulu olaraq müəyyən struktura malik biliklər kimi formalaşdırılır. İnformasiya texnologiyalarının geniş şəkildə həyata keçirilməsi həm istifadəçilərin, həm də informasiya xidmətləri göstərənlərin əhatəli bilgilərə malik olmasını önəmli edir. Ona görə də bu biliklərə sahib olmaq üçün vacib sayılan elementləri qısaca da olsa sistemləşdirək:

- əsas informasiya prosesləri, informasiyanın xassələri,
- informasiya texnologiyalarının strukturu və modelləri,
- informasiya texnologiyalarının metod və vasitələri,
- informasiya sistemlərinin yaradılması metodikası, layihələndirilməsi və bacarıqla istifadəsi,
- funksional-modullu məsələlərin həllində informasiya texnologiyalarının tətbiqi,
- obyekt-yönümlü məsələlərin həllində informasiya texnologiyalarının tətbiqi,
- informasiya sistemlərinin yaradılmasında informasiya texnologiyalarının tətbiqi,
- informasiya texnologiyalarının tətbiqi sahələri barədə təsəvvürlərə malik olmaq,
- informasiya cəmiyyətinə keçid mərhələsində informasiya texnologiyalarının yeri və perspektiv imkanları.

İnformasiya cəmiyyətinin hər bir üzvünün yeni informasiya mədəniyyətinə yiyələnə bilməsi üçün informasiya texnologiyaları sahəsindəki təhsil səviyyəsinin yüksəldilməsi milli strateji məsələlərdən biri kimi hesab olunmalıdır[5].

«İnformasiya» termini məlumat, izah, şərh mənasını verən «informatio» latın sözündən törəyir. Bu terminin geniş yayılmasına baxmayaraq, informasiya anlayışı elmdə ən mübahisəli anlayışlardan biridir. İndiki zamanda elm geniş informasiya anlayışına xas olan ümumi xüsusiyyətləri və qanunauyğunluqları tapmağa cəhd edir, lakin hələlik bu anlayış əsasən intuitiv olaraq qalır və insan fəaliyyətinin müxtəlif sahələrində müxtəlif məna tutumları kəsb edir:

• ***adi həyatda*** kimisə maraqlandıran hər hansı verilənləri və ya məlumatları informasiya adlandırırlar. Məsələn, hər hansı hadisə, kiminsə fəaliyyəti barədə məlumatı və s. Bu mənada «informasiya vermək» «öncə məlum olmayan nəyisə xəbər vermək» deməkdir;

• ***texnikada*** informasiya dedikdə işarə və ya siqnallar formasında ötürülən xəbərlər başa düşülür;

• ***kibernetikada*** informasiya dedikdə istiqamətlənmə, aktiv fəaliyyət, idarəetmə üçün, yəni sistemin yadda saxlanması, təkmilləşdirilməsi, inkişafı məqsədilə istifadə olunan biliklər sahəsi başa düşülür (N. Viner)[].

İnformasiyanın ötürülməsi, qəbulu, çevrilməsi və yadda saxlanması ilə əlaqədar olan prosesləri öyrənən elmin – informasiya nəzəriyyəsinin əsaslarını qoymuş amerika alimi Klod Şennon informasiyaya nəyinsə barəsində bizim biliklərimizin aradan qaldırılmış qeyri-müəyyənliyi kimi baxır. Daha bir neçə tərifi göstərək:

• İnformasiya – ətraf mühitin obyektləri və hadisələri, onların parametrləri, xüsusiyyətləri və vəziyyəti haqqında onlara dair əldə olan qeyri-müəyyənlik dərəcəsini, biliklərin natamamlığını azaldan məlumatlardır (N.V. Makarova);

• İnformasiya – entropiyanın inkar edilməsidir (Leon Brillüen);

• İnformasiya – strukturların mürəkkəblik ölçüsüdür (Mol);

• İnformasiya – inikas olunmuş müxtəliflikdir (Ursul);

• İnformasiya – inikas posesinin məzmunudur (Tuzov);

• İnformasiya – seçim ehtimalıdır (Yaqlom) [2].

İnformasiya ehtiyatları – bəşəriyyətin ideyaları və onların reallaşdırılması üzrə təkrar istehsala imkan verən formada toplanmış göstərişlərdir.

Bunlar kitablar, məqalələr, patentlər, dissertasiyalar, elmi-tədqiqat və təcrübəkonstruktor sənədləri, texniki tərcümələr, qabaqcıl istehsal təcrübəsi haqqında verilənlər və s.-dir.

İnformasiya ehtiyatları (bütün digər ehtiyat növlərindən – əmək, enerji, mineral və s. fərqli olaraq) nə qədər çox sərf edilirsə, o qədər tez artır.

İnformasiya texnologiyası – informasiyanın emal edilməsi üçün insanların istifadə etdiyi metod və qurğuların yığımıdır.

Bəşəriyyət informasiyanın emal edilməsi ilə min illərlə məşğul olmuşdur. İlk informasiya texnologiyaları çötkə və yazının istifadə edilməsinə əsaslanırdılar. Təxminən əlli il bundan əvvəl bu texnologiyaların son dərəcədə sürətli inkişafı başlandı, ki bu da ilk növbədə kompyuterlərin meydana gəlməsi ilə əlaqədardır.

ndiki zamanda «informasiya texnologiyası» termini informasiyanın emal edilməsi üçün kompyuterlərdən istifadə etməklə əlaqədar işlənir. İnformasiya texnologiyaları bütün hesablama texnikasını və rabitə texnikasını və qismən məişət elektronikasını, televiziyanı və radio verilişlərini əhatə edir.

Onlar sənayedə, ticarətdə, idarəetmədə, bank sistemində, təhsildə, səhiyyədə, tibdə və elmdə, nəqliyyatda və rabitədə, kənd təsərrüfatında, sosial təminat sistemində tətbiq edilir, müxtəlif peşəli insanlara və evdar qadınlara kömək olurlar.

İnkişaf etmiş ölkələrin xalqları dərk edirlər ki, informasiya texnologiyalarının təkmilləşdirilməsi bahalı və çətin olsa da, ən vacib məsələdir.

İndiki zamanda iri miqyaslı informasiya-texnoloji sistemlərinin yaradılması iqtisadi cəhətdən mükündür və bu, onların işlənilməsini stimullaşdıran milli tədqiqat və təhsil proqramlarının meydana gəlməsinə səbəb olur[1].

İnformasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətləri isə universitetlərin idarə olunmasının avtomatlaşdırılmış sistemi olan – "Elektron universitet" (EU) layihəsində öz əksini tapmışdır. "Elektron universitet" faktiki olaraq təhsilin distant və onlayn formalarının inkişafının yeni mərhələsini əhatə edir, təhsil müəssisəsinin potensial sifarişçisi olan tələbələrin təhsil problemlərinin iqtisadi əlverişli üsullarla həlli və təhsil xidmətlərini kiber üsullarla həyata keçirmək imkanları yaradır. İnformasiyanın istifadəyə yararlı olması üçün aşağıdakı şərtlər təmin olunmalıdır:

• tamlıq – tam şəkildə təsvir olunmalıdır;

• düzgünlük – həqiqəti əks etdirməlidir;

• dəyər – maksimum az məsrəflə əldə edilməlidir;

• əhəmiyyətlilik – istifadəçi üçün vacib olmalıdır;

• aktuallıq – cari vaxtda tələb edilən olmalıdır;

• anlamlılıq – istifadəçinin başa düşdüyü tərzdə hazırlanmalıdır [4].

İnformasiya texnologiyaları aşağıdakı əsas əlamətləri ilə səciyyələnir: prosesin işlənməsi obyektin verdiyi məlumatlar ilə həyata keçirilir; prosesin məqsədi məlumatların alınmasını təmin etməkdir; prosesin həyata keçirilməsində əsas vasitələr proqram, qurğu və

proqramlı qurğular hesab edilən hesablama kompleksləridir; verilənlərin işlənmə prosesləri verilmiş əşya və obyekt sahəsinə uyğun əməliyyatlara bölünür; prosesin optimallıq meyarı informasiyaların istifadəçiyə vaxtında təqdim edilməsi, onun etibarlılığı, doğruluğu və tamlığı hesab edilir. İnformasiya texnologiyalarının əsas komponentləri isə bunlardır: verilənlərin toplanması (ilkin informasiya), verilənlərin emalı, yekun informasiyaların əldə olunması və onun istifadəçiyə göndərilməsi. Yeni informasiya texnologiyası (kompüterli informasiya texnologiyası) fərdi kompüterlərin və telekommunikasiya vasitələrinin istifadəsinə əsaslanan texnologiyadır. Onun üç əsas prinsipi var:

- kompüterlə interaktiv (dialoq) rejimdə işləmək;
- proqram məhsullarının inteqrasiyası (birləşdirilməsi, qarşılıqlı əlaqələndirilməsi);
- həm verilənlərin, həm də məsələnin qoyuluşunun dəyişdirilməsi prosesinin çevikliyi [3].

### *Ədəbiyyat*

1. Allahverdiyeva Nailə, Namazov Mənəfəddin KOMPYUTER VƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI Bakı -2012
2. Abbasov, N.Ə. (2011). Müasir informasiya kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi. Bakı, ADPU, 208 s.
3. Sarafanov, A.V., Sukovaty, A.G., Sukovataya, I.E., and others. (2016). Application of information and communication technologies in education: study guide. Allowance. Krasnoyarsk: IPC KSTU, 186 p.
4. Robert, I.V. (2018). Theory and methodology of informatization of education (psychological, pedagogical and technological aspects): 2nd edition, revised. Moscow
5. https://www.researchgate.net/publication/354477960_Informasiya_texnologiyalari

### *Abstract*

The fact that the transition period to the information society coincides with the current century of informatics is a natural result of the development of society. Informatics, as a fundamental science, plays an exceptional role in the training of personnel and specialists of various levels. Information technologies, being an integral part of fundamental informatics, benefit from its existing achievements. The intensive development of new information technologies further accelerates the implementation of informatization, which characterizes the transition process to the information society. Information economy, information infrastructures and information culture find application solutions in many areas of human activity and provide an invaluable service in achieving high economic income.

## EKOLOJI PROBLEM VƏ TƏMİZ SU EHTİYATLARI

***b/m. Süleymanova Lətafət Nəsib qızı***
***ADPU-nun Ağcabədi filialı***

**Açar sözlər:** minerallıq dərəcəsi, təmiz su, şirin su, duzlu su, suvarma suyu, içməli su, su qıtlığı, nəmlik, "Su əsri"

Yer kürəsinin quru hissəsində fauna və flora aləmini yaşadan əsas amillərdən biri təmiz sudur. Minerallıq dərəcəsi 1,0 qram/litirdən az olan su, aidiyatı mənbələrdə təmiz su, şirin su, içməli su adlandırılıb. Rus tədqiqatçısı M.İ. Lvoviçə görə təmiz su ehtiyatı planetmizdəki müxtəlif minerallıq dərəcəsində olan ümumi su ehtiyatlarının (1454,193 mln.km$^3$) təxminən 2,0 % -ni ( 28.2532 mln.km$^3$ ) təşkil edir. [1] Təmiz su ehtiyatı buzlaqlarda, yerin

1 km dərinliyindəki üst təbəqəsində, göllərdə və su anbarlarinda, torpağın bitki qatında nəmlik formasında, atmosferdə rütubət formasında və çaylardadır [1,3]. Türk tədqiqatçıları Ümit Meric, görə Yer kürəsindəki suların 97,41 %-i okiyanlarda 2,59 %-i isə qurudadır [2]. Təmiz su ehtiyatının (37,6636 mln.km$^3$) 79 %-i buzlaqlarda, 20 %-i yer səthindən aşağı qatlarda, 1 %-i isə insanların təmasda olduğu sahələrdədir. Yer səthindəki suyun 52 %-i göllərdə, 38,0 %-i torpaqda nəmlik formasında, 8%-i atmosferdə rütubət formasında, 1 %-i çaylarda, 1 %- i isə canlı orqanizmlərdədir.

Flora və fauna aləmini yaşadan sudur. Təmiz su olmayan bölgələrdə həyat olmur. Qurani Kərimdə "Həyatda olan hər şeyi sudan düzəltdik" yazılıb. Suyun Allahın lütfi, ikramı və neməti olaraq səmadan endirildiyi söylənilir. Su ilə həyat arasındakı ən sıx əlaqənin ifadəsi su—həyatdır!

Misir pramidalarının yanında aparılmış arxeoloji qazıntılar zamanı ölünün yanında olan "Tanrıya hesabat kitabında" yazılmış: "Oğurluq etməyib, adam öldürməyib, kimsəni aldatmayıb, suları çirkləndirməyib" ifadələri bu günümüzdə çoxlarının rahatlıqla söyləyə bilməyəcəyi kəlamlardır. [2]. İslam mədəniyyətində insanların gündəlik yaşayış tərzinə həsr edilmiş yazılar "su və təmizlik" kəlamları ilə başlanıb.

XV və XVI əsirdən bu günümüzə kimi sudan istifadəyə görə dünyada 132-dən artıq münaqişə olub. Dünya Bankından Serageldin 1995-ci ildə demişdir ki, "Bundan sonrakı illərdə dövlətlər arasındakı müharibələr su uğrunda olacaq", XX əsirdəki müharibələr neftə görə yaranırdısa XXI əsirdə əsas səbəb su olacaq.

Yer kürəsində quru və yarım quru iqlim zonalarında yerləşən ölkələrdə təmiz su ehtiyatının əsas hissəsi əkin sahələrinin suvarılmasına yönəldilir. Azərbaycan Respublikasında il ərzində müxtəlif məqsədlər üçün 10-12 km$^3$ təmiz su həcmindən istifadə olunur. Planetimizdə təmiz su ehtiyatı qeyri-bərabər paylandığından rütubətli, yarım quraq və quraqlıq regionları mövcuddur. Dünyada yağıntının orta illik miqdarı 807 mm olduğu halda, aqrar sahənin inkişaf etdiyi Kür- Araz düzənliyində 250-300 mm-dir. Bu düzənlikdə suvarma meliorasiyası layihələri həyata keçirilm ədən əkilən bitkilərdən məhsul götürmək mümkün deyil. Ərazilərdə mövcud meşə və bitki örtüklərinin sahəsi davamlı olaraq azalır və yer səthində səhralaşma prosesi intensivləşir. Yerüstü və yeraltı su ehtiyatlarının azalması, çirkləndirilməsi müşahidə olunur. İnsanların havadan nəfəs alması, su içməsi və qida qəbul etməsi onların yaşaması və fəaliyyət göstərməsi üçün təməl ehtiyaclarıdır. Ərzaq məhsullarının istehsalı su ilə bağlı olduğundan su yoxdursa qidada olmur. Asiya və Afrika qitələrində yerləşən dövlətlərdə su azlığı səbəbindən ölkə daxilində insanların miqrasiyası prosesi baş verir.

Dünyanın inkişaf etmiş şəhərlərində yaşayan insanlar sutka ərzində 300-600 litir sudan istifadə edirlər. Bu göstəricinin gələcək illərdə 500-800 litr olacağı proqnozlaşdırılır. Asiya, Latın Amerikası və Afrika ölkələrində yaşayanlar sutka ərzində 50-100 litr, su qıtlığında yaşayan bəzi ölkələrdə isə 10-40 litr həcmində sudan istifadə olunur.

Suvarmada işlədilən sudan səmərəli istifadə olunmur. İstismar müddətləri başa çatmış kanallardan olan su itkiləri, mövcud suvarma sistemlərində əsasən öz axını ilə suvarma texnikalarının tətbiqi və dövrü suvarma normalarından artıq suyun əkin sahələrinə verilməsi sudan qənaətlə istifadəyə imkan vermir. Su təchizatı sistemlərində işlənmiş suların təmizləndikdən sonra əkin sahələrinə verilməsi təcrübəsi dünya ölkələrində geniş yayılıb. Avropa ölkələrində bu məqsədlə təxminən 8000-10000 m$^3$/saat, Asiya və Afrika qitələrində yerləşmiş ölkələrində 15000-17000 m$^3$/saat, bəzi yerlərdə 20000- 25000 m$^3$/saat işlənmiş su təmizləndikdən sonra bitkilərin suvarılmasında istifadə olunur. XXI əsrin sonlarına doğru Kür-Araz düzənliyində havanın orta temperaturunun 1,5-2,0$^0$ C artacağı və yağıntının orta illik miqdarının 5 %-ə qədər azalacağı proqnozlaşdırılır. İqlim dəyişikliklərinin əkin sahələrində bitkilərin suvarma suyu ilə təminatında ciddi problemlər yaradacağı gözlənilir.

Kür-Araz düzənliyində əsas su mənbəyi olan Kür çayında Salyan hidrotermik müşahidə məntəqəsindəki son 55 illik göstəricilər tədqiq edilərkən məlum olmuşdur ki, IV-V aylarda orta aylıq sərf 613-526 $m^3$/san, intervalında dəyişib. Yəni baxılan müddətdə çayda orta illik sərf 49 $m^3$/san, yaz ayları üçün orta aylıq sərf isə 87 $m^3$/san azalıb. Ərzaq məhsullarının bolluğunu yaratmaq üçün yer kürəsinin arid zonalarında yerləşmiş bütün ölkələrində dövlətin əsas işlərindən biri, bəlkədə birincisi sahib olduqları təmiz su və əkinə yararlı torpaq sahələrindən səmərəli istifadə olunması istiqamətində layihələrin həyata keçirilməsi olmalıdır.

Çaylarının axınını nizamlamaq məqsədilə son illərdə 700 bənd tikilib ki, bunlardan 36-nın hündürlüyü 100 m-dən artıqdır. Tarixin arxivinə göndərilmiş SSRİ-nin ərazisində axan çayların üzərində tikilmiş 4 min sünü su anbarında 1200 $km^3$ su ehtiyatı yaradılıb [3].

Azərbaycan Respublikasında yerüstü su ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə 1991-ci ilə kimi müxtəlif su tutumlarına malik 135 süni su anbarı tikilib. Bu anbarlarda yığılmış su ehtiyatının həcmi ümumilikdə 21,5 $km^3$-u olub. Müstəqillik dövründə ümumi həcmi 268,4 mln $m^3$ olan Taxtakörpü su anbarı (2013), həcmi 160 mln $m^3$ olan Şəmkirçay su anbarı (2014) tikilib. Tikintisi yarımçıq qalmış Vayxır su anbarında (2005), Göytəpə su anbarında (2010) və Tovuzçay su anbarında (2016) tamamlama işləri başa çatdırılıb. Hazırda istismar olunan 140 su anbarında yığılan su ehtiyatlarının həcmi 22,0 $km^3$-dan artıqdır.

Azərbaycan Respublikası ərazisində axan çayların sularından səmərəli istifadə etmək məqsədilə çay hövzələrində əlverişli relyef şəraiti olan yerlərdə su anbarlarının yaradılması istiqamətində işlər aparılmalıdır [4,5,6]. Mövcud əkin sahələrinin suvarılmasında istifadə olunan su həcminin azaldılması üçün mütərəqqi suvarma texnikalarından geniş istifadə olunmalıdır. Suvarma sistemlərindəki kanallardan olan su itkilərinin minimum həddə kimi azaldılması istiqamətində tələb olunan bütün tədbirlər həyata keçirilməlidir. Su təchizatı sistemlərində təmiz suya olan tələbatın həcmidə illər ötdükcə mütamadi olaraq artır [5].

1860-cı ilə kimi olan birinci mərhələdə Bakı şəhərində 13830 nəfər əhali olub. İçməli su mənbəyi kimi müəyyən dərinliklərdə qazılmış quyulardan istifadə olunub. İkinci mərhələ olan 1860- 1917- ci illərdə İçərişəhərdə qazılmış quyuları birləşdirən "Xan su kəmərindən" və şəhərə gəmilər vasitəsi ilə daşınmaqla suya olan tələbat həyata keçirilib. Bu dövrdə İ çəri şəhər ətrafında quyu sularını birləşdirən "Sisyanov" kəməri çəkilib. Zuğulbada yerləşən zəngin su ehtiyatlarının Bakı şəhərinə nəql olunmasının mümkünlüyü araşdırılıb. 1917-ci ildən sonrakı üçüncü mərhələdə Bakı və Abşeron yarımadasında müxtəlif təyinatlı sənaye obyektlərinin geniş miqyas da tikintisi, əhalinin sürətlə artması və digər amillər nəzərə alınmaqla müxtəlif illərdə yeni su kəmərlərinin layihələri həyata keçirilib. Bakı şəhərinə ilk dəfə içməli su Zeynalabdin Tağıyevin vəsaiti hesabına tikilmiş Şollar su kəməri vasitəsi ilə nəql olunub. Kəmərin sərfi 1,27 $m^3$/san, uzunluğu isə 187 km olub. 1936-1958 - ci illərdə sərfi 2,73 $m^3$/san, uzunluğu 170 km olan Xaçmaz - Bakı su kəməri tikilib. 1961-1979-cu illərdə Ceyranbatan su anbarından içməli su kimi istifadə olunmasına başlanıb və Abşeron yarımadasındakı su kəmərləri sistemlərinə verilən suyun sərfi 9,5 $m^3$/san olub. 1971- 1986-cı illərdə Kür-Bakı su kəmərləri tikilib və 9,5 $m^3$/san su Kür çayından şəhərə nəql olunub. 2005-2010-cu illərdə sərfi 5 $m^3$/san olan Oğuz-Bakı su kəməri layihəsi həyata keçirilib.

Hazırkı vaxta Abşeron yarımadasına 3 istiqamətdən çəkilmiş kəmərlər vasitəsi ilə 1.27+2.73+9.5+9.5+5.0=28.0 $m^3$/san su nəql edilir. Su təchizat sistemlərində çoxsaylı amillərin təsirindən baş verən su itkilərinin normadan artıq olması, əsas problem olaraq qalmaqdadır. Su itkilərini tələb olunan hədlərdə saxlamaqla Bakı və Abşeron yarımadasındakı su təchizatı sistemlərini, nəql olunan 28,0 $m^3$/san sərflə fasiləsiz təmin etmək olar.

Su həyatdır demək azdır, su həyatın özüdür. İnsanların istifadə etdiyi təmiz su ehtiyatları yer kürəsində qeyri bərabər paylandığına görə, arid regionlarda tarixin bütün dönəmlərində su ilə bağlı problemlər olub. Hazırki dövrdə isə dünya əhalisinin müəyyən hissəsi su qıtlığından

əziyyət çəkir. XXI əsrin axırlarında dünya ölkələri arasında su qıtlığı səbəbindən münaqişələrin olacağı proqnozlaşdırılır. Tədqiqatlar göstərir ki, arid zonalarında yerləşmiş ölkələrdə dövlətin əsas işlərindən biri çayların suyunu nizamlamaqla su ehtiyatı toplamaq və mövcud su ehtiyatlarından səmərəli istifadə olunması istiqamətlərində layihələrin həyata keçirilməsi olmalıdır. Su ehtiyatları ilə zəngin olan ölkələrdə isə tələbata uyğun suyun qonşu ölkələrə nəql olunması istiqamətlərində layihələr hazırlanmalıdır. Bu günümüzdə enerji daşıyıcılarından neftin və qazın nəqli hansı dərəcədə aktualdırsa, XXI əsrin sonlarına doğru əsas mövzunun suyun nəqli olacağı qaçılmazdır.

***Ədəbiyyat***

1. Polad Poladzadə "Dirilik suyu" peşakarın qeydləri Moskva 2006, Bakı. 2009
2. Həsənov F.H., Mahmudov T.M. İçməli su qıtlığı – XXI əsrdə dövlətlər arasında münaqişələr yarada biər. Ekologiya və su təsərrüfatı jurnalı, № 4, Səh. 32-35.2010
3. Paşayev E.P., Həsənov F.H. Yeni su mənbələrini müəyyən etmək günümüzün tələbidir. I-ci Xəzər Beynəlxalq Su Texnologiyaları konfransının materialları. Bakı , səh. 245-248.

***Xülasə***

Məqalədə dünyada təmiz su ehtiyatları, həyatda suya verilən qiymət, suya olan tələbatın kəskin formada artmasının səbəbləri, dünyada müşahidə olunan iqlim dəyişikliklərinin və insanların gündəlik fəaliyyətlərinin ətraf mühitə təsirləri nəticəsində təmiz su ehtiyatlarının çirklənməsi, sudan səmərəli istifadə olunmaması və digər çoxsaylı səbəblərdən yer kürəsinin arid regionlarında yaranmış su qıtlığı problemləri, mövcud vəziyyətin yaxşılaşdırılması istiqamətində nəzərdə tutulmuş layihələr haqqında məlumatlar verilib.

## YAŞIL İQTİSADİYYATDA MARKETİNQ FAKTORLARI

***Vəliyev M.R.*** 0009-0004-1886-7064, ***Hüseynov M.O.*** 0009-0002-1039-9046
***Gəncə Dövlət Universiteti***
***e-mail: maqsud_veliyev@yahoo.de***

**Ключевые слова:** Зелёная экономика, экологический маркетинг, экологичный брендинг, поведение потребителей.
**Key words:** Green Economy, Ecological marketing, Green Branding, Consumer behaviour.

Son illərdə yaşıl iqtisadiyyat, təbii resursların səmərəli istifadəsi, ətraf mühitin qorunması və davamlı inkişaf prinsiplərinə əsaslanan bir konsepsiya olaraq inkişaf etmişdir. Yaşıl iqtisadiyyat çərçivəsində ekoloji təmiz məhsul və xidmətlərə olan tələbat artmış və bunun nəticəsində ekoloji məhsulların marketinqi ilə bağlı yeni yanaşmalar meydana çıxmışdır.

Yaşıl iqtisadiyyatda marketinq ənənəvi marketinqdən fərqli olaraq ekaloji təmiz məhsulların təşviqi ilə əlaqəlidir . Bu marketinq növü, istehlakçıların ətraf mühitin qorunmasına və yaşam keyfiyyətinin artırılmasına xidmət edən məlumatlı seçimlər etməsinə təsir göstərir.

Bu dissertasiya yaşıl iqtisadiyyatda marketinq faktorlarını araşdırmağa yönəlmişdir. Burada ekoloji təmiz məhsullara olan tələbin meylləri, istehlakçı davranışı, marketinq üsulları

və alətləri, həmçinin yaşıl brendlərin və məhsulların təşviqinin xüsusiyyətləri nəzərdən keçirilir.

**Yaşıl İqtisadiyyat şəraitində marketinqin rolu .**

Yaşıl iqtisadiyyat şəraitində marketinq dayanıqlı inkişafa və ekoloji məsuliyyətə vurğu edərək vacib rol oynayır. İstehlakçılar getdikcə ətraf mühitə zərər verməyən və ekoloji prinsiplərə uyğun məhsullar axtarırlar. Müasir alıcılar məhsulların təbiətə təsirindən daha çox xəbərdardırlar, bu da dayanıqlı variantlara olan tələbi artırır. Şirkətlər bunu nəzərə alaraq ekoloji baxımdan məsuliyyətli istehlakçıların gözləntilərinə cavab verən məhsullar yaratmalıdırlar. Hər bir məhsulun qablaşdırması mühüm elementdir və onun ekoloji cəhətdən uyğunluğu alış qərarlarına əhəmiyyətli təsir göstərir. Plastikdən istifadənin azaldılması, bioloji parçalana bilən və təkrar emal edilə bilən materialların seçilməsi yaşıl iqtisadiyyatda şirkətin rəqabət qabiliyyətini müəyyənləşdirən trendlərdir.

Ətraf mühitlə bağlı siyasətlər və tədbirlər haqqında şəffaflıq da əsas amillərdən biridir. İstehlakçılar dürüst və açıq kommunikasiya ilə yanaşan şirkətlərə daha çox etibar edirlər. Yaşıl iqtisadiyyat həmçinin texnologiyaya innovasiyalar gətirir, şirkətləri ətraf mühitə təsirləri azaltmağa təşviq edir. Məsələn, bərpa olunan enerji mənbələrinə keçid, tullantıların azaldılması və təkrar emal edilmiş materiallardan istifadə məhsulları daha ekoloji dayanıqlı edir və yeni müştəriləri cəlb edir. İstehsalda və məhsul istifadəsində enerji sərfiyyatının azaldılması da mühümdür. Enerji səmərəli məhsullar resurslara qənaət edir və onların istehsalı karbon emissiyalarını azaltmağa kömək edir.

Yaşıl məhsulları tanıtmaq sadəcə onların üstünlüklərini təsvir etməklə kifayətlənmir, həm də istehlakçı dəyərləri ilə əlaqə yaratmağı tələb edir. Belə markalar müştəriləri ilə daha yaxın əlaqələr qurur və onları ətraf mühiti yaxşılaşdırmaq üçün sadiq olan şirkətləri dəstəkləməyə ruhlandırır. Yaşıl iqtisadiyyat şəraitində brendinq mühüm vasitə olur. Dayanıqlılıq və ekologiyaya qayğı ilə əlaqələndirilən şirkətlər daha çox diqqət və sədaqət qazanır. Eko-brendinq şirkətin fərqlənməsinə və dayanıqlı dəyərləri bölüşən müştəri bazasını genişləndirməyə kömək edir.

İstehlakçılar həmçinin şirkətlərin ağacəkmə, yaşıl təşəbbüslərin dəstəklənməsi, emissiyaların və tullantıların azaldılması kimi ekoloji layihələrə töhfə verməsini gözləyirlər. Bu cür səylər markanın reputasiyasını artırır və onun istehlakçılarla olan əlaqəsini möhkəmləndirir. Uğur qazanmaq üçün şirkətlər dayanıqlı inkişafa sadiqliyi nümayiş etdirməli, şəffaf olmalı və cəmiyyətin və planetin maraqlarına yönəlməlidirlər.

**Yaşıl İqtisadiyyatda Marketinqin Nəzəri Aspektləri**

Yaşıl iqtisadiyyat, təbii resurslardan səmərəli istifadəni, ekoloji təmiz texnologiyaların tətbiqini və insanların ətraf mühitə təsirini minimuma endirməyi hədəfləyir. Yaşıl iqtisadiyyatın bu prinsipləri marketinqin inkişafına təsir etmiş və ekoloji təmiz məhsulların istehsalı və satışı istiqamətində yeni marketinq yanaşmalarını meydana gətirmişdir.Əvvəllər marketinq, ətraf mühitə az təsir göstərən məhsulların istehlakını təşviq etməyi əsas məqsəd hesab edirdi. Lakin davamlı istehlak və istehsal anlayışlarının inkişafı ilə marketinq, ekoloji təmiz məhsulların təşviqi istiqamətində yönəlmişdir. Bu gün yaşıl marketinq, davamlı inkişaf və iqtisadi səmərəliliyi təşviq edən bir alətə çevrilmişdir.

Yaşıl marketinq, ətraf mühitə minimal təsir göstərən məhsul, proses və xidmətlərin təşviqini nəzərdə tutan bir təcrübədir. Bu, yenilənə bilən resurslardan istifadə edərək istehsal edilən məhsullar, təkrar istifadə edilən materiallar və ya aşağı karbon izinə sahib məhsulların təşviqini əhatə edir.

## MATERİAL VƏ METODLAR

Bu tədqiqatda yaşıl iqtisadiyyat və marketinq sahəsindəki amillərin araşdırılması məqsədilə həm nəzəri, həm də empirik yanaşmalar tətbiq olunmuşdur. Müəyyən bir

mövzunun əhatə dairəsini genişləndirmək və dərin təhlil aparmaq üçün müxtəlif materiallardan istifadə edilmiş və müxtəlif metodlar tətbiq olunmuşdur.

**Metodlar:**

Keyfiyyət Analizi: Bu metod, yaşıl iqtisadiyyat və marketinq sahəsindəki nəzəri anlayışların daha dərindən təhlilini təmin etmək üçün istifadə olunmuşdur. Ədəbiyyat icmalı və case study-lər vasitəsilə əldə edilən məlumatlar keyfiyyət üsulu ilə təhlil edilmiş və bu sahənin əsas prinsipləri və strategiyaları müəyyənləşdirilmişdir.

Kəmiyyət Analizi: Yaşıl iqtisadiyyatın bazar göstəricilərini və marketinq strategiyalarının təsirini qiymətləndirmək üçün statistik məlumatlardan istifadə edilərək kəmiyyət üsulu tətbiq olunmuşdur. Tədqiqatda yaşıl iqtisadiyyatın marketinqə olan təsirini ölçmək məqsədilə müxtəlif qrupların sorğuları və anketləri də həyata keçirilmişdir.

Anket və Sorğu: Tədqiqatın daha geniş təhlilini təmin etmək üçün hədəf kütlə olaraq istehlakçılar, yaşıl iqtisadiyyat və marketinq sahəsində çalışan mütəxəssislər və sahibkarlar arasında anketlər keçirilmişdir. Bu sorğuların nəticələri yaşıl məhsulların bazar tələbi və istehlakçı davranışlarını anlamağa kömək etmişdir.

Komparativ Təhlil: Yaşıl marketinqin müxtəlif tətbiq sahələrini müqayisə edərək, müvafiq strategiyaların effektivliyini müəyyənləşdirmək üçün komparativ təhlil üsulundan istifadə olunmuşdur. Fərqli şirkətlərin və regionların yaşıl iqtisadiyyat tətbiqləri müqayisə edilərək ən effektiv metodlar seçilmişdir.

Metodoloji Çərçivə: Tədqiqatın metodoloji çərçivəsi yaşıl iqtisadiyyatın marketinqə təsirini başa düşmək üçün həm nəzəri, həm də praktiki yanaşmaları əhatə edir. Yaşıl marketinqin əsas amillərini, o cümlədən ekoloji məsuliyyət, yaşıl istehlakçı tələbləri, qanunvericilik və təbii resursların səmərəli istifadəsi məsələlərini əhatə edən hərtərəfli analiz aparılmışdır.

Bu materiallar və metodlar vasitəsilə yaşıl iqtisadiyyatın marketinq sahəsindəki əhəmiyyəti, ekoloji təmiz məhsul və xidmətlərin bazarda daha geniş yayılmasına töhfə verən amillər tədqiq edilmişdir. Tədqiqatın nəticələri yaşıl iqtisadiyyatın gələcək inkişafı və marketinq strategiyalarının formalaşdırılmasında əhəmiyyətli rol oynaya bilər.

## Nəticə

Yaşıl iqtisadiyyatda marketinq ekoloji təmiz məhsul və xidmətlərin təşviqində mühüm rol oynayır. İstehlakçıların seçiminin dəyişməsi, sosial və ekoloji meyllər, istehsalda yeniliklər və hüquqi tənzimləmələr marketinq strategiyalarına təsir edən əsas faktorlar olaraq önə çıxır. Marketinqin doğru alət və üsullarla istifadəsi şirkətlərə ekoloji təmiz məhsulların bazarda uğurla təşviq edilməsini təmin edir və davamlı istehlak mədəniyyətinin inkişafına töhfə verir.

Qlobal ekoloji çağırışlarla üzləşən bir dövrdə, yaşıl iqtisadiyyatda marketinqin əhəmiyyəti artmaqda davam edəcək və bu sahədə uğur əldə edən şirkətlər uzunmüddətli iqtisadi uğur və davamlı inkişaf əldə edəcəklər.

## *Ədəbiyyat*


Kotler, P., & Keller, K. L. (2016). Marketing Management (15th ed.). Pearson.

Belz, F.-M., & Peattie, K. (2012). Sustainability Marketing: A Global Perspective (2nd ed.). Wiley.

Grant, J. (2007). The Green Marketing Manifesto. Wiley.

Ottman, J. A. (2011). The New Rules of Green Marketing: Strategies, Tools, and Inspiration for Sustainable Branding. Berrett-Koehler Publishers.

Peattie, K. (2001). Golden Goose or Wild Goose? The Hunt for the Green Consumer. Business Strategy and the Environment, 10(4), 187-199.

Dahlstrom, R. (2011). Green Marketing Management. South-Western Cengage Learning.

Kumar, P., & Yadav, R. (2019). Exploring Green Consumer Behavior and Green Marketing Strategies for Sustainable Business Development. In Handbook of Research on Economic and Political Implications of Green Trading and Energy Use (pp. 163-187). IGI Global.
Charter, M., & Polonsky, M. J. (Eds.). (1999). Greener Marketing: A Global Perspective on Greening Marketing Practice (2nd ed.). Routledge.
Rex, E., & Baumann, H. (2007). Beyond ecolabels: what green marketing can learn from conventional marketing. Journal of Cleaner Production, 15(6), 567-576.
Ottman, J. A., Stafford, E. R., & Hartman, C. L. (2006). Avoiding green marketing myopia: Ways to improve consumer appeal for environmentally preferable products. Environment: Science and Policy for Sustainable Development, 48(5), 22-36.

***Summary***

The article provides extensive research on the green economy and its marketing, particularly focusing on the promotion of environmentally friendly products and services, consumer behavior, and the role of marketing in this area within the framework of the green economy. It presents the theoretical aspects of marketing in the green economy, explores the factors influencing this field (such as consumer choice, environmental issues, innovations, and legal regulations), and examines various marketing methods (including the creation of green brands, the use of digital technologies, social media, and selling strategies). The aim is to expand the marketing factors and approaches that ensure the successful promotion of products and services in the green economy, thereby increasing the demand for environmentally friendly options.

***Резюме***

Статья представляет собой обширное исследование в области зеленой экономики и ее маркетинга, уделяя особое внимание продвижению экологически чистых товаров и услуг, поведению потребителей, а также роли маркетинга в этой сфере в контексте зеленой экономики. В статье рассматриваются теоретические аспекты маркетинга в зеленой экономике, анализируются факторы, влияющие на эту область (такие как выбор потребителей, экологические проблемы, инновации и законодательное регулирование), а также изучаются различные методы маркетинга (включая создание зеленых брендов, использование цифровых технологий, социальных сетей и стратегий продаж). Цель исследования заключается в расширении маркетинговых факторов и подходов, которые обеспечивают успешное продвижение товаров и услуг в зеленой экономике, способствуя увеличению спроса на экологически чистые решения.

## DIE IDEE DER LEGITIMITÄT IM POLITISCHEN REALISMUS: EINE ÜBERSICHT

***Wisnewskiy Walter***
***E-Mail: walter.wisnewskiy@web.de***

**Schlüsselwörter**: Realismus, Legitimität, Theorie, Staat, Regierung

**Zusammenfassung**

Der politische Realismus, eine zentrale Theorie der internationalen Beziehungen, analysiert nicht nur das Verhalten von Staaten und deren Interaktionen auf globaler Ebene, sondern beleuchtet auch die Idee der Legitimität im Kontext von Politik – sowohl international als auch national. Im Mittelpunkt steht die Rolle von Macht und Interessen, wobei Staaten innerhalb eines anarchischen Systems ihre Sicherheit und ihren Einfluss zu maximieren versuchen. Der Realismus verbindet Legitimität in der Innenpolitik mit effektiver Regierungsführung, Stabilität und der Sicherung von Autorität. Nach Ansicht der Realisten sind Regierungen dann legitim, wenn sie in der Lage sind, Ordnung aufrechtzuerhalten, effektiv zu regieren und die Interessen ihrer Bürger zu wahren.

**Einleitung**

Der politische Realismus liefert einen spezifischen Ansatz, um das Konzept der Legitimität im Rahmen staatlicher Aktivitäten und Interaktionen zu verstehen. Während der Fokus traditionell auf Macht und staatlichen Interessen im internationalen Kontext liegt, hat diese Perspektive auch Auswirkungen auf die Interpretation von Legitimität in der Innenpolitik. Im Kern des Realismus steht die Überzeugung, dass Macht die wesentliche Grundlage der internationalen Politik bildet. Innerhalb eines anarchischen Systems, das durch das Fehlen übergeordneter Autoritäten gekennzeichnet ist, streben Staaten danach, ihre Macht und Sicherheit zu maximieren.

Ähnlich wird Legitimität in der Innenpolitik durch die Fähigkeit definiert, Stabilität und Ordnung zu gewährleisten. Eine Regierung gilt als legitim, wenn sie ihre Autorität behaupten und gesellschaftlichen Zusammenhalt aufrechterhalten kann – selbst unter Einsatz von Zwangsmaßnahmen.

**Der Zusammenhang zwischen Legitimität und Effektivität**

Im Realismus ist Legitimität untrennbar mit der Fähigkeit einer Regierung verbunden, Sicherheit und Wohlergehen ihrer Bevölkerung zu gewährleisten. Staaten, die in der Lage sind, ihre Territorien effektiv zu kontrollieren und grundlegende Dienstleistungen bereitzustellen, werden als legitim angesehen. Diese Sichtweise unterstreicht die Bedeutung von Stabilität, Ordnung und Regierungsführung in der Definition politischer Legitimität.

**Die Rolle der öffentlichen Meinung und internationale Anerkennung**

Obwohl der Realismus den Staat als Hauptakteur betrachtet, erkennt er die Bedeutung der öffentlichen Unterstützung an. Regierungen müssen eine gewisse Akzeptanz in der Bevölkerung genießen, um ihre Machtposition zu sichern. Zudem beeinflusst die internationale Anerkennung die Wahrnehmung der Legitimität eines Staates. Selbst nicht-demokratische Regime können als legitim gelten, wenn sie Stabilität und wirtschaftliche Entwicklung gewährleisten.

**Schlussfolgerung**

Der politische Realismus liefert ein pragmatisches Verständnis von Legitimität, das auf staatlicher Souveränität, effektiver Regierungsführung und Stabilität basiert. Legitimität wird dabei nicht zwingend mit demokratischen Werten verknüpft, sondern als Ergebnis der Fähigkeit betrachtet, staatliche Interessen zu schützen und das Überleben zu sichern. Diese Perspektive betont die Vielschichtigkeit politischer Legitimität und bietet einen realistischen Blick auf Governance in einer dynamischen Welt.

***Literaturverzeichnis***

1. Ashworth, L. M. (2002). „Did the Realist-Idealist Great Debate Really Happen?“ International Relations, 16(1), S. 33-51.

2. Korab-Karpowicz, W. Julian (2023). „Political Realism in International Relations“, The Stanford Encyclopedia of Philosophy, Winter 2023 Edition.

## AZƏRBAYCAN DİLİNDƏ ANLAMA FEİLLƏRİNİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

***Əfəndiyeva Aytən Üzeyir qızı***
***Gəncə Dövlət Universiteti***
***83aytan@gmail.com***

**Açar sözlər:** Azərbaycan dili, başa düşmək feili, leksik-semantik məna, təhlil
**Keywords:**Azerbaijani language, verb to understand, lexical-semantic meaning, analysi

Azərbaycan dilinin feil sistemi digər nitq hissələrindən orijinallığı və milliliyi ilə seçilir. Belə ki, insan təfəkkürünün nitqdə inikasında xüsusi önəm kəsb edən bu leksik vahidlər fikrin ifadəsi zamanı nitqi davranışın həyata keçirildiyi şəraitdən asılı olaraq tam fərqli çalarlarda işlənmə potensialına malikdir. Anlama prosesi bir neçə ardıcıl alqoritmdən ibarət olduğundan bu proses biristiqamətli olduğu kimi, ikisitiqamətli də baş verə bilər. Yəni dinləyən, məlumatı qəbul edən onun təfəkküründə təhlil edib anladığı kimi, yeni bir biçimdə qarşı tərəfin anlamasına da şərait yarada bilər ki, bu zaman əldə edilən nəticə anlama prosesinin bir dövrəsinin başa çatmasının göstəricisinə çevrilir.

"*İnsan fəaliyyəti məqsədyönlüdür, biz onun məqsədi haqqında suala keçəndə, insanın cəmiyyətdə özünü aparmasının təhlinə keçirik... Adam danışır ki, başqasına nəsə desin, ondan nəyisə və s. xahiş etsin — bu zaman nitq fəaliyyəti həmişə məqsədyönlü olur*" [1, s.63].

Mahmud Kaşğarinin "Divanü-lüğat-it Türk" əsərində feillləri geniş təhlil edərək araşdıran E.Məmmədova qeyd edir ki, "*düşüncə aktının nəticəsi məzmunlu feillər də dildə xüsusi çəkiyə malikdir. Məlumdur ki, təfəkkür prosesi sonda bu aktın nəticəsi ilə başa çatır... Bu feillərin özü də müxtəlif semantik çalarlara malikdir*" [4].

Müəllif buradakı feilləri təhlil edərkən yazır ki, burada "*qeyd olunan feillərin bir qismi təfəkkür prosesi nəticəsində "anlamaq, başa düşmək" məzmunu bildirir. Buraya usla — "anlamaq", uk —"anlamaq", odhğar — "anlamaq" feilləri daxildir. Qeyd edək ki, sonuncu feil ifadə etdiyi mənaya görə əvvəlkilərdən çalar səviyyəsinədə fərqlənir. Belə ki, bu söz tam mənasında "xeyli sonra anlamaq" məzmununa malikdir. Bu fikir süçün – feili haqqında da söyləmək olar. Bu söz "sözün feyzini anlamaq" mənasına malikdir* [4].

*Bir məsələni də xatırladaq ki, zahirən bu tip feillərə bənzəyən sözlər var ki, əslində, sözün ifadə etdiyi məzmun təfəkkürlə bağlı olsa da, tamam başqa anlayışa malikdir*" [7, s.60]. E.Məmmədova öz araşdırmasında "başa düşmək" və "başa salmaq" feillərindən birincini təfəkkür, ikincini isə iş feili kimi qələmə alır. Bu feillərin, demək olar ki, eyni məna ifadə etməsi onların valentliyi ilə bağlı olan məsələdir. "*Frazemdaxili struktur səviyyəsində valentlik feilə məxsusdur, yəni hansı sözlərlə birləşmə əmələ gətirməsi məsələsi feilin semantik həcmindən asılıdır. Lakin "miniatür məcaz" olması xüsusiyyətinə əsasən frazeologizmin daxilində nitq və təfəkkür feillərinin distribusiyası, valentlik imkanı genişdir. Məsələn, "başa düşmək" feili hansısa danışığı, məsələni, gizlədilən bir hərəkəti başa düşmək anlayışı ilə bağlıdır*" [6, s.23]. Məsələn, daxili semantikaya görə "başa salmaq" söyləmi "başa düşmək" söyləmi ilə yaxındır. "*Belə ki, başa düşmək başa salmaq prosesinin nəticəsidir, halbuki, başa salmaq təfəkkür feili deyil, iş feilidir. Abidədə "başa salmaq" mənasında uktur feili verilmişdir ki, bu da "başa düşmək" mənasında olan uk feili ilə eyniköklüdür. Bu tipdən olan feillərin bir qismi görüb-anlama nəticəsində müəyyən biliyə sahib olmaq semantikasını bildirir. Məsələn, abidədə verilmiş bil sözü müasir oğuz dillərində, əni Azərbaycan, türk türkmən və qaqauz dillərindəki mənaya malikdir. Bu söz "bilsik" formasında "bilinmək, faş olmaq" mənasındadır*" [7, s. 60].

"*Frazeoloji sabit birləşmə yaranarkən "başa düşmək" feilinin birləşmə əmələ gətirmək qabiliyyətində — valentliyində genişlənmə baş vermişdir... Leksik vahidin strukturu nə qədər sadə olsa, onların frazeoloji vahid yaratma qabiliyyəti də bir o qədər yüksək olur*" [10, s.24].

"Azərbaycan dilinin sinonimlər lüğəti"ndə "anlamaq" feilinin sinonimləri kimi bu feillər qeyd edilir: "*qanmaq, başa düşmək, baş açmaq, baş çıxarmaq, düşünmək, baş tapmaq, dərk etmək, düşünmək, qavramaq*". "Anlatmaq" feilinin sinonimləri kimi isə "*aydınlaşdırmaq, başa salmaq, izah etmək, qandırmaq*" kimi feillər qeyd edilir [8, s.25]. Bu feillər arasında diqqətimizi çəkən "izah etmək" feili nitq feilləri ilə təfəkkür feilləri arasındakı

keçid mövqedə bərqərar olub desək, yanılmarıq, çünki kontekstdən asılı olaraq, qeyd edilən feil bəzi məqamlarda "bəyan etmək" mənasında nitq feili kimi çıxış edir. Nitqi situasiyaların əksəriyyətində isə təqdim olunan məlumatın daha asan qavranılması üçün detallı şəkildə təqdimatına işarə edərək anlama feili kimi funksionallaşır.

Təsadüfi deyil ki, Azərbaycan dilinin izahlı lüğətində bu feilin mənalarından biri kimi "*anlatmaq, şərh etmək, açmaq, bəyan etmək*" [2, s. 617] qeyd edilir. Bu feilin anlama semantikasına misallar üzərindən nəzər yetirək: "*Təhminə özü Zauru başa salmışdı ki, Dadaş necə edir bunu və nə səbəbdən edir? İndi də Spartak? Yəqin söz düşsəydi, Təhminə Spartak məsələsini də dəqiq-dürüst izah edərdi Zaura*" [3, s.169];

Hər iki nümunədə "izah etmək" feili "anlatmaq, başa salmaq" mənasında işlədilmişdir.

Anlama feilləri sırasına "idrak etmək" feilinin də əlavə edilməsi daha yaxşı olardı. Müasir Azərbaycan dilində geniş işləkliyə malik olmayan "idrak etmək" feilinə "anlamaq, dərk etmək" mənasında daha çox ədəbi klassiklərin əsərlərində təsadüf etmək mükündür: "*Hər xəyalın idrak edən; Könül güzgüsün pak edən* (Əmani); *Mən idrak etmədim dünyaya gəlməkdən nədir hikmət...*(M.Hadi); *Qul olduğunu edincə idrak; Hürriyyətin istəmişdi bibak* (A.Səhhət)" [11].

Anlama feillərin leksik əhatəsi məsələsinə topxunduqda, qeyd etmək istərdik ki, bu feillər ikivalentlidir, yəni onların semantik strukturu "anlamaq" feilini əhatə edən anlamanın subyekt və obyektinin olmasını tələb edir. Anlama feillərinin semantikasının əsas əlamətləri kimi bunları qeyd edə bilərik: 1. Subyektin növü: burada anlama prosesini həyata keçirən subyekt insan (*Mən də daha Cırtdanla zarafat etməyin necə təhlükəli bir iş olduğunu anladım* [5, s. 262]), digər canlı növü (*At da sahibinin fikrini başa düşmüş kimi tələsir, az qala qanadlanıb uçurdu* [9, s. 23]), mücərrəd anlayış (*Hisslər sözləri dərk eləmir* [3, s. 67]), bədən üzvləri (*Qəlbim məni başa düşmədiyi halda* [4, s. 129]), təbiət hadisələri *(Planetimiz də bizi anlamağa başlayar* [4, s. 89]) və s. ola bilər; 2. Anlamanın yönəldiyi obyektin növü: obyekt qismində hiss və duyğular (*İndi Fındıqburunun məqsədini başa düşüb dedi* [4, s. 92]), insan və digər canlılar (*Mən səni anlayıram* [5, s. 129]).

*"Mən də daha Cırtdanla zarafat etməyin necə təhlükəli bir iş olduğunu anladım"* [5, s. 262] nümunəsində belə görünür ki, "anlamaq" feilinin subyekti qismində konkret bir şəxs çıxış edir və bu feil onun digər insanların davranışı, dəyərləri haqqında bilgili olmasına işarə edir ki, bu da bu feilinin epistemik-praqmatik məzmunun göstəricisi kimi çıxış edir.

Bu nümunələrə nəzər saldıqda, "anlamaq" feilinin məzmununda epistemik-praqmatik göstəricilərin başqa bir yöndə özünü biruzə verdiyinin şahidi oluruq. Belə ki, burada insan davranışının dəyərləndirilməsi də nəzərdə tutulur: özünü harada və necə aparmaq lazımdır, müəyyən davranış qaydalarına riayət edilməldir və ya hiss və emosiyaları fərqli situasiyalara görə cilovlamaq və ya idarə etmək bacarığının olmasına işarə edilir. Bu definisiyadan belə görünür ki, burada həmsöhbətin istifadə etdiyi söz və işarələrin mənasını anlamaq məzmunu ifadə edilib ki, bu da siqnifikativ anlamadır.

*... və Zaur yenə də axıracan anlaya bilmirdi — doğrudanmı Təhminə səmimi deyir bu sözləri, onu sevdiyindən deyir, ya dolayır, ələ salır...* [3, s. 231].

Burada hadisələrin və hadisələrin qiymətləndirilməsinə eyni münasibəti və oxşar davranış sərgiləyən, yaxın və ya oxşar dəyərlərə malik insanların motivlərini və məqsədlərini başa düşmək nəzərdə tutulur. Bu, feilin epistemik-praqmatik məzmunudur.

Anlama feillərinin semantik əlamətləri: anlama feillərinin semantik əlamətlərinə görə təsnifatı zamanı aşağıdakı meyarlar nəzərə alınmalıdır: subyekt tərəfindən informasiyanın hansı üsulla alınması: İnsan məlumatı görmə, eşitmə, iybilmə və toxunuş hissi ilə əldə edə bilir; subyekktin aldığı informasiyanın kimə və ya nəyə aid olması: insana, müəcrrəd varlıq və ya hadisəyə, canlılar aləmi və ya təbiətə, cansız əşyaya və s.

Təhlil zamanı anlama feillərinin subyekt-obyekt, eləcə də kəmiyyət-keyfiyyət xüsusiyyətləri aşkar edilmişdir. Azərbaycan və ingilis dillərinin feillərinin subyekt-obyekt parametrləri ardıcıl və eyni tipdə təqdim olunursa (hərəkətin subyekti və obyekti ya aktiv, konkret və canlı, ya da passiv, mücərrəd və cansızdır), onda dərketmənin kəmiyyət-keyfiyyət xüsusiyyətləri (fəaliyyətin metodu və xarakteri, intensivliyi və zamanın uzunluğu kimi) istəyə bağlıdır və bəzi hallarda tədqiq olunan feillərin kontekstdə istifadəsi ilə əlaqələndirilir. Bundan əlavə, bu əlamətlər bizim tərəfimizdən müəyyən dərəcədə şərtiliklə seçilir ki, bu da anlama feillərinin xüsusiyyətləri ilə izah olunur – onların ifadə etdiyi proses demək olar ki, heç bir xarici təzahürə malik deyil, yalnız insan şüurunda davam edir.

### *Ədəbiyyat*


1. Abdullayev, Ə.Ə. Mətn, məna və anlama: kommunikativ-koqnitiv təhlil:/ filol.e.d.dissert./ – Bakı, 2001. – 359 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. – II c. –2006. –790 s.
3. Anar. Seçilmiş əsərləri / Anar. – Bakı: Lider nəşriyyat, – 2004. – 416 s.
4. Xəlil, Z. Seçilmiş əsərləri: Uşaqlar üçün nağıl-povestlər / Z.Xəlil. – III c. – 405 s.
5. Kərim, Ə. Seçilmiş əsərləri: [II cild]. (Nəsr əsərləri) / Ə.Kərim. – Bakı: Elm və təhsil, – 2012. –500 s.
6. Məmmədova, E.A. Mahmud Kaşğarinin “Divanü-lüğat-it Türk” əsərində feil: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, – 2015. –150 s.
7. Sadiq, Ş. Od Ərlər / Ş. Sadiq. – Bakı: Xan nəşriyyatı, – 2017. – 224 s.
8. Seyidov, Y.M. Azərbaycan dilinin qrammatikası. Morfologiya / Y.M.Seyidov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2010. – 215 s.
9. Şıxlı, İ. Seçilmiş əsərləri: [iki cilddə] / Şıxlı İ. – Bakı: Şərq-Qərb, – c. 2. – 2005. –400 s.
10. Абрамов, В.Г. Семантические поля русского языка / В.Г.Абрамов. Монография. – Москва-Краснодар: Акад. Пед. И соц. Наук РФ, Кубан. Гос. Ун-т, –2003. – 338 с.
11.https://obastan.com/idrak/18081/


## THE SEMANTIC FEATURES OF VERBS OF UNDERSTANDING IN AZERBAIJANI LANGUAGE


***Efendiyeva Aytan Uzeyir***
***Ganja State University***
***83aytan@gmail.com***



***Summary***

The verb system of the Azerbaijani language stands out from other parts of speech with its originality and national character. Since the process of comprehension consists of several consecutive algorithms, it can occur not only in a one-way direction but also in a two-way direction. That is, the listener or recipient of the information may not only analyze and comprehend it within their own mind, but also facilitate the understanding of the other party in a new form. In this case, the result obtained becomes an indicator of the completion of one cycle of the comprehension process.

An examination of the functions of basic understanding verbs as direct nominative markers shows that these verbs have an implicative function. It is rare to find them performing a perceptive function. On the other hand, in dialogue texts, it is also quite common to encounter cases where verbs of understanding are used to confirm information and facts.

The article examines the lexical semantic properties of the verb “başa düşmək” (to understand).

# AZƏRBAYCAN VƏ REGİONAL ENERJİ SİYASƏTİ: RUSİYA VƏ İRAN KONTEKSTİ

***Tarix üzrə fəlsəfə doktoru, dosent Musayev Etibar Adil oğlu***
***Gəncə Dövlət Universiteti***
***etibaradiloglu@mail.ru***
***Orcid id: 0000-0001-8567-0692***

**Xülasə:** *Azərbaycanın Regional Enerji Siyasəti regionun geosiyasi tarazlığında mühüm rol oynayır. Azərbaycan zəngin enerji resursları və beynəlxalq layihələrlə strateji mövqeyini gücləndirir. Rusiya və İran isə həm rəqib, həm də əməkdaş tərəf kimi çıxış edir. Bu kontekstdə Azərbaycan balanslı siyasət yürüdərək, həm regional enerji təhlükəsizliyini təmin edir, həm də qlobal bazarlarda mövqelərini möhkəmləndirməyə çalışır.*

**Açar sözlər**: enerji, region, strategiya,"Əsrin Müqaviləsi", əməkdaşlıq, layihə, sanksiya, texnologiya,

**Ключевые слова:** энергетика, регион, стратегия, «Контракт века», сотрудничество, проект, санкции, технологии

**Key words:** energy, region, strategy, " Contract of the century ", cooperation, project, sanctions, technology

## Giriş

Azərbaycanın enerji sektoru, xüsusilə neft və qaz resursları, ölkənin iqtisadi inkişafında və regional geopolitik mövqeyində mühüm rol oynayır. Ölkənin enerji siyasəti həm daxili iqtisadi məqsədləri, həm də xarici siyasət strategiyaları ilə sıx bağlıdır. Son illərdə Azərbaycanın enerji layihələri yalnız region üçün deyil, eyni zamanda qlobal enerji bazarı üçün də strateji əhəmiyyət kəsb edir (Aliyev, 2022, s. 45).

Bu məqalədə Azərbaycan ilə Rusiya və İran arasındakı enerji əlaqələri, onların regional təsirləri, qarşılıqlı maraqlar və risklər analiz ediləcək. Məqalənin məqsədi Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərini araşdırmaq, regional əməkdaşlığın üstünlüklərini və problemlərini qiymətləndirməkdir.

## Azərbaycan Enerji Siyasəti

Azərbaycan enerji siyasətini üç əsas istiqamət üzrə formalaşdırır: daxili enerji təhlükəsizliyi, regional əməkdaşlıq və qlobal enerji bazarında iştirak. 1990-cı illərin əvvəllərində müstəqilliyini bərpa edən ölkə, neft və qaz resurslarından səmərəli istifadə strategiyasını inkişaf etdirdi. Bu strategiyanın mərkəzində "Əsrin Müqaviləsi" və Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri kimi layihələr dayanır (Mammadov, 2019, s. 78).

### Daxili enerji təhlükəsizliyi

Azərbaycan üçün daxili enerji təhlükəsizliyi yalnız istehsal gücü ilə bağlı deyil, həm də enerji infrastrukturunun modernləşdirilməsi və əhali üçün ucuz və dayanıqlı enerji təminatını əhatə edir. 2010–2020-ci illərdə ölkədə elektrik stansiyalarının modernləşdirilməsi, qaz şəbəkələrinin genişləndirilməsi və yeni enerji layihələrinin təşkili bu siyasətin əsas hissəsini təşkil edir (Huseynov, 2020, s. 102).

### Regional və qlobal əməkdaşlıq

Azərbaycanın enerji siyasətində regional əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. Qonşu ölkələrlə enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın həm tranzit ölkə, həm də enerji ixracatçısı kimi mövqeyini gücləndirir. BTC neft kəməri və Cənub Qaz Dəhlizi (SGC) bu əməkdaşlığın əsas nümunələridir.

## Rusiya ilə Enerji Münasibətləri

Rusiya ilə Azərbaycan arasında enerji münasibətləri uzun tarixə malikdir və həm əməkdaşlıq, həm də rəqabət elementlərini əhatə edir.

Qaz və neft ticarəti

Rusiya Azərbaycanın qaz və neft ixracı üçün həm bazar, həm də tranzit ölkə rolunu oynayır. Xüsusilə, Rusiya-Azərbaycan qaz müqavilələri enerji təhlükəsizliyi baxımından vacibdir. Lakin bu münasibətlərdə zaman-zaman qiymət və tranzit şərtləri ilə bağlı mübahisələr yaranır (Petrov, 2021, s. 56).

Azərbaycanın Avropa bazarına enerji ixracı layihələri (BTC və SGC) Rusiyanın enerji bazarında rəqabət yaratması səbəbindən Moskva tərəfindən diqqətlə izlənilir. Buna baxmayaraq, Rusiya ilə strateji enerji əməkdaşlığı, xüsusilə krossover layihələrdə, region üçün stabillik təmin edir (Ivanov, 2020, s. 88).

**İran ilə Enerji Münasibətləri**

Azərbaycan-İran enerji əlaqələri daha çox regional əməkdaşlıq və tranzit imkanlarına əsaslanır. Azərbaycan və İran arasında enerji əməkdaşlığı tarixi, coğrafi yaxınlıq və ortaq maraqlara əsaslanır. Hər iki ölkə zəngin enerji resurslarına malik olmaqla yanaşı, Xəzər dənizi hövzəsində strateji mövqeyə sahibdir. Münasibətlərdə əsas istiqamətlər neft, qaz, elektrik enerjisi mübadiləsi və nəqliyyat infrastrukturunun inkişafıdır. Azərbaycanın enerji layihələri bəzən Qərbə inteqrasiya məqsədi daşısa da, İranla əməkdaşlıq regional sabitlik və qarşılıqlı iqtisadi fayda üçün əhəmiyyətlidir. Bununla belə, geosiyasi rəqabət və sanksiyalar münasibətlərdə çətinliklər yaradır.

Azərbaycan və İran arasında enerji sahəsində əməkdaşlıq qarşılıqlı maraqlara əsaslanır və müxtəlif layihələr vasitəsilə inkişaf etdirilir. Əsas istiqamətlərdən biri elektrik enerjisi mübadiləsi və şəbəkələrin sinxronlaşdırılmasıdır. Bu sahədə Astara və Muğan bölgələrində infrastrukturun genişləndirilməsi nəzərdə tutulur. Neft və qaz sahəsində isə birgə kəşfiyyat və hasilat layihələri, xüsusilə Xəzər dənizində müştərək yataqların işlənməsi vacib istiqamətlərdən sayılır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası ilə İran arasında enerji körpüsü mövcuddur ki, bu da regionun enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bütün bu layihələr Azərbaycan-İran münasibətlərini möhkəmləndirir, eyni zamanda regional əməkdaşlıq və sabitliyə xidmət edir.

İran ilə birgə neft və qaz layihələri 2000-ci illərin ortalarından aktivləşib. Xüsusilə, İran-Azərbaycan qaz boru kəmərləri və birgə enerji stansiyaları regionda enerji axınını artırır. Bu əməkdaşlıq həm iqtisadi, həm də siyasi maraqları gücləndirir (Karimi, 2018, s. 34).

Lakin İran üzərində tətbiq olunan beynəlxalq sanksiyalar bu layihələrin inkişafına təsir göstərir. Azərbaycanın enerji siyasəti bu riskləri nəzərə alaraq balanslı yanaşma tətbiq edir və digər tərəfdaşlarla əlaqələri genişləndirir (Rahimi, 2019, s. 47).

**Qlobal Enerji Bazarına Təsir**

Azərbaycanın enerji siyasəti yalnız regional deyil, qlobal enerji bazarında da əhəmiyyətlidir. Xüsusilə Avropa üçün alternativ enerji mənbələri yaratmaq baxımından ölkənin rolu artır. Cənub Qaz Dəhlizi və BTC layihələri Avropanın enerji diversifikasiyasında strateji rol oynayır (European Energy Review, 2021, s. 12).

**Risklər və Perspektivlər**

Azərbaycan enerji layihələrində bir sıra risklərlə üzləşir:

Siyasi risklər: Regional münaqişələr və qonşu ölkələrdəki qeyri-sabitlik.

İqtisadi risklər: Enerji qiymətlərinin qlobal dəyişkənliyi.

Texnoloji risklər: Modernləşdirilməmiş infrastruktur və texniki çatışmazlıqlar.

Perspektivdə Azərbaycanın enerji siyasəti daha çox rəqəmsal texnologiyalara və bərpa olunan enerji mənbələrinə yönələcəkdir. Bu, ölkənin həm daxili enerji təminatını gücləndirəcək, həm də qlobal bazarda rəqabət qabiliyyətini artıracaq (Azerbaijan Energy Outlook, 2022, s. 23).

**Nəticə**

Azərbaycanın enerji siyasəti strateji, çoxşaxəli və regional əməkdaşlığa yönəlmişdir. Rusiya və İran ilə enerji münasibətləri həm əməkdaşlıq, həm də rəqabət elementlərini ehtiva edir. Ölkənin enerji layihələri regional və qlobal səviyyədə əhəmiyyətli təsir göstərir və gələcəkdə bərpa olunan enerji və rəqəmsal texnologiyalar sahəsində inkişaf perspektivləri mövcuddur.

***Ədəbiyyat***


1. Aliyev, R. (2022). Azərbaycanın enerji siyasəti: tarixi və perspektivlər. Bakı: Elm Nəşriyyatı, s. 45.
2. Mammadov, S. (2019). Neft müqavilələri və regionda enerji siyasəti. Bakı: Qafqaz Universiteti Nəşriyyatı, s. 78.
3. Huseynov, F. (2020). Azərbaycanın daxili enerji təhlükəsizliyi. Bakı: Enerji Araşdırmaları Mərkəzi, s. 102.
4. Petrov, I. (2021). Russia-Azerbaijan Energy Relations. Moscow:Energy Policy Journal, 56.
5. Ivanov, A. (2020). Regional Energy Projects and Geopolitics. Moscow: International Energy Studies, s. 88.
6. Karimi, H. (2018). Iran-Azerbaijan Energy Cooperation. Tehran: Middle East Energy Review, s. 34.
7. Rahimi, S. (2019). Sanctions and Energy Risks in Iran. Tehran: Regional Studies Press, 47.
8. European Energy Review (2021). Southern Gas Corridor and Europe. Brussels: European Energy Review, s. 12.
9. Azerbaijan Energy Outlook (2022). Future of Energy in Azerbaijan. Bakı: State Energy Agency, s. 23.


## AZERBAIJAN AND REGIONAL ENERGY POLICY: THE RUSSIAN AND IRANIAN CONTEXT


***candidate of historical sciences, associate professor Musaev Etibar Adil Ogly***
***Ganja State University***



***Summary***

Azerbaijan's regional energy policy plays an important role in the geopolitical balance of the region. Azerbaijan strengthens its strategic position through rich energy resources and international projects. Russia and Iran, however, act both as competitors and partners. In this context, Azerbaijan pursues a balanced policy, ensuring regional energy security while striving to strengthen its positions in global markets.


## АЗЕРБАЙДЖАН И РЕГИОНАЛЬНАЯ ЭНЕРГЕТИЧЕСКАЯ ПОЛИТИКА: РОССИЙСКИЙ И ИРАНСКИЙ КОНТЕКСТ


***кандидат исторических наук, доцент Мусаев Этибар Адиль оглы***
***Гянджинский государственный университет***



***Резюме***

Региональная энергетическая политика Азербайджана играет важную роль в геополитическом равновесии региона. Азербайджан укрепляет свои стратегические позиции благодаря богатым энергетическим ресурсам и международным проектам. Россия и Иран выступают как соперники, так и партнёры. В этом контексте Азербайджан проводит сбалансированную политику, обеспечивая региональную энергетическую безопасность и стремясь укрепить свои позиции на мировых рынках.

**UOT 159.9**

# "ÇƏTİN" TƏRBİYƏ OLUNAN YENİYETMƏLƏRDƏ EMOSİONAL SABİTSİZLİK VƏ ONUN KORREKSİYASI YOLLARI

***Cabbarova Telli Rəhim qızı***
***Fəlsəfə doktoru proqramı üzrə dissertant***
***Gəncə Dövlət Universiteti***
***ziyacabbarli@mail.ru***
***https://orcid.org/0009-0008-1248-9487***

**Xülasə:**"Çətin" tərbiyə olunan yeniyetmələrin davranış formalarında yaranan ziddiyyətlər və bu problemin cəmiyyətə təsiri əks olunur. Ailə, məktəb və sosial mühitin təsiri altında formalaşan deviant, delikvent və aqressiv davranışların psixoloji və hüquqi aspektləri təhlil olunur. Yeniyetmələrin sosial rifahının təmin olunmasında dövlətin və cəmiyyətin rolu vurğulanır. Psixodiaqnostika, fərdi yanaşma və maarifləndirmə tədbirləri mühüm vasitə kimi göstərilir. Hüquqi baza və beynəlxalq pedaqoji yanaşmalarla problemlərin qarşısının alınması yolları təqdim olunur. Yeniyetmələrin şəxsiyyət kimi formalaşmasında psixoloji və sosial dəstəyin əhəmiyyəti ön plana çəkilir.

**Açar sözlər** :"Çətin" yeniyetmələr, Deviant və delikvent davranış, Aqressivlik,emosional pozuntu, Hüquqi və pedaqoji mexanizmlər

**Keywords:** "Difficult" adolescents, Deviant and delinquent behavior, Aggressiveness, Emotional disorder, Legal and pedagogical mechanisms

Müasir cəmiyyətdə sosial şəbəkələrin təsiri, ailədaxili münasibətlərdəki pozuntular və təhsildə fərdi yanaşmanın zəifliyi çətin tərbiyə olunan yeniyetmələrin artmasına səbəb olur [2, s.12]. "Çətin" uşaqlar termini adətən sözə baxmayan, intizamsız, emosional sabitsizliyi olan və sosial uyğunlaşmada çətinlik çəkən uşaqları ifadə edir [5, s.34]. Bu xüsusiyyətlərin yaranmasında ailə tərbiyəsindəki boşluqlar, emosional laqeydlik və məktəbdə sistemsiz yanaşmalar əsas rol oynayır [5, s.35]. Bu uşaqların problemləri onların emosional və sosial inkişafında ciddi çətinliklər yaradır. "Çətin" yeniyetmələr isə dörd qrupa bölünür: emosional-iradi qüsurları olanlar, pedaqoji baxımsızlıq səbəbindən əxlaqi dəyərləri formalaşmayanlar, əlverişsiz sosial mühitdə böyüyənlər və münasibətlərdə uyğunsuzluq səbəbindən tərbiyə olunanlar [2, s.19]. Bu qrupların hər birində fərqli sosial və psixoloji problemlər üzə çıxır ki, onların həlli üçün həm ailənin, həm məktəbin, həm də dövlətin birgə fəaliyyəti vacibdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 44-cü maddəsi uşaqların sağlamlığı, tərbiyəsi və təhsili üçün dövlət tərəfindən lazımi imkanların yaradılmasını təmin edir [1, s.22]. Bu hüquqi baza ailə və dövlətin uşaqların inkişafındakı məsuliyyətini vurğulayır və onların sosial, psixoloji, pedaqoji problemlərinin həllində əsas rol oynayır. Xüsusilə kiçik məktəb yaşın sonlarında "çətinlik" daha çox emosional sahədə özünü göstərir; onlar təcavüzkar, emosional qeyri-sabit, küsəyən və utancaq ola bilirlər [2, s.27]. Bu isə onların sosiallaşma və tərbiyə prosesində fərdi yanaşmanın, psixodiaqnostik qiymətləndirmənin və müvafiq korreksiya tədbirlərinin vacibliyini ortaya qoyur [5, s.66].Tanınmış pedaqoq Yanuş Korçak isə uşaqların tərbiyəsində onların hüquqlarının tanınması, sevgiyə əsaslanan münasibətin qurulması və şəxsiyyət kimi formalaşmalarına şərait yaradılmasını önə çəkir [5, s.55]. Bu yanaşma Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi ilə üst-üstə düşür, çünki burada bütün vətəndaşların qanun qarşısında bərabər olduğu və ayrı-seçkiliyin qadağan olunduğu bildirilir [1, s.7]. Uşaqların hüquqlarının təmin olunması onların sağlam inkişafı

üçün əsasdır [6, s.3].Cəmiyyətimizdə son dövrlərdə zorakılığın artması və mənəvi-əxlaqi dəyərlərin zəifləməsi yeniyetmələr arasında ciddi sosial və psixoloji pozuntulara gətirib çıxarır [2, s.33]. Belə mühit onların daxili potensialını reallaşdırmasını və şəxsiyyət kimi formalaşmasını çətinləşdirir, nəticədə isə asosial davranışların — dilənçilik, narkomaniya, əyyaşlıq, toxikomaniya və cinayətkarlıq kimi neqativ meyllərin — artmasına şərait yaradır. Sosial-iqtisadi islahatların yeniyetmələrə müsbət təsir göstərməməsi və böyüklərin onlara dəstək vermək əvəzinə tənqid mövqeyində olması vəziyyəti daha da ağırlaşdırır. Yeniyetmələrdə emosional sferanın pozulması onlarda bir çox mənfi davranışların inkişafını formalaşdırır: deviant, delikvent, aqressiv, bullinq, zorakılığa meyillilik [2, s.35].Deviant davranış, yəni cəmiyyətin qəbul etdiyi norma və dəyərlərdən kənara çıxmaq, müasir psixologiya və pedaqogikanın mühüm mövzusudur [2, s.38]. Emil Dyurkheymin "anomiya" anlayışı və Robert Mertonun struktur-funksional modeli deviant davranışları sosial dəyişikliklərə qarşı reaksiya kimi izah edir [3, s.112]. Mertonun modelində konformizm, innovasiya, ritualizm, geri çəkilmə və üsyan kimi müxtəlif deviant reaksiyalar təsvir edilir [3, s.115].Psixoloji yanaşmalar Ziqmund Freydin "eqo" zəifliyi, iradi-emosional qüsurlar və Rojkovun hüquqi-əxlaqi şüur pozuntularına diqqət yetirir [5, s.80]. Tibbi-bioloji baxış isə deviantlığı irsi meyillər və beyində orqanik pozuntularla əlaqələndirir [5, s.81]. Statistikaya görə, yeniyetmələr arasında deviant davranışların böyük hissəsi məhz psixoloji problemlərlə bağlıdır [2, s.39].Azərbaycan Respublikasının Konstitusiyasının 68-ci maddəsi hər kəsin təhsil almaq hüququnu və dövlətin təhsilin keyfiyyətini təmin etməli olduğunu bildirir [1, s.29]. Təhsil şəxsiyyətin sosiallaşması və normativ davranışların formalaşması üçün əsas platformadır. Sosial səbəblərdən narkomaniya, qumar və sosial şəbəkə asılılığı gənclər arasında artmaqdadır [2, s.41]. Bu, mənəvi dəyərlərin zəifləməsi və sosial strukturdakı boşluqların göstəricisidir. Deviant davranış həm risk, həm də dəyişiklik mənbəyi kimi qəbul edilməlidir [2, s.42].Delikvent davranış yeniyetmələrdə hüquqi və sosial norma pozuntularını — oğurluq, zorakılıq, məktəbdən yayınma, narkotik istifadə və vandalizm kimi formaları — əhatə edir [2, s.44]. Azərbaycan Respublikasının Konstitusiyasının 74-cü maddəsi uşaqların hüquq və məsuliyyətlərini müəyyən edir və onların hüquq-mühafizə orqanları ilə münasibətlərini tənzimləyir [1, s.33].Delikvent davranışın əsas səbəbləri ailədə pozuntular, məktəb uğursuzluğu, neqativ dost mühiti və sosial-emosional problemlərdir [2, s.45]. R. Mertonun "innovasiya" modeli bu davranışı cəmiyyətin qəbul etdiyi məqsədlərə qanunsuz yolla çatmaq cəhdi kimi izah edir [3, s.117].Aqressiv davranış uşaqlarda yaş, ailə mühiti və sosial təsirlərdən qaynaqlanır [4, s.15]. Bu davranış şəxsiyyətin yox, qarşılıqlı münasibətlərin xüsusiyyətidir. Ailədə tez-tez cəza və qışqırıq aqressiyanın möhkəmlənməsinə səbəb ola bilər [4, s.18]. Azərbaycan Respublikasının Konstitusiyasının 41-ci maddəsi hər kəsin hüquqlarının qorunmasını təmin edir və uşaqların sağlamlığı dövlətin prioritetidir [1, s.19].

Aqressiyanın əsas səbəbləri diqqət çatışmazlığı, qadağalar, ağrı və qısqanclıqdır [4, s.20]. Uşaq emosiyalarını ifadə etməyi öyrənmədikdə aqressiyanı müdafiə və ya ünsiyyət vasitəsi kimi istifadə edir [4, s.22]. Valideyn və müəllimlərin reaksiyası davranışın dəyişməsində həlledicidir. Aqressiv uşaqlara səbirlə yanaşmaq, hisslərini ifadə etməyə şərait yaratmaq və alternativ davranış yolları göstərmək vacibdir [4, s.25].Müasir texnologiya və sosial şəbəkələr uşaqların və yeniyetmələrin həyatında böyük rol oynayır [2, s.46]. İnternet informasiya əldə etmək, sosial əlaqə qurmaq, özünüifadə və əyləncə vasitəsidir. Müsbət təsirlərinə təhsil resurslarına asan çıxış, sosial bacarıqların inkişafı, yaradıcılıq imkanları və psixoloji dəstək qruplarına çıxış daxildir [2, s.47].Mənfi təsirlərə isə internet asılılığı, kibermobinq, sosial təzyiq, özünüqiymətləndirmə problemləri, məxfilik riskləri və yanlış məlumatların yayılması daxildir [2, s.48]. Bu risklər valideynlər, müəllimlər və cəmiyyət tərəfindən diqqətlə idarə edilməlidir. Uşaqlar təhlükəsiz internet istifadəsi, rəqəmsal savadlılıq və stresslə başa çıxma bacarıqları ilə təchiz edilməlidirlər [2, s.49].Uşaqların və

yeniyetmələrin sosial, psixoloji və pedaqoji rifahı onların gələcəkdə sağlam, məsuliyyətli və faydalı vətəndaşlar, şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır [2, s.50]. Bu məqsədə çatmaq üçün ailə, məktəb və cəmiyyətin birgə fəaliyyəti, eyni zamanda dövlətin hüquqi və sosial dəstəyi zəruridir [1, s.35].Məktəb yalnız bilik verən yox, həm də sosial adaptasiya, dəyərlərin aşılanması və psixoloji dəstək mərkəzi olmalıdır [5, s.72]. Təhsil müəssisələrində psixoloq fəaliyyətinin genişləndirilməsi, fərdi yanaşma və erkən psixodiaqnostikanın tətbiqi "çətin" davranışların qarşısının alınmasında mühüm rol oynayır [2, s.52].Eyni zamanda, müəllimlər müasir psixoloji və pedaqoji biliklərlə silahlanmalı, yeniyetmələrin davranışlarını düzgün dəyərləndirə bilməli və onları aqressiya, zorakılıq və deviant meyllərdən uzaq tutacaq sosial bacarıqları inkişaf etdirməlidirlər [5, s.75].Cəmiyyətin üzərinə düşən məsuliyyət isə yalnız tənqid və qınaqla deyil, həm də real sosial dəstək mexanizmləri ilə ifadə olunmalıdır. Mədəniyyət mərkəzləri, uşaq və gənclər evləri, ictimai birliklər, könüllü təşkilatlar uşaqların və yeniyetmələrin sağlam sosial mühitdə böyüməsi üçün stimullaşdırılmalıdır [1, s.37].Cəmiyyətdə deviant davranışlara dözümsüzlük formalaşdırılmalı, lakin eyni zamanda belə fərdlərin reabilitasiyası və yenidən sosial həyata qazandırılması üçün xüsusi proqramlar həyata keçirilməlidir [2, s.53].Sosial rifahın yaxşılaşdırılması isə ailələrin maddi və mənəvi gücləndirilməsi ilə birbaşa əlaqəlidir [1, s.40]. Sosial rifah yalnız iqtisadi sabitliklə deyil, həm də ailədaxili münasibətlərin sağlam olması, valideynlərin maarifləndirilməsi və uşaqlar üçün təhlükəsiz mühitin yaradılması ilə ölçülür.Dövlət bu istiqamətdə ailələrə psixoloji dəstək xidmətləri, sosial yardım proqramları və tərbiyəvi məsləhət xidmətləri təqdim etməlidir. Eyni zamanda, uşaqların hüquqlarının qorunması üçün hüquqi maarifləndirici biliklər çərçivəsində daha funksional və effektiv şəkildə tətbiq olunmalıdır [1, s.42].

Problemin aktuallığı:Sosial mediada emosional təsirlərlə formalaşan davranışlar aqressivlik, deviant və delikvent meyillər kimi özünü göstərir. Bu vəziyyət yeniyetmələrin şəxsiyyət kimi formalaşmasına mənfi təsir edir və problemin aktuallığını artırır.

Problemin elmi yeniliyi:Araşdırmada çətin yeniyetmələrin davranışları yalnız neqativ hallar kimi deyil, həm də koqnitiv və emosional amillərin qarşılıqlı təsiri fonunda qiymətləndirilir. Yeni yanaşmada hüquqi, psixoloji və pedaqoji mexanizmlərin birgə tətbiqi təklif olunur və "mən"in düzgün inkişafı üçün empatiya əsaslı münasibətin əhəmiyyəti vurğulanır.

Problemin praktik əhəmiyyəti:Məqalə valideynlər, müəllimlər, psixoloqlar və hüquq-mühafizə əməkdaşları üçün praktik tövsiyələr təqdim edir. Fərdi yanaşma, psixodiaqnostika və maarifləndirici tədbirlərlə çətin yeniyetmələrin sosial adaptasiyası və neqativ davranışların qarşısının alınması mümkün ola bilər.

***Ədəbiyyat***

1.Azərbaycan Respublikasının Konstitusiyası. (1995). Bakı: Hüquq Ədəbiyyatı.
2.Əliyeva, N. (2020). Yeniyetmə dövründə deviant davranışların psixoloji əsasları. Bakı: Təhsil Nəşriyyatı.
3.Merton, R. K. (1968). *Social Theory and Social Structure*. New York: Free Press.
4.Quliyev, F. (2019). Aqressiv davranışın sosial-psixoloji əsasları. Bakı: Elm və Təhsil.5. S. İ. Seyidov & Prof. M. Ə. Həmzəyev (ed.). (2007). *Psixologiya*. Bakı.]
5.United Nations Convention on the Rights of the Child. (1989). Retrieved from https://www.unicef.org/crc

## EMOTIONAL INSTABILITY IN "DIFFICULT" ADOLESCENTS AND METHODS OF ITS CORRECTION

***Cabbarova T.R.***

*Summary*

The contradictions in the behavior patterns of "difficult" adolescents and the impact of this problem on society are reflected in the study. The psychological and legal aspects of deviant, delinquent, and aggressive behaviors formed under the influence of family, school, and social environment are analyzed. The role of the state and society in ensuring the social well-being of adolescents is emphasized. Psychodiagnostics, individual approaches, and awareness-raising measures are presented as key tools. Legal frameworks and international pedagogical approaches are offered as ways to prevent such problems. The importance of psychological and social support in the formation of adolescents as individuals is highlighted.


## QOŞMA VƏ FLEKTİV DİLLƏRDƏKİ PREDLOQ


***filologiya üzrə fəlsəfə doktoru, dosent Əhmədova Aytən Arzulla qızı***
***Gəncə Dövlət Universiteti***



**Xülasə:** *Qoşma köməkçi nitq hissəsi olmaq etibarilə bir sıra xüsusiyyətlərə malikdir; müstəqil leksik mənasının, ayrıca sintaktik vəzifəsinin, sualının olmaması, müstəqil leksik vahid kimi işlənə bilməməsi və s.*

*Qoşmadan, onların qrammatik funksiyasından, bir sözlə, dildəki mövqeyindən bəhs edən yazıların, demək olar ki, hamısında onun flektiv dillərdəki "predloq" (sözönü) ilə eyni funksiyanı yerinə yetirdiyi qeyd olunur.*

*"Predloq" və qoşma aid olduqları müxtəlif sistemli dillərdə bir-birinə yaxın funksiyaları yerinə yetirirlər; hər ikisi müvafiq halda olan sözlərə qoşulur, onlar arasında müəyyən semantik münasibətləri formalaşdırır, ya da dəqiqləşdirir. Lakin ayrı-ayrı dillərdə qoşmanın yerinə yetirdiyi vəzifələrlə bağlı fərqli məqamlar da vardır.*

*"Predloq"un funksiyasının genişliyinə gəldikdə isə demək lazımdır ki, qoşma da, bir tərəfdən, halın funksiyasını yerinə yetirirsə, digər tərəfdən, məzmunu dəqiqləşdirməyə və ya çalar fərqi yaratmağa xidmər edir, bu baxımdan onun işlənmə arenası daha zəngindir.*



**Açar sözlər:** Azərbaycan dili, köməkçi nitq hissəsi, flektiv dillər, sözönü, müqayisəli təhlil

**Keywords:** Azerbaijani language, auxiliary part of speech, inflectional languages, preposition, comparative analysis


Dilçilikdə bəzən qeyd olunur ki, qoşma və "predloq" eyni funksiyanı yerinə yetirirlər, onların arasındakı yeganə fərq birləşdikləri sözün əvvəlində və ya sonunda işlədilməsidir. A.X.Aytemirova alman dilində qoşmadan danışarkən göstərir ki, bu dil vahidi türk, Qafqaz dillərində aid olduğu sözdən sonra, hind-Avropa dillərində isə sözdən əvvəl işlənir. Müəllif onu da qeyd edir ki, alman dilində qoşma əksər nitq hissələri, o cümlədən zərf, isim və sifətdən sonra da işlənə bilir. Ona görə də müəllif "qoşma" termininin dəqiqləşdirilməsini zəruri hesab edir [1, 21]. P.S.Kuznetsov da qədim ümumi slavyan dilində qoşmanın mövcud olduğu fikrini söyləyir. Müəllif müasir rus dilində "*radi*" predloqunun sözdən əvvəl işlənməsi ilə yanaşı, bir sıra hallarda aid olduğu sözdən sonra işlənə bilməsini məhz qədim qoşmanın qalığı hesab edir. Y.T. Dolin də bu fikirdədir ki, "*radi*" və "*dlya*" predloqlarının aid olduğu sözdən sonra işlənə bilməsi söz sıralanmasının deyil, diaxroniyanın məhsulu, yaxud qalığıdır [2].

Qeyd etmək lazımdır ki, "predloq" və qoşma aid olduqları müxtəlif sistemli dillərdə bir-birinə yaxın funksiyaları yerinə yetirirlər; hər ikisi müvafiq halda olan sözlərə qoşulur, onlar

arasında müəyyən semantik münasibətləri formalaşdırır, ya da dəqiqləşdirir. Lakin ayrı-ayrı dillərdə qoşmanın yerinə yetirdiyi vəzifələrlə bağlı fərqli məqamlar da vardır.

Birincisi ondan ibarətdir ki, müxtəlif dillərdə qoşmanın hansı nitq hissəsi ilə işlənməsi eyni deyil; ingilis dilində qoşma daha çox feillə birləşirsə, iltisaqi dillərdə isimlə birləşmək əsasdır. Hətta göstərilir ki, ingilis dilində qoşma bəzən isim və ya əvəzlikdən sonra işlənsə də, yenə feilə aid olur, yəni onlar bu mövqeyində də feillə bağlanır. Bəzən isə qoşma feilə aid olmaya bilər [7]. Maraqlıdır ki, bu tip dillərdə qoşmanın ismi və feili birləşmələr yaratdığı da qeyd edilir; bu birləşmələrdə qoşma həmin birləşmələrin semantik komponenti kimi təqdim olunur. Bu baxımdan qoşmanın morfoloji, yaxud sintaktik vahid deyil, ingilis dili lüğət tərkibinin ayrılmaz hissəsi olması da fakt kimi qəbul olunur [8]. C.M.Trofimova isə leksik mənalı sözün özündən sonrakı köməkçi nitq hissəsi ilə, xüsusən də qoşma ilə birləşməsini leksik mənaya və vahid qrammatik formaya malik sintaktik bütöv, konstruksiya kimi çıxış etdiyini qeyd edir [5, 12]. Müəllifin bu tip ifadələri sintaktik konstruksiya adlandırması, görünür, onların sintaktik zəmində meydana çıxması ilə əlaqədardır, çünki qoşma sözlər arasında əlaqə yaratmaq funksiyasını məhz söz birləşməsi və cümlədə yerinə yetirir. Başqa tədqiqatlarda da qoşmalı feili ifadələrdə qoşmanın semantik komponent kimi təqdim olunduğunu müşahidə edirik(148). Ona görə də D.B.Şoynjonova qoşmaları səviyyələrarası (morfologiya və sintaksis) kateqoriyalardan hesab edir [6, 23].

Bu faktla bağlı diqqəti çəkən başqa bir məsələ də ondan ibarətdir ki, qoşmanın hansı nitq hissəsi ilə işlənilməsi bir yana, onun hansı sözlə birləşməsindən asılı olaraq, cümlədə formalaşdırdığı cümlə üzvü də fərqli səciyyəyə malik olur. Məlum olduğu kimi, müasir Azərbaycan dilində qoşmalı söz və ya birləşməsinin olduğu şəkildə cümlənin mübtədası ola bilməsi qrammatik nöqteyi-nəzərdən qəbul edilən deyil; belə ki, müasir Azərbaycan dilində (ümumiyyətlə, iltisaqi dillərdə) mübtəda xəbərlə uzlaşma əlaqəsində olur, qoşmanın mübtədaya qoşula bilməsi xəbərlə mübtəda arasındakı sintaktik əlaqənin xarakterini də dəyişdirməli olardı ki, bu, müasir Azərbaycan dilinin qrammatik quruluşuna uyğun deyil. Lakin tədqiqatçıların göstərdiyi kimi, bəzi dillərdə, o cümlədən koreya dilində qoşma sintaktik vahid olan mübtədaya qoşula bilir. Kauk Bu Mo bu tip qoşmaları hətta "mübtəda qoşması" ("подлежашний послелог») adlandırır [3]. Müəllif onu da göstərir ki, qoşmanın qoşulduğu mübtədanın ifadə vasitəsi kimi saitlə və ya samitlə bitməsi qoşmanın işlədilməsinə təsir edir [3, 13]. Sözsüz ki, bu cür hallar dilin tipi və xarakteri ilə bilavasitə bağlıdır.

İkincisi odur ki, ayrı-ayrı dillərdə qoşmaların hansı hallarda olan sözlərlə işlənməsində də fərqlər özünü göstərir. Əksər dillərdə qoşmaların adlıq, yiyəlik, yönlük, təsirlik hallara qoşulduğu qeyd olunur. Lakin başqa vəziyyət də müşahidə olunur. Məsələn, qazax dilində qoşmanın yiyəlik və yerlik halla işlənmədiyi qeyd edilir, bəzi türk dillərində, habelə Dağıstan dillərində isə, əksinə, qoşmanın yerlik halla da, qazax dilində hətta təsirlik halla işlənməsi faktı vardır. Bu isə qoşmanın ayrı-ayrı dillərdə bu dillərin xüsusiyyətindən asılı olaraq, fərdi səciyyəyə malik olduğunu göstərən faktlardandır.

Nəhayət, üçüncüsü ondan ibarətdir ki, bəzən həm "predloq" həm də qoşma eyni məqamda bir sözlə əlaqədə işlədilə bilir. Düzdür, əksər dillərdə, o cümlədən türk dillərində predloq yoxdur və ona görə də, təbii olaraq, bu dillərdə ikiqat birləşmə mövcud ola bilməz. Lakin bəzi dillərdə, məsələn paşto dilində həm qoşma, həm də predloq vardır və qoşma həm "predloq"lu, həm "predloq"suz sözlərə qoşula bilir [4, 18]. İki eyni, yaxud yaxın kateqoriyanın bir sözdə təzahür etməsi dildə nadir təsadüf edilən fakt kimi, bir qayda olaraq, üslubi məqamla şərtlənir, yəni bu fakt qrammatik norma kimi qəbul edilə bilməz. Bu halda da qoşmanın funksional cəhətdən "predloq" olmadığı bir daha təsdiq olunur.

### *Ədəbiyyat*

1. Айтемирова А. Х. Функционально-семантическая характеристика послелогов

аварского языка и предлогов немецкого языка. АКД, Махачкала, 2007, 23 с.
2. Долин Ю.Г. Предлоги –рослелоги? – Вестник ОГУ, 2005, №1, с.86-88
3. Каук Бу Мо. Пространство и время: сопоставительный анализ предлогов и послелогов. АКД, Казань, 2012, 22 с.
4. Махгуль С.Д. Система предлогов и послелогов в современном литературном языке пашто. АКД, Санкт-Петербург, 1993, 23 с.
5. Трофимова А.Г. Послелоги удегейского языка(в сопоставительном аспекте), АКД, 2007, 24 с.
6. Шойнжонова Д.В. Послелоги и послеложные слова в современном бурятском языке. АКД, Улан-Удэ, 2007, 176 с.
7. WWW.native--english.ru/subscribe/18
8. Фразовые глаголы. Reshal.ru/?p.=7527

## THE PREPOSITION IN AGGLUTINATIVE AND INFLECTIONAL LANGUAGE

***Ahmadova Aytan Arzulla***
***Associate Professor, PhD in Philology***
***Ganja State University, Ganja***
***Summary***

The postposition, as an auxiliary part of speech, possesses a number of distinctive features: it lacks independent lexical meaning, does not have a separate syntactic function or interrogative form, and cannot be used as an independent lexical unit.

In almost all scholarly works discussing postpositions, their grammatical function, and their role in language, it is noted that they perform the same function as "prepositions" in inflectional languages. Although prepositions and postpositions belong to different language systems, they serve similar purposes: they attach to words in appropriate cases and establish or clarify certain semantic relations between them.

However, there are specific differences in the functions that postpositions fulfill in different languages. Regarding the broader functionality of prepositions, it should be noted that postpositions, on the one hand, fulfill the role of case markers, and on the other hand, serve to clarify or differentiate meaning. In this regard, their usage scope is richer and more nuanced.

## RESEARCH OF HISTORY OF GANJA KHANATE BASED ON THE ARCHIVE'S MATERIALS

***Hasanov Elnur Latif oglu***
***Ganja Branch of Azerbaijan National Academy of Sciences, Ganja, Azerbaijan***
***lnurh273@gmail.com***

**Annatasion:** *The main aim of the scientific paper is investigation of archival materials, their great importance in the study of the historical past, also architectural heritage of Azerbaijan. The documents of the archive are important historical sources in the study of material culture of Azerbaijan during the Late Middle ages. For the first time various written documents such as the archival sources for the late Middle ages have been investigated as the important springs in study of historic-cultural and architectural heritage of Ganja Khanate.*

**Açar sözlər:** Azərbaycan, Gəncə şəhəri, orta əsrlər, arxiv, tarix.
**Ключевые слова:** Азербайджан, город Гянджа, средние века, архив, история.

**Key words:** Azerbaijan, Ganja city, Middle Ages, archive, history.

Ganja city, which has favorable geographical conditions, means that it has relations with both Baku, Tbilisi, Yerevan, Nakhchivan, Shusha, Shamakhi and other cities of the Caucasus, as well as the great trade centers of the East such as Tabriz and Istanbul. allowed it to be established. During the rule of Javad Khan (1786-1804), economic life in Ganja was highly revitalized, especially trade and agriculture reached the high level of development of their period.

Ganja, the capital of the khanate, played an important role in the economy of the whole country. According to the position Ganja held, it was very convenient for trade. Its covered and open markets were perceived as one of the richest markets in the East. Both domestic and foreign trade was carried out here. Ganja experienced the brightest days of its history during the rule of Javad Khan. Thanks to Javad Khan, Ganja became one of the largest and most developed khanates of its time, not only in the Caucasus but also in the East. When Georgia came under the protection of the Russian state, there was a disagreement between General Georgi and Javad Khan. The army came to Ganja under the leadership of Lazerev. Javad Khan stated that he wants to keep friendship with both the Russians and the Georgians, on one condition that the Russian army should leave Shemshaddil. General P.Sisianov, who was appointed commander of the Russian troops in the Caucasus, and who carried out the colonial policy of Czarism to his force here, paid special attention to the invasion of Ganja. Therefore, he did not accept Javad Khan's offer.

The first battle took place in the Kurukobu region of Ganja. Javad Khan showed serious resistance to the enemy. But the enemy began to press him. Javad Khan withdrew to the fortress of Ganja. On the morning of January 3, 1804, Sisianov started to pour fire on the castle from all sides. General Portnyakin, who attacked from the side of the Karabakh gate, was in command of the army. Javad Khan's basic forces gathered here were able to defeat Portnyakin's attack twice, but the Russians were able to enter the city in the third attack. The other part of the enemy was attacking from the Tbilisi gates district. After they took hold of the main tower, the battle escalated even more.

The people of Ganja were resisting against the Russian army, they were raining bullets, stones and arrows on the Russians like hail. During the attack, 500 of Javad Khan's warriors were killed and 500 captured. Javad Khan and his son Hüseyinkulu Agha were also killed by the Russians on the battlefield. The city was occupied by the Tsar's troops. The occupation of Ganja was of great importance for Tsarist Russia. Fate of other khanates of Azerbaijan was resolved and the way to Southern Azerbaijan was opened. A medal dedicated to this victory was allocated. Khanate of Ganja fell apart and ceased to be a khanate. By the way, the documents of the archive are important historical sources in the study of material culture of Azerbaijan during this period. For the first time various written documents such as the archival sources for the late Middle ages have been investigated as the important springs in study of historic-cultural and architectural heritage of Ganja city. The official military documents contain detailed historical information about the economy, culture, demography and political history of the city of Ganja and the Khanate. The materials in the funds of different archives, together with other sources of the researched period, allow to objectively illuminating the study of the history, also cultural heritage of the Ganja Khanate and this ancient city.

## *References*

1. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi (AMEA RHEİMA).
2. Babazade E.T. From the history of Ganja khanate. Baku: MSA, 2012. 256 p. (In Russ.).

3. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə: Elm. 2007.
4. Həsənov E.L. Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat). 1-ci nəşr. Bakı: Elm və təhsil, 20212. 268 s.
5. Hasanov E.L. (2018) Applied significance of investigation of handicrafts branches in Ganja city based on innovative technologies (Historical-ethnographic research). Prague: Vĕdecko vydavatelské centrum «Sociosféra-CZ» (Czech Republic), 2018, 110 p. ISBN 978-80-7526-323-0
6. To the highly-born and most excellent Mr. Lieutenant General, Actual Kemerger and Knight of Flattering Orders, Pavel Sergeevich Potomkin, report. Received on July 28, 1783 // RSMHA, collection 52, op. 1, d. 286, part 1, l. 212. (In Russ.).
7. Report of General, Count Valerian Zubov to His Excellency the Commander of the Troops in Crimea and the Southern Provinces and the Fleets on the Black and Caspian Seas, General and Knight Prince Grigory Alexandrovich Potemkin // RSMHA, collection 41, op. 200, d. 628, l. 1. (In Russ.).
8. Note submitted by the envoy of Derbent Fath-Ali Khan, Aji Yuzbashi Bek. // RSMHA, f. 52, op. 1, d. 286, part I, l. 32. (In Russ.).
9. Mustafazada T.T. Azerbaijan-Russian relations during the second half of XVIII–early XIX centuries. Baku: "Sharg-Garb", 2013. 528 p. (In Azerb.).
10. Mustafazada T.T. International political relations of Azerbaijan during XVIII-early of XXI centuries (historical essays). Baku: "Avrora", 2013. 544 p. (In Azerb.).
11. Mamedova G. About V. Zubov's campaign in Azerbaijan in 1796. Baku, 2003. 94 p. (In Russ.).
12. Letter from Tsar Irakli to the general and cavalier Prince Grigory Alexandrovich Potemkin // RGSVIA, collection 52, op. 1, d. 331, part 6, l. 17. (In Russ.).
13. Letter sent to His Serene Highness King Irakli on November 11, 1783 // RSMHA, collection 52, op. 1, d. 286, p. 49-51. (In Russ.).
14. Letter from Tsar Irakli to General and Cavalier Prince Grigory Alexandrovich Potemkin // RSMHA, f. 52, op. 1, d. 286, part 1, l. 34, d. 366, part GU, l. 155, l. 251-252. (In Russ.).
15. Order from Empress Catherine II to General and Count Valerian Zubov // RSMHA, collection 41, op. 200, d. 614a, l. 331-332. (In Russ.).
16. Plans and descriptions of cities, fortresses, villages and other populated areas of the former Russian Empire // RSMHA, f. 349, op. 3, d. 3329, d. 3334, d. 3338, d. 3339, d. 3345. (In Russ.).
17. Plan of the Ganja fortress // RSMHA, f. 1105, op. 80, l. 1-2, 14-15. (In Russ.).
18. Plan of the Ganja fortress // RSMHA, f. 349, op. 12, d. 6055, l. 78-83. (In Russ.).
19. Russia and the Azerbaijani Khanates in the Second Half of the 18th-19th Centuries (Collection of Documents). Vol. 1 (1751-1775). Compiled by T.T.Mustafazada. Baku: Turkhan Publishing house, 2018. 337 p. (In Russ.).
20. Salamzada A. Architecture of Azerbaijan in XVI-XIX c. Baku: publishing of Azerbaijan SSR Academy of Sciences, 1964. 253 p. (In Russ.).

## ARXİV MƏNBƏLƏRİ ƏSASINDA GƏNCƏ XANLIĞI TARİXİNİN TƏDQİQİ

***Həsənov Elnur Lətif oğlu***
***AMEA Gəncə Bölməsi***

***Xülasə***

Elmi işin əsas məqsədi arxiv materiallarını, tarixi keçmişinin, eləcə də Azərbaycanın memarlıq irsinin öyrənilməsində əhəmiyyətini öyrənməkdir. Arxiv sənədləri son orta əsrlərdə Azərbaycanın maddi mədəniyyətinin öyrənilməsində mühüm tarixi mənbələrdir. Gəncə

şəhərinin tarixi-mədəni və memarlıq irsinin öyrənilməsində mühüm mənbələr kimi ilk dəfə olaraq son orta əsrlərə aid arxiv mənbələri kimi müxtəlif yazılı sənədlər tədqiq edilmişdir. Arxivlərdə Azərbaycan şəhərlərinin qala divarları, sarayları, karvansarayları, hamamları, evləri, körpüləri və digər tikililəri haqqında məlumatlar var. Arxivlərdə Gəncə xanlığının tarixinə dair çoxsaylı sənədlər tədqiqata cəlb edilmişdir..

## ИССЛЕДОВАНИЕ ИСТОРИИ ГЯНДЖИНСКОГО ХАНСТВА НА ОСНОВЕ АРХИВНЫХ МАТЕРИАЛОВ

***Гасанов Эльнур Лятиф оглу***
***Гянджинское Отделение НАНА***

***Резюме***

Основной целью научной работы является исследование архивных материалов, их большого значения в изучении исторического прошлого, а также архитектурного наследия Азербайджана. Документы архива являются важными историческими источниками в изучении материальной культуры Азербайджана в период позднего средневековья. Впервые различные письменные документы, такие как архивные источники по позднему средневековью, были исследованы как важные источники в изучении историко-культурного и архитектурного наследия города Гянджа. В архивах сохранены сведения о крепостных стенах, дворцах, караван-сараях, банях, домах, мостах и других зданиях азербайджанских городов. В архивах также имеются много документов об истории Гянджинского ханства.

## XIX ƏSRİN I YARSINDA ÇAR RUSİYASININ CƏNUBİ QAFQAZDA MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNƏ DAİR

***Əsgərova Xəyalə İsrayıl***
***Gəncə Dövlət Universiteti***
***xayala.askerova@mail.ru***

**Xülasə:** *XIX əsrin 20-ci illərinin sonu-30-cu illərin əvvəllərində Azərbaycanda və ümmilikdə Cənub Qafqazda çar Rusiyasının müstəmləkə siyasətində yeni mərhələ başladı. Komendat sisteminin ləğvi və yeni idarəetmə formasının tətbiqi inzibati və məhkəmə orqanlarının təşkilati nizamsıslığının aradan qldırılması zərurəti ilə şərtlənirdi.Lakin aparıln dəyişikliklər istismar olunan əhali kütlələrini tabeçilikdə saxlamq və müstəmləkəçilik siyasıtini müvəffəqiyyətlə yerinə yetirmək üçün ən əlverişli şərait yaratmalı idi.*

**Açar sözlər**: Azəryacan,Rusiya,Qafqaz,komendat, müstəmləkəçilik
**Key words:** Azerbaijan, Russia, Caucasus, commandant, colonialism

XIX əsrin 20-ci illərinin sonu-30-cu illərin əvvəllərində Azərbaycanda və ümmilikdə Cənub Qafqazda çar Rusiyasının müstəmləkə siyasətində yeni mərhələ başladı. Bu, Rusiyada kapitalist münasibətlərin inkişafı ilə bağlı idi. Artıq 1830-1850-ci illərdə çar Rusiyası milli kənar bölgələrin iqtisadi cəhətdən mənimsənilməsi istiqamətində ilk addımlarını atırdı.1827-ci ildə maliyyə naziri qraf Yevqraf Kankrin Qafqaz administrasiyasının da dəstəklədiyi bir layihə irəli sürdü. Bu layihədə Cənubi Qafqazın "Rusiyanın yeni şərq Hindistanı"na çevrilməsi təklif edilirdi. Bu layihədən əhəmiyyətli dərəcədə fərqlənən başqa bir iqtisadi islaht layihəsi isə 1828-ci ilin sentyabrında Tiflisdə A.S.Qriboyedov və Gürcüstan Ali hökumətinin dövlət ekspedisiyasının rəhbəri P.D.Zavilryski tərəfindən təqdim olunmuşdur. Bu layihə regionun iqtisadi baxımından yenidın qurulmasını nəzərdə tuturdu. XIX əsrin 30-40-cı illərində Rusiya hökuməti və ticarət-sənaye dairələri Cənubi Qafqazın, xüsusilə də

Azərbaycanın iqtisadi mənimsənilməsi istiqamətində bir sıra praktiki addımlar atdı. Lakin həmin dövrdə Cənubi Qafqaızın ümumilikdə, Azərbaycanın isə xüsusilə iqtisadi cəhətdən mənimsənilməsi istiqamətində edilən bütün cəhdlər uğursuzluğa düçar oldu. Bu uğursuzluğun başlıca səbəbi Rusiyanın özündə kapitalist münasibətlərin zəif inkişaf etmiş olması idi. Bu cəhdlərin həyata keçirilməsi digər amillərə yanaşı, komendat idarəetmə sistemi tərəfindən də əngəllənirdi. Hətta çarizmin yüksək rütbəli məmurların da etiraf etdiyi kimi, bu sistem "dövlət gəlirləri üçün dağıdıcı" xarakter daşıyırdı.

Komendat idarərəetmə sistemi iqtisadi baxımdan çrizmin maraqlarına uyğun deyildi. Çünki bu idarəçilik forması şəraitində toplanan vergilərin və rüsumların mühüm hissəsi komendantlar, hərbi hissələrin komandirləri, Rusiya idarə aparatına bağlı olan torpaq sahibləri, vergi icarədarları və məmurlar arasında mənimsənilirdi. Komendant idrəçiliyinin ləğvi və onun yerinə imperiynın daxili quberniyalarındakı idarəetmə sisteminə yaxın və ya onunla oxşar yeni bir sistemin tətbiqi ciddi siyasi zərurətlə şərtlənirdi. Bu, hər şeydən əvvəl çarizmin Cənubi Qafqazda hakimiyyətini möhkəmləndirmək məqsədindən doğurdu.

Komendantlar və polis məmurları xalqı sistematik şəkildə sıxışdırır, şəxsi mənfəətləri naminə qanunsuz vergi və cərimələr toplayır, əhalini fiziki cəzalara məruz qoyurdular.(1,103) Komendat idarəetmə sistemi özünü nüfuzdan salmışdı. Avtokratik imperiyanın kolonial siyasətini daha da ağırlaşdıran və məhz həmin siyasətin məhsulu olan komendatlığın özbaşnlığı və sui-istifadələri, bəy və ağaların torpaq sahibləri kimi kəndlilərə qarşı sərt istismarı ilə birləşərək, XIX əsrin 30-cu illərində Azərbycan kəndliləri arasında anti-kolonial və anti-feodal çıxışların güclənməsinə səbəb olmuşdur. Bu çıxışlar icərsindı ən irimiqyaslı və kütləvi olanı 1837-ci ildə Quba əyalətində baş vermiş kəndli üsyanı idi. Bu üsyan, Rusiyanın milli ucqarlardakı xalqlarının kolonial zülmə qarşı silahlı etirazının ifadəsi olmuşdur.Quba üsyanı zamanı Qafqazda olan bron Qan, 8 oktyabr 1837-ci il tarixində imperator I Nikolaya ünvalandığı məlumat məktubunda belə yazırdı: "Qubadakı narahatlıqların səbəbi hərbi idarəçilikdir-bu idarəçilik xalq üçün həm çox ağır, həm də zəifdir; bu narahatlıqlar, bəlkə də, sadə yerli narazılıqlardan daha dərin səbəbləri gizlədir."

Komendat sisteminin ləğvi və yeni idarəetmə formasının tətbiqi inzibati və məhkəmə orqanlarının təşkilati nizamsıslığının aradan qldırılması zərurəti ilə şərtlənirdi. Həmin sistemdə müxtəlif növ müvəqqəti idarələr mövcud idi, bunların isə hakimiyyət nümayəndələrinin özbaşına və hesabat vermədən hərəkət etməsinə şərait yradırırdı, bəzən bu hərəkətlər imperiyanın öz maraqlarına da zərər vururdu. Bütün bu səbəblərə görə, imperiya hakim dairələrinin bir çox nümayəndləri-həm Peterburuqda, həm də Qafqazda-inzibati və məhkəmə islahatlarının dərhal həyata keçirilməsini zəruri hesab edirdilər, çünki onların fikirincə, bu islahatın təxirə salınması "zərərli və təhlükəlidir".

1840-cı il aprelin 2-də I Nikolay, Qolovin və Qan tərəfindən hazırlanmış və onların qarşılıqlı münasibətlərini-yəni Zqafqaziyada yeni idarəçilik sisteminin tətbiqi zamanı birgə fəaliyyət qaydalarını müəyyən edən təklifləri təsdiqləndi. Bu baş idarəçi ilə senatorlar arasında bütün hərəkətlərin tam şəkildə uzlaşdırılmasını nəzərdə tuturdu.

Bunun ardınca Qolvin və Qan Qafqaza yaola düşdülər və islahat işinə başladılar: Qan, hər zamankı bacarığı və hiyləgərliyi ilə, Qolovin isə ehtiyatlıq və tərəddüdlə bu işə girişdi.Onlar islahatların gedişi ilə bağlı Zqafqaziya vilayətinin quruluşu üzrə komitəyə mütəmadı hesabatlar təqdim edir, Zaqafqaziyada mülki idarə etmənin çevik şəkildə yenidən qurulması barədə özlərini tərifləyən tonda məlumat verirdilər.1841-ci il yanvarın 1-nə qədər islahat bütün bölgədə həyta keşirilmişdir.1840-cı il dekabrın 26-da Qolovin tərəfindən Gürcüstan-İmeretiya quberniyasında Dövlət Əmlak Palatası və 1840-cı il dekabrın 25-də Qan tərəfindən Xəzər vilayətində vilayət idarəsi, cəza və mülki məhkəmə palataları, həmçinin dövlət əmlakı idarəsi açıldı.(2)

“Zaqafqaziya vilayətinin idarə olunması haqqında Əsasnamə” yeni inzibati-ərazi quruluş sistemini tətbiq etdi. Bu sistem üç pillədən ibarət idi: quberniya (vilayət), uyezd (qəza) və sahə( məntəqə)

Zaqafqaziya vilayəti (istisna təşkil edən bölgələr-Abxaziya, Meqreliya və Svanetiya hələ də öz keçmiş feodal hakimlərinin idarəsində qalırdı) iki əsas inzibati vahidə bölündü:

Gürcüstan –İmeretiya quberniyası (mərkəzi Tiflis olmaqla, 11 uyezddən ibarət) və Xəzər vilayəti (mərkəzi Şamaxı şəhəri olmaqla, 7 uyezddən ibarət)

Azərbaycan ərazisinin böyük hissəsi Xəzər vilayətinin tərkibinə daxil edildi. Bu vilayətdə aşağıdakı qəzalardan ibarət inzibati bölgü formalaşdırıldı: Şuşa qəzası (əvvəlki Qarabağ əyaləti), Nuxa qəzası(əvvəlki Şəki əyaləti), Lənkəran qəzası (əvvəlki Talış əyaləti), Bakı qəzası, Şamaxı qəzası ( əvvəlki Şirvan əyaləti və salyanlar), Dərbənd qəzsı ( əvvəlki Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri),Quba qəzası (əvvəlki Quba əyaləti və Samur dairəsi), Dərbənd və Quba qəzaları, Dağıstanla həmsərhəd olmaları və bu bölgələrin xalqlarının çar müstəmləkəçilərinə qarşı azadlıq uğrunda mübarizə aparması səbəbilə, xüsusi hərbi dairə kimi ayrılmışdı.

Bu inzibati-ərazi bölgüsündə Çar hakimiyyəti öz müstəmləkəçi-şovinist kursuna uyğun olaraq Azərbaycan, Gürcüstan və Ermənistanın etnik birliyini və ərazi bütövlüyünü bilərəkdən pozmuşdur.Çar höküməti, kolonial idarəçiliyin məşhur prinsipi olan “Parçala və hökm sür” siyasətinə sadiq qalaraq, bəzi azərbaycanlı torpqalarını Gürcüstan –İmeretiya qubeniyasının tərkibinə daxil etmişdi.Belə ki, bu qubeniyanın tərkibinə aşağıdakı Azərbaycan torpaqları daxil edilmişdir:Yelizavetpol qəzası( Qazax və Şəmşədil dairələri ilə birlikdə), Balakən qəzası (Car-Balakən bölgəsi və İlisu sultanlığından formalşdırılmış), Naxçıvan qəzası.

Qəzalar öz növbəsində (məntəqələrə) bölünürdü və bu sahələrin əksəriyyəti keçmiş mahal sərhədlərinə uyğun gəlirdi.Zaqafqaziyada ümumilikdə 72 sahə yaradılmışdı, bunlardan 32-si Azərbaycan ərazisində yerləşirdi.Yelizavetpol qəzası 4 sahəyə bölünürdü; Qazax sahəsi, Şəmşəddil sahəsi, Yelizavetpol sahəsi, Ayrım sahəsi. Şamaxı qəzası isə 6 sahəyə bölünmüşdü: 1.Bakinski qəzsı ( 6 sahə üzrə bölünüb), Barquşad sahəsi, Salyan sahəsi, Kabristan sahəsi, Lağic shəsi, Xançoban sahəsi, Qoşun sahəsi; 2.Şuşa qəzası da 6 sahə üzrə bölünüb; Miqrin,Kəbirli,Zəngəzur,Cavanşir, Çələbi, Vərəndə; Nuxa (indiki Şəki) qəzası ( 4 sahə üzrə) Nuxa, Qəbələ, Xaçmaz, Ərəş sahəsi; 3. Lənkəran qəzası ( 3 sahə) : Səbidac, Lənkəran, Ərkivan, Xəzri, Buduq sahəsi; 4.Naxçıvan qəzası (3 sahə üzrə): Naxçıvan, Ordubad, Dərələyaz sahəsi; 7.Balakən qəzası( 2 sahə üzrə) Balakən sahəsi, Yeniseyli sahəsi

Zaqafqaziya bölgəsinin ali idarəçiliyi baş idarəçi tərəfindən həyata keçirilirdi. Bu şəxs eyni zamanda Zaqafqaziyadakı qoşunların baş komandanı idi. Onun səlahiyyətlərinə hərbi, inzibati və sərhəd işlərinə birbaşa rəhbərlik edirdi. Birbaşa imperator tərəfindən təyin və vəzifəsindən azad olunurdu.Rusiya imperiyasının digər quberniyalarının general-qubernatorları ilə eyni hüquqlara malik idi. Bundan əlavə xüsusi səlahiyyətləri də var idi ; Quberniya idarələrinin qərarlarını, ümumi qanunlara əsaslansa belə, ləğv edə bilərdi. Öz fərman və qərarlarını icra etdirə bilərdi.(3)

Cənubi Qafqazda vətəndaş və sərhəd məsələlərinə rəhbərlik, həmçinun ayrı Qafqaz korpusuna komandanlıq birbaşa baş valininə əlində cəmlənmişdi.Cənubi Qafqaz diyarının uzaqlığı və xüsusi şəraiti nəzərə alınaraq baş vali ümumi qanunlara əsaslann quberniya qərarlarını ləğv etmək və öz göstərişlərini icra etdirmək hüququnq malik idi. Baş valinin hakimiyyəti yalnız quberniya idarəetmə orqnları ilə məhdudlaşmırdı-onun gömrük,təhsil, poçt və digər idarə orqanları üzərində də nəzarəti var idi.

Baş validən sonra ikinci əsas şəxs Tiflis hərbi qubernatoru idi. Tiflis quberniyası hələ mövcud olmasada, Tiflis hərbi qubernatoru, imperator tərəfindən birbaşa təyin və vəzifədən

azad edilirdi. Baş vali olmadığı zaman o, bütöv Cənubi Qafqaz vilayətinin idarəsini həyata keçirirdi.

Nəticəyə gəlib qeyd etmək istərdik ki,1838-ci il qanununa edilmiş mühüm düzəlişlər, görünür ki, qanunvericinin qəzdakı hakimiyyəti bütün dolğunluğu ilə bir vəzifəli şəxsin-qəza rəisinin əlində cəmləşdirmək istəyi ilə izah olunurdu. Belə vəziyyət istismar olunan əhali kütlələrini tabeçilikdə saxlamq və müstəmləkəçilik siyasıtini müvəffəqiyyətlə yerinə yetirmək üçün ən əlverişli şərait yaratmalı idi.(4,135)

***Ədəbiyyat***


1. А.Милман.Политический строй Азербайджана в XIX начале XX веков.Баку-1966
2. ЦГИА СССР,ф 1268,оп,1.д 119,II,лл 9-11 с об.
3. ПСЗ,СОБРАНИЕ 2-ое,т XV,ст.13368
4. Azərbaycan tarixi XIX əsr.Yeddi cilidđə IV cild.Bakı-2007



***Summary***

In the late 1920s and early 1930s, a new stage began in the colonial policy of Tsarist Russia in Azerbaijan and the South Caucasus as a whole. The abolition of the commandant system and the introduction of a new form of government were conditioned by the need to eliminate the organizational disorder of administrative and judicial bodies. However, the changes made were supposed to create the most favorable conditions for keeping the exploited population in subjection and successfully implementing the colonial policy.


## ADİ XİYAR (CUCUMIS SATIVUS) BİTKİSİNİN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTİ


***dosent Səfərova Fəridə Akif qızı, dosent İbrahimova Aynur Məsim qızı***
***Naxçıvan Dövlət Universiteti***
***seferova05@gmail.com***
***ORCIID ID: 0009-0006-3350-6093***
***Orcid İD:https//orcid.org/000-0001-5713-6740***



**Xülasə:** *Məqalədə, dünya florasında çiçəkli bitkilər içərisində mühüm yer tutan Balqabaqkimilər - Cucurbitaceae Juss. fəsiləsnin Adi xiyar (Cucumis sativus) bitkisinin bioloji xüsusiyyətləri və təsərrüfüfat əhəmiyyəti araşdırılmışdır. Aparılmış araşdırmalara əsasən, məlum olmuşdur ki, dünyada Balqabaqkimilər - Cucurbitaceae Juss. fəsiləsi 95 cinsə aid 965 növü əhatə edir. Naxçıvan Muxtar Respublikası florasında isə 8 cinsə aid 9 növü mədəni və yabanı florada yayılıb. Adi xiyar (Cucumis sativus) yeməli və ətli meyvələri olan Balqabaqkimilər - Cucurbitaceae Juss., fəsiləsinə aid bitki növüdür.*

*Xiyar bitkisi isti iqlimi sevir. İdeal böyümə temperaturu 20-30°C arasındadır. O, günəş işığını çox sevir və işıqlı mühitlərdə yaxşı inkişaf edir. Soyuq hava və donmaya dözüm göstərmir. Xiyar yaxşı drenajlı, zəngin üzvi maddələrə malik torpaqlarda yaxşı böyüyür. Torpağın pH dəyəri 6-6.5 arasında olmalıdır. Torpaqda yüksək nəmliyin olması vacibdir, amma torpaq heç vaxt su ilə dolmamalıdır, çünki köklərin çürüməsinə səbəb ola bilər. Bitkinin tərkibindəki bəzi bioloji aktiv maddələrə görə orqanlara təsir xüsusiyyətləri araşdırılmışdı. Tibbdə şəkər əleyhinə, ürək, mədə- bağırsaq, dəri və böyrək xəstəliklərində istifadə edilir.*



**Açar sözlər:** Balqabaqkimilər - Cucurbitaceae Juss., Cucumis L. – Xiyar, Adi xiyar (Cucumis sativus), Xiyar böcəyi (Aphis gossypii),

*Cucurbitaceae*, təxminən 125 cins və 960 növdən ibarət tərəvəz və meyvə bitkilərinin ən böyük ailəsidir. Balqabaqkimilər fəsiləsinin tərəvəzləri qədim tibb və kulinariya ənənələrinin bir hissəsidir. Hindistanda Ayurveda və xalq təbabətində müalicəvi əhəmiyyətinə görə qeyd olunur və təhlükəsiz və effektiv terapevtiklərin inkişafı üçün potensial mənbə hesab edilə bilər. Bu fəsilənin nümayəndələri morfoloji, sitoloji və flora xüsusiyyətlərinə görə iki əsas Cucurbitoideae və Zanonioideae kimi yarəmfəsilədə təsnif edilir.

Sistematik icmaldan məlum olur ki, Balqabaqkimilərin Naxçıvan Muxtar

Respublikasında isə 8 cinsə aid olan 9 növü yayılmışdır. Bu növlərdən 5 cinsə mənsub olan 6 növ Naxçıvan Muxtar Respublikasınında mədəni florada yayılmışdı. Həmin növlərin kimyəvi tərkibi, təbii ehtiyatı və tibbi əhəmiyəti araşdırılmışdır.

*Cucurbitaceae* Juss. - Balqabaqkimilər fəsiləsinin Naxçıvan MR florasında yayılma zonalarının xəritələrinin işlənilməsində Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Milli EA Botanika İnstitutunun, Azərbaycan Milli EA Naxçıvan bölməsinin Bioresurslar İnstitutunun herbari fondlarında saxlanılan və şəxsən toplanan herbari nümunələrinə və Флора Азербайджана. [8, s.1-8], Флора СССР [9, s.1-30], Флора Европейской части СССР [10, ТТ. 1- 11], cild əsərlərindən istifadə edilmiş, fenoloji müşahidələr E.M. Lavrenkonun və s. [6, s.68-74], İ. N. Beydemanın [4; 5] və İ.P. Lapinanın . [7], metodlarına əsaslanmışdır.

Növlərin dəqiqləşdirilməsində Черепанов С.К. Сосудистые растения России и сопредельных государств (в пределах бывшего СССР), [11. 12], T.H. Talıbov və Ə.Ş. İbrahimovun İbrahimov Ə.M. “Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri” [2], adlı kitab və məqalələrdən [13; 14] istifadə edilmişdir

Genus: Cucumis L. – Xiyar cinsinin Adi xiyar (Cucumis sativus) növü Cucurbitaceae fəsiləsinə aid olan bir illik bitkidir. Muxtar respublikada C*ucumis* L. – Xiyar cinsinin bir növü Adi xiyar *(Cucumis sativus*) bitkisi mədəni florada yayılıb. Adi xiyar bitkisi, dırmaşan və ya yayılan gövdəyə malikdir. Gövdə çox vaxt uzun və tüklüdür, və ya bəzən kiçik qolcuqlar verir. Yarpaqları böyük və ürək formasında olur. Bitki qısa müddət ərzində böyüyür, bəzi növləri bir neçə həftə içində meyvə verə bilər. Xiyar bitkisi həm dişi, həm də erkək çiçəkləri daşıyan bir bitkidir. Çiçəkləri sarı rəngdədir və dişi çiçəkləri meyvə vermək potensialına malikdir. Dişi çiçəkləri adətən erkən inkişaf edir və meyvə yaratmır. Çiçəklər polenlərlə digər bitkilər tərəfindən tozlanır. Xiyarın meyvələri uzun, silindrik və yaşıl rəngdə olur, lakin bəzi növlərində ağ və sarı rənglər də mövcuddur. Meyvələr şirəli və xırtıldayan olur. Xiyarın içində çox sayda kiçik toxumlar yerləşir.

Xiyar bitkisi isti iqlimi sevir. İdeal böyümə temperaturu 20-30°C arasındadır. O, günəş işığını çox sevir və işıqlı mühitlərdə yaxşı inkişaf edir. Soyuq hava və donmaya dözüm göstərmir. Xiyar yaxşı drenajlı, zəngin üzvi maddələrə malik torpaqlarda yaxşı böyüyür. Torpağın pH dəyəri 6-6.5 arasında olmalıdır. Torpaqda yüksək nəmliyin olması vacibdir, amma torpaq heç vaxt su ilə dolmamalıdır, çünki köklərin çürüməsinə səbəb ola bilər. Xiyar suya çox ehtiyacı olan bir bitkidir. Torpaq nəmli saxlanmalıdır, amma aşırı suvarmadan çəkinmək lazımdır. Suvarma bitkinin inkişafına və meyvə verməsinə müsbət təsir edir.

Xiyar bitkisi, vegetativ inkişaf dövründə, yəni gövdə və yarpaq inkişafı dövründə sürətlə böyüyür. Bu dövr 2-4 həftə arasında davam edir. Xiyar bitkisi həm dişi, həm də erkək çiçəkləri ilə tozlanma yolu ilə çoxalır. Erkək çiçəkləri erkən açılır və polen verir, dişi çiçəkləri isə yalnız tozlandıqdan sonra meyvə verir. Tozlanma, böcəklər və ya külək vasitəsilə baş verir. Tozlanma və mayalanma nəticəsində dişi çiçəkləri meyvəyə çevrilir. Bu prosesdən sonra xiyar meyvəsi inkişaf etməyə başlayır və bir neçə həftə ərzində tam yetişir. Yetişmə müddəti təxminən 40-50 gün arasındadır.

Adi xiyarın bir çox növü və çeşidi vardır. Onlar müxtəlif meyvə ölçüləri, formaları və rəngləri ilə fərqlənə bilər. Məsələn, bəzi növlər kiçik və mini xiyarlar verir, bəziləri isə böyük,

uzun meyvələrə sahibdir. Həmçinin, qabığı incə və ya qalın, yüngül tüklü və ya tüksüz ola bilər. Müxtəlif cinslər arasında hibridlər də yaradılır. Hibridlər xüsusilə yüksək məhsuldarlıq, xəstəliklərə qarşı dözümlülük və daha yaxşı məhsul keyfiyyəti təmin etmək üçün yetişdirilir.

Aşağıda adi xiyarın bioloji xüsusiyyətləri ətraflı şəkildə izah olunmuşdur: Xiyar (Cucumis sativus), Cucurbitaceae ailəsinə aid, geniş şəkildə yetişdirilən və həm təzə, həm də turşu kimi istehlak edilən bir tərəvəz bitkisidir. Xiyar bitkisi haqqında məlumatları aşağıda cədvəl şəklində təqdim edirəm:

***Adi xiyarın bioloji xüsusiyyətləri***

**Cədvəl 1.**

| Xüsusiyyət | Təsvir |
|---|---|
| Elm adı | Cucumis sativus |
| Ailə | Cucurbitaceae |
| Çeşidlər | Beyaz, qara, yaşıl, turşu, uzun və qısa xiyarlara aid növlər. |
| Təsnifat | Birillik, geniş yayılan bitki. |
| Böyümə şəraiti | İsti iqlim və yaxşı işıqlı sahələr. İstiliyi sevir. |
| Yetişmə müddəti | 50-70 gün, çeşidinə görə dəyişə bilər. |
| Torpaq tələbləri | Yüngül, qurulu və yaxşı drenajlı torpaqlar. |
| İqlim | İsti, nəmli iqlimlərə uyğun, 15-25°C arasında optimal temperatur. |
| İstifadə sahələri | Təzə yeyilmə, turşu hazırlama, şirə, konservasiya. |
| Vitaminlər və minerallar | C vitamini, A vitamini, kalsium, dəmir, maqnezium. |
| Meyvə xüsusiyyətləri | Uzun, yaşıl, əzələli və sulu meyvələr. Rəngi açıq yaşıl və ya tünd yaşıl ola bilər. |
| Məhsul verimi | Hektara 20-30 ton, çeşid və yetişmə şəraitinə görə dəyişir. |
| Xüsusiyyətlər | Yüksək su tərkibli (95% su) və kalorisi azdır. |
| Böyümə xüsusiyyətləri | Hamar və sürətlə böyüyən sarmaşık bitkisi. |

Xiyarın toxumları, 1-3 mm uzunluğunda və kiçikdir. Xiyar meyvəsinin içində yerləşir və toxumlar 2-3 ay ərzində tam yetişir. Toxumlar yaxşı saxlanıldığı təqdirdə uzun müddət dözümlü ola bilər. Xiyar bitkisi cinsi çoxalma yolu ilə çoxalır. Toxumları torpağa əkərək yeni bitkilər yetişdirmək mümkündür. Adətən, xiyarın əkin dövrü yazın əvvəlinə təsadüf edir və nəticədə yay mövsümündə məhsul əldə edilir. Xiyar bitkisi fotosintez prosesi ilə böyüyür. O, günəş işığını, suyu və karbon dioksidi istifadə edərək öz qida maddələrini istehsal edir. Fotosintez nəticəsində yarpaqlar üzərində enerji toplanır və bu enerji bitkinin böyüməsini və inkişafını təmin edir. Xiyar bitkisi suyu çox miqdarda itirir, buna görə də davamlı suvarma tələb edir. Bu, bitkinin su balansını qorumaq və böyümək üçün əhəmiyyətlidir.

Xiyar bitkisi müxtəlif xəstəliklərə qarşı həssasdır, məsələn, cəlib və tozlu çürük kimi göbələk xəstəlikləri. Bu xəstəliklər bitkinin meyvələrinin və yarpaqlarının zədələnməsinə səbəb olur. Xiyar bitkisini çox vaxt zərərvericilər, o cümlədən xiyar böcəyi (Aphis gossypii) və şlaklar təsir edir. Bu zərərvericilər bitkinin yarpaqlarını yeyir və fotosintez prosesini pozur.

Adi xiyar, sürətlə böyüyən, isti iqlimləri sevən və yaxşı suvarma tələb edən bir bitkidir. Onun bioloji xüsusiyyətləri, müxtəlif iqlim şəraitində yetişdirilməsinə imkan verən çox yönlülüyünü göstərir. Meyvələri çox şirəli və təravətli olur, eyni zamanda qida dəyəri və

sağlamlıq faydaları ilə məşhurdur. Xiyar bitkisi həmçinin müxtəlif növ və çeşidlərə malikdir, bu da onu həm becərilmək, həm də istifadə baxımından çox faydalı edir.

Adı xiyarın insan orqanizminə bir çox faydası var. Bu tərəvəz, aşağı kalorili və zəngin qida maddələri ilə dolu olduğu üçün sağlamlıq üçün çox faydalıdır. Əsas təsirləri aşağıdakılardır:

1. Bədənə nəmləndirmə təmin edir

Xiyarın 95%-dən çoxu sudan ibarətdir, bu da orqanizmin maye balansını qorumağa kömək edir. Nəmləndirmə enerji səviyyəsini artırır və bədənin funksiyalarını yaxşılaşdırır.

2. Dəri sağlamlığı

Xiyarın antioksidant və C vitamini tərkibi dəriyə parlaqlıq verir. Dərini nəmləndirmək və iltihabı azaltmaq üçün təbii vasitə kimi istifadə edilir. Göz altındakı şişkinliyi və qaralmaları azaltmaq üçün də faydalıdır.

3. Həzm sisteminə təsiri

Tərkibindəki pəhriz lifləri həzmi asanlaşdırır və bağırsaq funksiyalarını yaxşılaşdırır.

Qəbizlik problemini yüngülləşdirir.

4. Toksinlərin atılması

Xiyar bədəni toksinlərdən təmizləyir və sidikqovucu təsir göstərir. Bu, böyrəklərin sağlam işləməsinə dəstək ola bilər.

5. Arıqlama prosesinə kömək edir

Aşağı kalorili olduğu üçün arıqlamaq istəyənlər üçün ideal bir qidadır. Həm də uzun müddət toxluq hissi yarada bilər.

6. Ürək-damar sağlamlığı

Xiyar kalium baxımından zəngindir, bu da qan təzyiqini tənzimləməyə kömək edir.

Xolesterolu azaldaraq ürək xəstəlikləri riskini azalda bilər.

7. Antioksidant xüsusiyyətləri

Xiyar flavonoidlər, karotenoidlər və digər antioksidantlarla zəngindir. Bu maddələr hüceyrələri sərbəst radikalların zərərindən qoruyur.

8. Sümük sağlamlığı

Xiyarın tərkibindəki K vitamini və silisium sümük sağlamlığı üçün vacibdir.

9. Şəkər xəstələri üçün faydaları



**Şəkil 1. Adi xiyar - Cucumis sativus**

Xiyar qanda şəkərin səviyyəsini tənzimləyə bilər və insulin müqavimətini azalda bilər. İstifadə və diqqət edilməli məqamlar. Çiy yemək daha faydalıdır, çünki bişirmə prosesi bəzi qida maddələrini məhv edə bilər. Pesticidlərdən təmizlənməsi üçün yaxşıca yuyulmalıdır. Həddindən artıq istifadə bəzi insanlarda həzm problemlərinə səbəb ola bilər. Xiyarın sağlam qidalanmada mütləq yer alması tövsiyə edilir, lakin balanslı miqdarda istifadə olunmalıdır.

***Ədəbiyyat***

1. Talıbov T.H., Səfərova F.A., Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyinin taksonomik spektri. Naxçıvan Dövlət Universitetinin elmi əsərləri. Qeyrət, Naxçıvan, 2009, №(26), s. 3-13
2. Talıbov T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri. Naxçıvan: Əcəmi NPB, 2021, 426 s.
3. Həsənov S.R., Tərəvəz və bostan bitkilərinin genetik ehtiyatlarının qiymətləndirilməsində istifadə olunan müasir molekulyar-bioloji metodlar. AMEA Genetik Ehtiyatlar İnstitutunun əsərləri, I cild. Bakı, 2009, s. 364-370
4. Бейдеман И.Н. Методика фенологический наблюдений при геобо¬та-нических исследованиях. М.-Л.: АН СССР, 1954, с 128.
5. Бейдеман И.Н. Методика изучения фенологии растений и растительных сообшеств. Новосибирск: Наука, 1979, 155 с.
6. Лавренко Е.М. К методике изучения подземных частей фитоценозов // Бот. ж., 1947, т. 32, № 6, с. 68- 74
7. Лапина П.И. Методика фенологических наблюдении в ботанических садах СССР. М.: 1975, 27 с.
8. Флора Азербайджана. Баку:Из-во АН Азерб. ССР,1950-1961,ТТ.1- 8
9. Флора СССР. Ленинград: Из-во АН СССР, 1934-1964, Т.1- 30
10. Флора Европейской части СССР / Под ред. Федерова А.А., Ленинград: Наука, 1974-2004, ТТ. 1- 11
11. Черепанов С.К. Сосудистые растения СССР.Л. Наука, 1981, 509 с.
12. Черепанов С.К. Сосудистые растения России и сопредельных государств(в пределах бывшего СССР). С.- Петербург: Мир и семья- 95, 1995, 992 с.
13. Hamid, S. et al. 1995. Medicinal plants of family Cucurbitaceae of Pakistan (part II). Hamdard
14. Decker, D. S. Origin(s), evolution, and systematics of *Cucurbita pepo* (Cucurbitaceae). Ciência Rural, Santa Maria, v.32, n.5, p.715-723, 2002

## TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN DİLİNƏ DAXİL OLAN YENİ SÖZLƏR

***Hüseynova Günay Şəmistan qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Məqalədə dilimizin lüğət tərkibinə təhsil sahəsində işlənən yeni sözlərin daxilolma yolları həmçinin dilimizin daxili qanunauyğunluqlarına uyğun şəkildə formalaşaraq işlədilməsindən danışılır. Bəzi sözlərin fonetik,leksik və morfoloji yolla dəyişərək dilimizə yeni formada daxil olması məqalədə göstərilmişdir. Təhsil sistemində istifadə olunan yeni sözlərin yaranma səbəbi, hansı dillərdən daha çox keçməsi məqalədə öz əksini tapmışdır.*

**Açar sözlər:** dil, cəmiyyət, təhsil, yenilik, inkişaf
**Keywords:** language, society, education, innovation, development

Dil, cəmiyyətin inkişafına paralel olaraq daim dəyişir və yenilənir. Xüsusilə təhsil sahəsində bu dəyişiklik daha da sürətlidir. Qloballaşma, texnoloji tərəqqi və beynəlxalq təhsil proqramlarının genişlənməsi ilə Azərbaycan dilinə bir sıra yeni sözlər və terminlər daxil olmuşdur. Bu neologizmlər əsasən xarici mənşəli olub, müxtəlif səviyyələrdə – ali, orta və ibtidai təhsil sahəsində işlədilir. Məqalədə bu tip sözlərin mənbəyi, tətbiq sahələri və dilə təsiri araşdırılacaqdır.

Yeni sözlərin mənbəyi və yaranma səbəbləri - müasir dövrdə Azərbaycan təhsil sistemində istifadə olunan bir çox söz və ifadə ya yeni yaranmışdır, ya da digər dillərdən, xüsusilə ingilis və rus dillərindən alınmışdır. Bu sözlərin dilə daxil olmasının əsas səbəbləri aşağıdakılardır:

- **Beynəlxalq təhsil layihələri və proqramları** – "Erasmus+", "Mevlana", "TEMPUS" kimi proqramlarla birlikdə *nostrifikasiya, akreditasiya, modul sistemi, kredit sistemi* kimi terminlər aktuallaşmışdır.
- **Texnoloji yeniliklər və rəqəmsal təhsil** – *onlayn dərs, distant təhsil, e-platforma, vebinar, zoom dərsi, LMS (Learning Management System)* kimi ifadələr COVID-19 pandemiyası dövründə geniş şəkildə yayılmış və dillə inteqrasiya olunmuşdur.
- **Pedaqoji və metodoloji yeniliklər** – *kommunikativ yanaşma, təlim nəticəsi, təlim strategiyası, dərslərin dizaynı, aktiv öyrənmə, fasilitator* kimi ifadələr yeni tədris modellərinin nəticəsi olaraq meydana çıxmışdır.[1]

Azərbaycan dilində təhsil sahəsinə daxil olan yeni sözlərin bir hissəsi **ingilis**, bir hissəsi isə hələ də **rus** mənşəlidir. Anglicizmlərin nüfuzu daha çox ali təhsildə və beynəlxalq layihələrdə özünü göstərir.

Məsələn:

- *Mentor, coach, trainer, portfolio, curriculum, credit system* kimi ifadələr ingilisdilli təhsil sistemindən mənimsənmişdir.
- *Nostrifikasiya, attestasiya, kvalifikasiya, komissiya, praktika* kimi sözlər isə əsasən rus dilindən daxil olmuş və uzun müddət təhsildə işlənmişdir.

Bu sözlər, müxtəlif dövrlərdə Azərbaycan dilində ya olduğu kimi işlənmiş, ya da fonetik və morfoloji cəhətdən uyğunlaşdırılaraq dilə inteqrasiya olunmuşdur. Məsələn, *portfolio* sözü bəzən “portfel” kimi də tərcümə olunur, lakin təhsil kontekstində orijinal formasında saxlanılır.

Yeni sözlər və terminlər təhsil sistemində bir neçə funksiyanı yerinə yetirir:

- **Təşkilati və inzibati funksiyalar** – *akreditasiya, sertifikasiya, monitorinq, keyfiyyət təminatı* kimi terminlər təhsil müəssisələrinin idarə olunmasında istifadə olunur.
- **Pedaqoji funksiya** – Müasir dərs prosesində müəllimlərin və tələbələrin münasibətlərində, *öyrənən yönümlü təhsil, kritik düşüncə, fəal təlim, təlimin qiymətləndirilməsi* kimi terminlər tətbiq edilir.
- **Texnoloji funksiya** – *virtual sinif, onlayn qiymətləndirmə, moodle sistemi, Google Classroom, Teams, edTech* kimi platforma adları və anlayışlar təhsil mühitində geniş tətbiq olunur.

Bu terminlər yalnız leksik baxımdan yox, həm də məzmun və konseptual baxımdan Azərbaycan təhsil sisteminə yeni düşüncə formaları gətirir.[2]

Xarici sözlərin dilə uyğunlaşdırılması prosesi fonetik və morfoloji baxımdan müxtəlif formalarda baş verir. Bəzi sözlər olduğu kimi saxlanılır (məsələn: *mentor, zoom, webinar*), bəziləri isə uyğunlaşdırılır: *akreditasiya* (lat. "accreditatio" → rusca “akkreditatsiya” → azərbaycanca "akreditasiya").[5]

Azərbaycan dilində **morfoloji uyğunlaşdırma** nəticəsində bəzi yeni sözlərə şəkilçi əlavə olunur:

- *Vebinarlaşdırmaq* – vebinar keçirmək

• *Modullaşdırma* – tədrisin modul formasında təşkili
• *Elektronlaşdırma* – prosesi rəqəmsallaşdırmaq

Bu prosesin məqsədi, yeni terminləri dil sisteminə daha rahat inteqrasiya etmək və istifadədə çətinlik yaratmamaqdır.

**Yeni sözlərin bəzilərini mənaları ilə birgə təqdim edirik:**
**KİBERCİNAYƏTKARLIQ** - kompüter sistemlərinin və şəbəkələrinin köməyi ilə, yaxud kompüter sistemlərinə və şəbəkələrinə qarşı həyata keçirilən istənilən cinayət əməlidir. Başqa sözlə, virtual mühitdə həyata keçirilən istənilən cinayət növünü "kibercinayət" adlandırmaq olar.
**KİDNEPPİNQ** – Uşaq oğurluğu. Ümumiyyətlə, adam oğurluğu da bu sözlə ifadə olunur.
**KİOSK** – interaktiv informasiyanın avtonom mərkəzi (multimedia sistemlərində).
**KLEYM** – 1) alıcının ona satılmış malın keyfiyyətinin pis olduğuna görə satıcıya tələbi; 2)iddia, reklamasiya.
**JAVA** – elektron hesablama maşınında (EHM-də) mövcud proqramlaşdırma dillərindən biri. Yeni, müasir dillərdən hesab olunur. Əksər kompüterlərdə işləyir. Bu dildə yazılan proqramların ölçüsü xeyli kiçik, lakin sürət aşağıdır. Odur ki, bu dildə yazılan proqramlar daha çox internetdə və mobil telefonlarda geniş yayılıb.
**JİM** – çıxış vəziyyətindən ayaq üstə, uzanaraq, çömbəlməklə bədənin hər hansı bir hissəsinin köməyi olmadan ştanqı sinəyə və ya çiyinlərə düz qollarla yuxarı qaldırma.
**JÜLEN** – fransız mətbəxinə aid olan yemək növü: pendirin altında bişirilmiş göbələklər. Həmçinin jülen toyuq ətindən və dəniz məhsullarından hazırlanır.
**KALKULYASİYA** – istehsal edilən məhsulun və ya xidmətin maya dəyərinin hesablanması; bu məqsədlə tələb olunan bütün xərclərin pul ilə ifadəsi.
**KAMBİO** – borc məktubu, veksel.
**KAMBİST** – veksel əməliyyatları və sikkə ticarəti ilə məşğul olan şəxs.
**KANTE** – Ağac şəkilli sintaktik təsvirdə tərəfləri birləşdirən xətlər.
**KARDİOCƏRRAHİYYƏ** - Ürək cərrahiyyəsi.[4]

Yeni sözlərin çoxluğu bəzən dilin saflığını təhdid etsə də, bu terminlərin elmi əsasla sistemləşdirilməsi və izahlı lüğətlərdə yer alması zəruridir. Azərbaycan Milli Elmlər Akademiyasının və Təhsil Nazirliyinin əməkdaşlığı ilə yeni terminoloji lüğətlərin hazırlanması bu istiqamətdə mühüm addımdır.

Bundan əlavə, *Azərbaycan dili və ədəbiyyatı* üzrə ixtisaslarda bu cür terminlərin mənşəyi, işlənmə forması və düzgün istifadəsi üzrə fənlərin tədrisi vacib hesab olunur.

Azərbaycan dilinin dinamik inkişafında təhsil sahəsinə daxil olan yeni sözlər mühüm rol oynayır. Bu terminlər cəmiyyətin elmə və təhsilə münasibətini ifadə etməklə yanaşı, dilin yenilənmə və zənginləşmə prosesinə də töhfə verir. Lakin bu sözlərin elmi əsaslarla sistemləşdirilməsi, fonetik uyğunlaşdırılması və düzgün istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Dilin zənginliyi onun daşıdığı yeni anlayışlarla ölçüldüyündən, təhsil terminologiyası bu baxımdan həm potensial, həm də məsuliyyətli bir sahədir

### *Ədəbiyyat*


1. ANL.az. Erasmus və beynəlxalq proqramlar çərçivəsində yeni terminlərin dili. (2010)
2. Azedu.az .Universitetdə Azərbaycan dilinin təmizliyinin qorunması müzakirəsi. (2021).
3. Dergipark.org.tr. Təhsil sistemində pedaqoji innovasiyalar və terminoloji yanaşmalar. (2024)
4. İsmayılova, R. Azərbaycan ali təhsil müəssisələrində kommunikativ yanaşma əsasında ingilis dilinin tədrisinin effektivliyi. Dergipark.org.tr. (2025).
5. Paşayev,T. Ədəbi dilin lüğət tərkibinin neologizmlər hesabına zənginləşməsi. Journal.ait.edu.az. (2024).

**NEW WORDS INTRODUCED INTO THE AZERBAIJANI LANGUAGE IN THE FIELD OF EDUCATION**

***Huseynova Gunay Shamistan***

***Summary***

The article discusses the ways in which new words used in the field of education enter the vocabulary of our language, as well as how they are formed and used in accordance with the internal laws of our language. The article shows that some words have changed phonetically, lexically and morphologically and entered our language in a new form. The reason for the emergence of new words used in the education system, and which languages they pass through most, are reflected in the article.

# PALMİTİN TURŞUNUN STATİK ELEKTRİK KEÇİRİCİLİYƏ MOLEKULYAR-FİZİKİ TƏSİRİ: QURULUŞU, XASSƏLƏRİ VƏ MATERİAL TƏTBİQLƏRİ

***Muradov Ülvi Səbuhi oğlu***
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***Fəlsəfə doktoru proqramı üzrə doktorant***
***muradovulvi9598@gmail.com***

**Xülasə:** *Məqalədə palmitin turşusunun ($CH_3(CH_2)_{14}COOH$) dielektrik sabitliyi, polarizasiya qabiliyyəti və statik elektrik yükünün davranışı izah edilir. Bundan sonra nanokompozit materiallarda (məsələn, palmitik turşu-CNT-epoksi sistemləri) elektrik keçiricilik və antistatik xassələrin optimallaşdırılmasından danışılır. Geniş tətbiq sahələri (kosmetika, elektronika, tekstil və s.) qiymətləndirilir. Gələcək tədqiqatlar üçün molekulyar modifikasiyalara əsaslanan istiqamətlər göstərilir.*

**Açar sözlər:** Palmitin turşusu,statik,elektrik,molekulyar, antistatik,nanokompozit
**Key words:** Palmitic acid,static,electric,molecular,antistatic,nanocomposite

## Əsas hissə

**Statik Elektrik nədir?**

Statik elektrik gündəlik həyatda tez-tez rast gəlinən və adətən sürtünmə nəticəsində səthlərdə toplanan elektrik yüküdür. İki fərqli material bir-biri ilə təmasda olduqda və sonra ayrıldıqda baş verir. Qış aylarında daha çox nəzərə çarpan və adətən metal səthlərə toxunduqda kiçik zərbələr kimi hiss edilən statik elektrik həm şəxsi narahatlığa səbəb ola bilər, həm də elektron cihazlar kimi həssas avadanlıqları zədələyə bilər.

**Necə əmələ gəlir və zərərləri nədir?**

Statik elektrik kimi də tanınan statik elektrik elektronların bir səthdən digərinə hərəkəti nəticəsində yaranır. Bu hərəkət müsbət və mənfi yüklər arasında balanssızlıq yaradır. Lakin insanların çoxu gündəlik həyatlarında statik elektrikin təsirlərini tez-tez hiss edirlər, lakin bunun nə olduğunu dəqiq bilmirlər

Cisimlər arasında əmələ gələn bu elektrik yükləri onlara toxunduqda kiçik bir zərbə və ya elektrik hissi yarada bilər. Bu səbəbdən statik elektrik xüsusilə quru hava şəraitində daha çox hiss olunur. Bundan əlavə, statik elektrikin yığılması bəzən ciddi problemlərə səbəb ola

bilər və buna görə də nəzarət altında saxlanılmalıdır. Bu balanssızlıq səthlər arasındakı enerji fərqindən qaynaqlanır və düzgün idarə edilmədikdə müxtəlif sahələrdə zədələnmələrə səbəb ola bilər. Nəticədə, statik elektrikin nə olduğunu başa düşmək bu cür problemlərlə daha effektiv mübarizə aparmağa kömək edə bilər.

**Statik elektrik necə yaranır**?

Statik elektrik yaratmaq prosesi müəyyən sadə addımlardan keçir. Materiallar arasında sürtünmə və təmas bu prosesin əsasını təşkil edir.

- Kontakt və Sürtünmə: İki fərqli material təmasda olduqda və bir-birinə sürtündükdə elektronlar bir səthdən digərinə keçir.
- Elektrik Narahatlığı: Bu hərəkət səthlər arasında elektrik balanssızlığı yaradır; bir səth müsbət, digəri isə mənfi yüklü olur.
- İzolyasiya materialları: Statik elektrik ümumiyyətlə izolyasiya materiallarında daha çox toplanır, çünki bu materiallar elektrik cərəyanını asanlıqla keçirmir.

**Statik Elektrikin Zərərləri**

Sənaye mühitlərində və elektrik sistemlərində statik elektrik yığılması ciddi təhlükəsizlik problemlərinə səbəb ola bilər. Statik elektrik həssas elektrik dövrələrinə təsir edə bilər, cihazlarda nasazlıqlara səbəb ola bilər və hətta yanğın təhlükəsi yarada bilər. Buna görə də elektrik sistemlərinin təhlükəsizliyi və səmərəliliyi üçün düzgün paylayıcı qurğuların istifadəsi böyük əhəmiyyət kəsb edir.

Kommutator materialları təkcə elektrik dövrələrinin açılmasına və bağlanmasına imkan vermir, həm də bu sxemləri statik elektrik kimi arzuolunmaz təsirlərdən qoruyur. Statik elektrik ciddi problemlərə, eləcə də kiçik narahatlıqlara səbəb ola bilər. Bu həm şəxsi sağlamlığınız, həm də elektron cihazlar üçün bəzi risklər yaradır.

Statik elektrik yükünün yığılması izolyatorlarda təhlükəyə və avadanlıqların zədələnməsinə səbəb ola bilir. Antistatik maddələr bu problemi aradan qaldırmaq üçün tətbiq olunur. Əlaqəli sahələrdə misal üçün tekstil, neft emalı, elektronikada qeyri-keçirici materiallara antistatik əlavələr olunması mühüm addım sayılır. Yağ turşuları, xüsusilə palmitin turşusu ($C_{16}H_{32}O_2$) **kimi** uzunzəncirli karbon turşuları, bu sahədə maraq doğuran bir tədqiqat obyekti kimi çıxış edir. Palmitin turşusu həm təbii mənşəli birləşmə, həm də qeyri-keçirici (izolyator) xüsusiyyətləri ilə tanınır. [1; 40-41]

**Palmitin turşusunun kimyəvi və fiziki xüsusiyyətləri. Statik elektrik keçiriciliyi və molekulyar səviyyədə təhlili.**

Palmitin turşusu, 16 karbonlu düz zəncirli, doyma dərəcəsi 100% olan karbon turşudur. Onun kimyəvi formulu $CH_3(CH_2)_{14}COOH$ şəklindədir. Molekulun əsas hissəsi qeyri-polar hidrokarbon zəncirdən ibarət olduğu üçün, palmitin turşusu ümumilikdə hidrofob (su ilə qarışmayan) və elektrik cəhətdən izolyator sayılır. Palmitin turşusu otaq temperaturunda bərk haldadır və çox zəif polarlaşdırıcı qabiliyyətə malikdir. Bu isə onun statik elektrik yükünü saxlaması və ya keçirməsi baxımından zəif potensiala malik olduğunu göstərir. Statik elektrik keçiriciliyi əsasən molekulun elektron strukturundan, polarlaşma qabiliyyətindən və elektrik dipol momentindən asılıdır. Keçirici maddələrdə sərbəst elektronlar mövcuddur və bu səbəbdən belə materiallar statik yükü ötürə bilir. Lakin palmitin turşusu bu baxımdan fərqlidir. Onun karbon zənciri elektron baxımından qeyri-aktivdir, yalnız molekulun sonunda olan –COOH qrupunda zəif polarlaşma mümkündür. Bu, onun statik elektrik yükünü keçirmək əvəzinə saxlama meylini artırır. Palmitin turşusunun səth enerjisi aşağıdır, bu isə elektrik sahəsinə qarşı zəif cavab verdiyini göstərir. Polarizasiya qabiliyyəti aşağıdır: yalnız – COOH qrupunda zəif dipol yaranır, hidrokarbon zəncirində sərbəst elektron yoxdur Onun dielektrik sabiti (~2.5-3.0) çox aşağı səviyyədədir, bu isə onu yaxşı bir izolyator edir. [ 2; 50-52]

**Eksperimental Yanaşmalar**

Palmitin turşusu ilə örtülmüş səthlər üzərində aparılmış eksperimentlər göstərir ki, bu turşu təbəqələri elektrik yüklərinin səth boyunca yayılmasını əngəlləyir. Aşağıdakı təcrübələr bu təsiri təsdiqləyir:

- **AGM (Atomik Güc Mikroskopiyası)** ilə aparılan ölçmələrdə palmitin təbəqələrinin səthində statik yük toplanması müşahidə olunub.
- **Elektrostatik yüklənmə testi** göstərmişdir ki, palmitinlə örtülmüş materiallarda elektrik boşalması (discharge) gecikir və zəif amplituda ilə baş verir.
- **İnfraqırmızı spektroskopiya (IR)** nəticələri turşunun –COOH qrupunun zəif ionlaşma qabiliyyətinə malik olduğunu və buna görə də keçirmə qabiliyyətinin aşağı olduğunu göstərmişdir.

Statik elektrik keçiriciliyini modelləşdirmək üçün aşağıdakı sadələşdirilmiş düsturdan istifadə olunur:

$$\sigma=\epsilon 0 \epsilon r \omega \tan\delta$$

- σ – elektrik keçiriciliyi
- $\varepsilon_0$ – boşluğun permittivliyi
- ε_r – dielektrik sabit
- ω – sahə tezliyi
- tan δ – dielektrik itkisi

Palmitin turşuda ε_r ≈2.3, tan δ isə çox kiçik olduğuna görə σ minimal olur, yəni izolyator kimi qalır.[3; 183-185]

**Tətbiqi Əhəmiyyəti və Perspektivlər**

Palmitin turşusunun statik elektrik keçiriciliyinə zəif təsiri, onu izolyator kimi müxtəlif sahələrdə istifadəyə yararlı edir. Xüsusilə:

1. Kosmetika və dərman sənayesi: Palmitin turşusu antistatik örtük funksiyası görür.
2. Elektronika: İzolyator və qoruyucu örtük kimi istifadə olunur.
3. Tekstil: Sintetik parçaların elektriklənməsinin qarşısını almaq üçün palmitin əsaslı örtüklər tətbiq edilir.

Eyni zamanda, nanomateriallar və bioelektronika sahəsində palmitin turşusunun modifikasiya edilmiş formalarının elektrik keçiriciliyinə təsiri ilə bağlı yeni tədqiqatlar aparılmaqdadır.[4; 1-2]

## Nəticə

Palmitin turşusu struktur baxımından qeyri-polardır və bu səbəbdən statik elektrik keçiriciliyi çox zəifdir. Bu xüsusiyyət onu izolyator kimi effektiv edir və müxtəlif sahələrdə tətbiqinə şərait yaradır. Müasir tədqiqatlar göstərir ki, palmitin turşusunun elektrik xassələri onun molekulyar quruluşu ilə sıx bağlıdır və bu istiqamətdə aparılan nanomiqyaslı eksperimentlər yeni texnoloji həllərə yol aça bilər.

## *Ədəbiyyat*

1. 'Elektron Texnikasının Materialleri və Nanotexnologiyanın Əsasları', Ə.Abdinov, V.Səfərov, Bakı-2010
2. 'Üzvi Kimyanın Praktikumu',S.Novruzov, Bakı-2015
3. 'Kimyanın Tədrisi Metodikası', Ə.T.Əzimov,Bakı-2019
4. 'Effect of Palmitic Acid on the Electrical Conductivity of Carbon Nanotubes–Epoxy Resin Composites', S.Barrau, P.Demont, Hal Open Science-2017.

## *Summary*

The article explains the behavior of Palmit Acid ($CH_3$ $(CH_2)$ $_{14}$cooh) dielectric stability, polarization and static electric charge. After that, in nanocomposite materials (for example, palmitic acid CNT epoxy systems) are discussed by optimization of electric conductivity and

antistatic properties. Extensive application areas (cosmetics, electronics, textiles, textiles, etc.) are evaluated. Molecular modifications are displayed for future studies.

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DİL MƏSƏLƏLƏRİ

***Səlmanova Səbinə Ceyhun qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Məqalədə Azərbaycan dilinə verilən dəyərin konstitusiyada da rəsmi şəkildə öz əksini tapmasından, həmçinin dilin inkişafı üçün lazımlı və yerində qərarların verilməsi məsələsi göstərilmişdir. Bu məqalədə Azərbaycan Respublikasının Konstitusiyasında dil məsələləri təhlil edilir, beynəlxalq təcrübə ilə müqayisə aparılır və dilin hüquqi statusu araşdırılır.*

**Açar sözlər:** konstitusiya, dil, dövlət, fərman,qanun
**Keywords:** constitution, language, state, decree, law

İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir.

**Heydər Əliyev**

Bu bir faktdır ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, qorunması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev şəxsən özü Azərbaycan dilinin qorunmasına və inkişafına xüsusi diqqət yetirmişdir. 2001-ci ilin iyunun 18-də böyük dahi şəxsiyyət "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynadı. Həmin fərmanda Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutulurdu. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı.

2001-ci il avqustun 9-da Azərbaycan Prezidenti yeni fərman — "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" mühüm bir sənəd imzaladı. Həmin fərmanda deyilir: "On ilə yaxın bir müddətdə latın qrafikası Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram:

Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilsin.

Dil bir xalqın mədəniyyətini, tarixini və milli kimliyini ifadə edən əsas vasitədir. Bu səbəbdən dövlətlərin hüquqi sənədlərində, xüsusilə konstitusiyalarda dil məsələlərinə geniş yer verilməsi təbiidir. Konstitusiyada dilin rəsmi statusunun təsbiti, onun istifadəsinin tənzimlənməsi və qorunması, həmçinin ana dilində təhsil hüququ, vətəndaşların fundamental hüquqları sırasında yer alır.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasının 21-ci maddəsinə əsasən:

*"Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir."*

Bu maddə dövlətin dili müəyyənləşdirməklə yanaşı, onun inkişafını da konstitusion öhdəlik səviyyəsinə qaldırır. Bu, yalnız rəsmi yazışmalarda deyil, həm də təhsil, media və mədəniyyət sahələrində dilin qorunmasına və yayılmasına şərait yaradır.

Azərbaycan dilinin dövlət dili kimi tanınması ilk dəfə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında qeyd olunmuşdur. Bu təşəbbüs o dövrdə ölkənin rəhbəri olmuş Heydər Əliyevin təşəbbüsü ilə reallaşmış və Azərbaycan dili tarixində mühüm bir dönüş nöqtəsi sayılmışdır. Müstəqillikdən sonra bu prinsip qorunub saxlanılmış, daha da möhkəmləndirilmişdir. [1]

Konstitusiyanın 45-ci maddəsində hər kəsin ana dilində danışmaq, təhsil almaq və mədəniyyətini qorumaq hüququ təsbit olunmuşdur:

*"Hər kəsin ana dilində danışmaq, təhsil almaq və mədəniyyətini inkişaf etdirmək hüququ vardır."*

Bu norma Azərbaycanda yaşayan etnik və dil azlıqlarının hüquqlarının qorunmasına da xidmət edir.

Azərbaycan Respublikasında dil məsələlərinə dair əsas qanunlardan biri "Dövlət dili haqqında" Qanundur. Bu qanun dövlət orqanlarında, təhsil müəssisələrində, media orqanlarında və ictimai sahələrdə Azərbaycan dilindən istifadəni tənzimləyir. Qanun dövlət dilinin orfoqrafiyası, leksik və qrammatik normalarına uyğun istifadəsini tələb edir.

Eyni zamanda, dövlət dili haqqında qanun dilin saflaşdırılması, texniki inkişafı və beynəlxalq səviyyədə təbliğini də hüquqi şəkildə dəstəkləyir.

Müəyyən hüquqşünaslar və dilçi alimlər Konstitusiyanın bəzi maddələrində dil baxımından texniki qüsurların olduğunu qeyd etmişlər. Məsələn, bəzi rəsmi mətnlərdə "məqsədilə" və "vasitəsilə" kimi ifadələrin orfoqrafik cəhətdən yanlış yazılması tənqid olunmuşdur. Bu, konstitusiyanın hüquqi qüvvəsinə təsir etməsə də, sənədin dil keyfiyyəti və nüfuzu baxımından diqqətə alınmalı məsələdir.

Azərbaycan Konstitusiyasında dil məsələləri kifayət qədər əhatəli şəkildə əks olunmuşdur. Dövlət dili olan Azərbaycan dilinin hüquqi statusu və inkişafı təmin edilmiş, ana dili hüquqları da təminat altına alınmışdır. Beynəlxalq təcrübə göstərir ki, çoxdilli cəmiyyətlərdə hüquqi mexanizmlərin dəqiqliyi və praktik tətbiqi mühüm əhəmiyyət daşıyır.

Dil və dil hüquqları bir dövlətin suverenliyinin, milli kimliyinin və identikliyinin əsas atributlarındandır. Konstitusiyada dil məsələlərinin təsbiti — hüquq, birlik və mədəniyyətin qorunmasına xidmət edən strateji bir addımdır.

Azərbaycan Konstitusiyasının 21-ci maddəsi dövlət dilinin Azərbaycan dili olduğunu və onun inkişafının təmin edilməli olduğunu təsbit edir [2]

Bu yanaşma, dil hüquqlarının şəxsi və ictimai sahələrdə geniş əhatəsini təmin edir.

"Novator.az" saytı Azərbaycan Konstitusiyasında orfoqrafiya normalarına uyğun olmayan ifadələr — məsələn, "məqsədi ilə" əvəzinə "məqsədilə", "vasitəsi ilə" əvəzinə "vasitəsilə" kimi yazılış səhvlərini qeyd etmişdir. [3]

Bu göstərici göstərir ki, hətta ali hüquqi sənəddə belə dil məsələlərinə diqqətin yüksək səviyyədə olması vacibdir.

Azərbaycan Konstitusiyası milli dilin dövlət dili kimi təsbit edilməsini və onun inkişafının təmin edilməsini əsaslı şəkildə təmin edir. Bu addım milli kimliyin hüquqi gücünü artırır.Konstitusiyada ana dilində təhsil və şəxsi dil hüquqlarının təsbit olunması ümummilli dəyərlərin qorunmasına xidmət edir.Qeyd olunan orfoqrafik səhvlər göstərir ki, hüquqi mətnin dili belə diqqət tələb edir; bu, həm hüquqi ardıcıl dəqiqlik, həm də simvolik dil hörməti baxımından vacibdir.

**Beynəlxalq müqayisə**: Bir çox ölkədə dil hüquqları müxtəlif formalarda ifadə edilir — rəsmi dil təsbiti, çoxdillilik, azlıq dilləri perspektivi. Azərbaycan da bu məsələlərdə regional və qlobal təsirlərə uyğun normativ baza təmin etmişdir.

**İctimai ritorika**: İnternet və sosial media mühitində dil hüquqları ilə bağlı müxtəlif fikirlər mövcuddur — bu, siyasətşünaslıq və hüquqçular üçün istinad və təhlil üçün əhəmiyyətlidir. [1]

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu öndərin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi sox sevir və bu dildə danışmağımla fəxr edirəm" müdrik kəlamı ana dilimizə olan məhəbbət və hər bir soydaşımız üçün örnəkdir.

### *Ədəbiyyat*

1.Azərbaycan Respublikasının Konstitusiyası (1995) – www.constcourt.gov.az
2."Azərbaycan Respublikasında Dövlət dili haqqında" Qanun – www.legalacts.az
3.Novator.az – "Konstitusiyadakı dilimiz", 2022
4. https://dergipark.org.tr/tr/pub/cuhad/article/1275283

## LANGUAGE ISSUES IN THE CONSTITUTION OF THE REPUBLIC OF AZERBAIJAN

### *Summary*

The article discusses the importance of the Azerbaijani language being officially reflected in the constitution, as well as the issue of making necessary and timely decisions for the development of the language. This article analyzes language issues in the Constitution of the Republic of Azerbaijan, compares them with international experience, and examines the legal status of the language.

## "YARIMÇIQ ƏLYAZMA" ROMANINDA PARAFRAZ

***Qurbanova Samirə Arif qızı***
***Azərbaycan dili kafedrasının dissertantı***
***Gəncə Dövlət Universitetinin***
***alvina0710@gmail.com***

**Açar sözlər:** "Yarımçıq əlyazma" romanı, bədii nümunələr, parafraz, müqayisəli təhlil
**Keywords:** The novel "Incomplate Manuscript", literary examples, paraphrase, comparative analysis

Müasir dilçilikdə parafraz anlayışına münasibətdə fikir müxtəlifliyi vardır. Bu anlayışın terminoloji ifadəsinə də ikili münasibət mövcuddur. Ədəbiyyatda "parafraz" və "perifraz" terminlərindən istifadə olunması müşahidə edilir. Bəzi tədqiqtçılar bu iki terminin ifadə etdiyi anlayışları fərqləndirir və onlara fərqli təriflər verirlər. Məsələn A.P. Kvyatovskinin lüğətində parafraz və perifraz ayrı-ayrı lüğət məqalələri kimi təqdim olunur. Lüğətin tərtibçisinin fikrinə görə, "*parafraz ədəbi əsəri başqa bir müəllifin öz sözləri ilə yenidən nəqletməsi* [8, s.227-228], *perifraz qədim poetikada nəsri nəzmə çevirmə*"*dir* [9, s.245-246]. O, hesab edir ki, bu iki anlayışı qarışdırmaq, yaxud eyniləşdirmək olmaz. Bu izahda parafraz birbaşa adlandırılmayan predmetin və ya şəxsin təsvirlə ifadə olunması, perifraz isə yazıçının məlum başqa əsərdəki formanı struktur və səslənməni qorumaq şərtilə əks məzmunda istifadə etməsidir.

O.S.Axmanovanın tərtib etdiyi lüğətdə *"parafraz" iki mənada izah edilir: 1)təsviri ifadə; 2) sözün təsviri ifadə ilə əvəzlənməsi. "Perifraz" termininin qarşısında isə müəllifin "bax: parafraz"* qeydi verilir [7, s.608; s.312]. Göründüyü kimi, o, hər iki terminin eyni anlayış ifadə etdiyini bildirir. Y.N.Karaulov isə O.S.Axmanovadan fərqli olaraq, "perifraz"

terminini işlətməyə üstünlük verir. Onun fikrinə görə, perifraz predmetin, anlayışın, şəxsin birbaşa deyil, dolayısı ilə təsviri şəkildə ifadəsidir. Bu zaman təsvir olunan predmetin müvafiq situasiya ilə bağlı hansısa vacib keyfiyyəti əsas götürülür [11, s.703; s.334]. Maraqlıdır ki, Y.N.Karaulov perifrazı perifrazlamadan fərqləndirməyin vacibliyini vurğulayır. O, perifrazlamanı atalar sözü və ya qanadlı sözün tam və ya qismən dəyişdirilməsi kimi təqdim edir. Adları çəkilmiş bu müəlliflər parafraz və ya perifrazın intertekstuallıq fiquru olması barədə heç bir informasiya vermirlər. Fikrimizcə, bunun izahı çox sadədir. Parafraz intertekstuallıqdan əvvəl elmi dövriyyəyə daxil edilmiş anlayışdır və sabit söz birləşmələri, konkret söyləmlər və definitiv kontekstlərin şərhi və ya təqdimatı, təkrar söylənməsi prosesindəki fərqlərin aşkara çıxarılması nəticəsində meydana gəlmişdir. Ə.Abdullayev elementlərin mətnə təkrar daxil edilməsi yolarından bəhs edərkən parafrazlaşma məsələsinə də toxunur, onu məzmunun digər dil vasitələri ilə ifadəsi kimi izah edir, parafrazlaşmanın sinonim, eləcə də hipo-hipernomik əvəzlər növlərini fərqləndirir [3, s.272; s.206–208].

Parafraz və perifraza münasibətlə bağlı fərqli fikirlərin hər birində ümumi cəhət müəyyən hadisənin başqa sözlərlə təsviridir. Burada məzmun cəhətinin dəyişdirilməsi və ya strukturdakı sözün əvəzlənməsi xüsusi hallar yaradır.

*Paraphrasis* termin kimi yunan dilində *para* ‘yanında, yaxınlığında, yanaşı’ və *phrazo* ‘danışıram’ sözlərindən əmələ gəlmişdir, mətni ona yaxın mənada təsviri şəkildə canlandırmaq, öz sözləri ilə təsvir etmək kimi başa düşülür. Belə izahda təsviri izahlandırmaq, başqa sölərlə ifadə etmək aparıcıdır. Burada əvvəlki sözün, söyləmin, mətnin təsviri nəzərdə tutulur. Öz söləri ilə təsvirdə predmetə aid müəyyən keyfiyyətə əsaslanmaq lazım gəlir. Parafrazlamanı hadisə müstəvisinə köçürsək, o halda müəllifin bu hadisəni öz sözləri ilə izah etməsini nəzərdə tutmuş olarıq. Eyni və ya əks mənada, yaxud başqa şəkildə təsvir konkretləşdirilmir. Belə nəticəyə gəlmək olar ki, parafraz müəyyən sözün, söz birləşməsinin, söyləmin, mətnin yeni variantda izah və təsvirini nəzərdə tutur. Bu baxımdan parafrazın hadisənin məğzini olduğu kimi saxlamaqla parafrazlama, məzmunu qismən dəyişməklə parafrazlama və s. növlərini ayırmaq olar.

Parafrazın intertekstuallıq fiquru kimi istifadəsindən V.P.Moskvin, O.A.Babuşkin, Z.Q.Teuçej və başqaları bəhs etmişlər. Z.Q.Teuçej bu intertekstuallıq fiquru ilkin söyləmin qismən dəyişdirilməsi, təkrar modelləşdirilməsi hesab etmişdir [12, s.16; s.6]. V.P.Moskvinin fikrinə görə, *parafraz sabit birləşmənin leksik tərkibini dəyişmə nəticəsində alınan intertekstuallıq fiqurudur* [10, s.165; s.118].

“Yarımçıq əlyazma” romanında müxtəlif parafrazlardan istifadə olunmuşdur. İntertekstuallıq nəzərə alınarsa, romanın müəllifi pretekstdəki bir sıra hadisələri pretekstən fərqli şəkillərdə təsvir edir. Bəzən hadisənin iştirakçılarını sayının, aparıcı iştirakçının, bəzən motivin və sairin dəyişməsi ilə qarşılaşırıq. Bu dəyişmələrə baxmayaraq, hadisənin əvvəlki forması saxlanır və ondan pretekstə keçid yaranır. Tədqiqat üçün həm bu şəkildə olan təsvirlər, həm də sadəcə struktur və leksik-qrammatik tərkibdə dəyişmələrin müşayiətilə formalaşan parafrazları əhəmiyyətlidir. Nümunələrə baxaq:

“*– Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə, lütfən,–deyib Qazan yerə sərildi, təkrar-təkrar başını yerə vurdu, Bayındır xana bir dəxi sitayiş etdi*” [1, s.288; s.37]. Bu kontekstdə pretekstə işarə “Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə” söyləmindədir. KDQ-nin mətnində “Qara başım qurban olsun” ifadəsi istifadə olunur. Bu və ya digər dərəcədə işlək olan bu ifadə dastan personajlarının dilində səslənir. Məsələn:

“*Yalnuz oğul xəbərin, a Dirsə xan, degül mana,*
*Qara başım qurban olsun bu gün sana*” [5, s.265; s.38].

Yaxud:

“*Ol gödəndə canın varsa, oğul, xəbər mana,*
*Qara başım qurban olsun, oğul, sana*” [5, s.265; s.39].

Müasir Azərbaycan dilində *canım sənə qurban* ifadəsi alqış qəlibi kimi işlənir. *Yolunda başımı qoyaram* söyləmi alqış-and formasındadır. O da hazır qəlibdir. Azərbaycan dilinin frazeologiyasında *başını qoymaq* frazeoloji vahidi də vardır. Bəzən onun *yolunda / uğrunda başını qoymaq* formasından da istifadə olunur. "Yarımçıq əlyazma"da müəllif parafrazdan istifadə etmişdir. Doğrudur, burada parafrazın formalaşmasında allüziya fiquru kimi *qara başım* ifadəsi də iştirak edir. Müasir dildə yazılmış mətnlərdə bu ifadə KDQ-nin xatırlanmasına zəmin yaradır. Müəllif KDQ-də istifadə olunmuş qəlib ifadəni dəyişdirmişdir. Kiminsə yolunda baş qoymaq başı və beləliklə, özünü qurban vermək anlamındadır. Yuxarıdakı fraqmentdə Qazanın "*Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə*" deyəndən sonra başını yerə döyməsi onun sözlərinin həqiqət olduğuna inandırmaq məqsədi daşıyan paralinqvistik hərəkətlərdir.

Qeyd etdiyimiz kimi, KDQ-də *qara başım* müxtəlif kontekstlərdə işlənir. Məsələn, *Qara başım götürdüm, sənə gəldim, Qara başın sədəqəsi, yigit, mədəd mana* [5, s.265; s.53].

At ayağı külük, ozan dili çevik olur. Bu ifadə nəqledənin, ozanın dilində işlənir və zamanın ötüb keçməsini nəzərə çatdırır. Dirsə xan oğlu Buğac boyunu danışan ozan uşağın dünyaya gəlməsi, dayələrə verilib saxlanmasından on beş yaşına çatmasına qədər olan müddəti buraxmaq məqsədilə bu ifadədən istifadə edir və nəqletmədə on beş il irəliyə gedir, eyni zamanda dastanın hissələrini bir-biri ilə bağlayır: "*Xatunı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan toğurdu. Oğlancuğunu dayələrə verdi, saqlatdı. At ayağı külük, ozan dili çevik olur. İyəgülü ulalur, qapırğalı böyür. Oğlan on beş yaşına girdi*" [5, s.265; s.35-36].

"*Və mən başladım söz söylədim. At ayağı yel kimi olursa, ozan dili dəxi çevik olur. Amma hər ozanın dili yox. Mən isə Tanrının buyruğu ilə ozanam. Hərdən mənəelə gəlir ki, mən qayibdən dəxi dürlü xəbərlər söyləyə bilərəm. Nə olacaq, necə olacaq? –Bunları kimsə bilməz. Mən bilərəm*" [1, s.288; s.38]. Qədim dastanlarda ozanın dilində işlənən bu qəlib ifadə dəyişmişdir. "*Eposun həyatda da dinamikliyə üstünlük verməsi folklorda "At ayağı külük, ozan dili çevik olur" poetik qəlibini də ortaya çıxarmışdır. Bu qəlib sonralar müəyyən dəyişikliyə uğrayaraq "Aşıq dili yüyrək olar" şəklini almışdır*" [6, s.137]. Əlbəttə, burada da parafraz izlərini görmək olur. "Yarımçıq əlyazma"da müəllif qədim formanı verərkən parafrazdan istifadə etmiş, onu bir qədər təsviri formada vermişdir. Buna baxmayaraq, parafraz pretekstə işarəni təmin etmişdir.

Yurdu darımaq. "*Düşünürəm ki, mən ava çıxdım, böyük seyrangah qurdum, yadındamı? Kafirin casusu hazır oldu, casusladı. Mən olmaya-olmaya kafir ordusu Oğuzu daradı, elim-obam əsir getdi, demi?*" [1, s.288; s.131].

KDQ-də bu səhnə daha təsirli dillə verilmişdir. Qazan çapılıb-talanmış, dağıdılmış yurdu ilə xəbərləşəndə *Səni yağı nerədən darımış, gözəl yurdum*cümləsini işlədir. "Yarımçıq əlyazma"da müəllif bu hadisəni təsvir edir və bu zaman *Oğuzu daramaq* ifadəsindən istifadə edir. Kontekstdə *yurd* sözü *Oğuz* ilə əvəz edilmişdir.

Parafrazlama bu və ya digər hadisənin fərqli şəkildə, yəni məzmunu dəyişdirilməklə nəql edilməsində də özünü göstərir. Beyrək boyunda Boz oğlan bəzirganları qarət etmiş kafirlərlə vuruşur və malları geri alıb tacirlərə qaytarır. "Yarımçıq əlyazma"da da bu epizod yer almışdır. Müəllif həmin epizodu fərqli şəkildə təqdim edir. Burada bəzirganları soyan kafirlər yoxdur. Beyrək Dədə Qorquda deyir: "*Dədə, bunu sənə söyləyim yalnız. O düşmən dediklərim yar-yoldaşım idilər. Öncədən göndərdim bəzirganları hay-küy salıb qorxutdular. Sonra mən təpdim. Pərən-pərən etdim*" [1, s.288; s.63]. KDQ-nin süjetinə daxil olan bir sıra hadisələrin "Yarımçıq əlyazma"da fərqli rakurslardan təsvir olunması halları az deyildir. Bəkilin dastanda Bayındır xandan küsməsi, romanda Qazandan küsməsilə əvəz olunmuşdur.

Romanın müəllifi "Gizli Dədə Qorqud" əsərində Oğuz qəhrəmanlarının həyatı ilə yunan mifologiyası arasında paralelər aparmış, Odisseyin yunan mifologiyasında təkbaşına gördüyü

işi KDQ-də iki nəfərin – Beyrək və Basatın həyata keçirdiyini bildirir. O, Beyrəyin özünü Banıçiçəyə tanıtmasının, Dəli Domrul ilə Əzrayıl arasındakı hadisələrin də yunan mifologiyasındakı paralellərinə toxunur [2, s.152; s.4-5]. Belə paralellər aparmış Anar da öz tədqiqatında yazır: "Kitabi-Dədə Qorqud" süjetləriylə bağlı daha əski paralellər qədim yunan mifologiyasına dirənir. "*Dəli Domrul boyu*"*yla Admet mifi*, "*Beyrək boyu*"*yla Odisseyin sərgüzəştləri, evinə qayıtması yalnız süjet uyğunluğuyla deyil, cürbəcür bədii detallar, ayrıntılarla da heyrətamiz dərəcədə yaxındır*" [4, s.536; s.181]. Əlbəttə, bu paralellərdən başqa tədqiqatçılar da bəhs etmişlər. "Yarımçıq əlyazma"da müəllif Təpəgözü Təkgöz ilə əvəz etmişdir. Təpəgöz boyundakı hadislər və inkişafında da dəyişikliklər edilmişdir. Burada diqqəti parafraz kimi antroponimdə edilmiş dəyişiklik cəlb edir: Dəpəgöz / Təpəgöz – Təkgöz. Yeri gəlmişkən qeyd edək ki, romanın Xətaiyə aid hissəsindəki personajlardan birinin adı da dəyişdirimiş şəkildə verilmişdir. Osmanlı qəhrəmanlarından biri olan Malkoçoğlu romanda Malbaşoğlu adlandırılmışdır. Fərman Kərimzadənin "Çaldıran döyüşü" romanında bu personaj Malkoçoğlu adını daşıyır.

"Yarımçıq əlyazma"da qeydə alınmış intertekstuallıq fiqurları Xətai xətti ilə daha çox "Çaldıran döyüşü" pretekstinə işarə edir. Bu iki əsər arasında intertekstuallığı ifadə edən əsas göstərici allüziyadır. Allüziyalar adlar, müraciətlər səviyyəsində daha çox aşkarlanır. Burada konkret parafraz nümunələri tapmaq bir qədər çətindir və demək olar ki, yoxdur. Ümumiyyətlə, Xətai xətti ilə konkret preteksti müəyyənəşdirmək olmur.

Beləliklə, "Yarımçıq əlyazma" romanı daha əvvəl yazılmış başqa mətnlərlə, xüsusən "Kitabi-Dədə Qorqud" dastanı, Kamal Abdullayevin "Gizli "Dədə Qorqud" monoqrafiyası, Fərman Kərimzadənin "Çaldıran döyüşü"romanı ilə intertekstuallıq əlaqələrinə malikdir. Bu əlaqələr "Yarımçıq əlyazma" romanında yer almış sitat, mətn aplikasiyası və allüziya kimi intertekstuallıq fiqurları vasitəsilə üzə çıxır. Tədqiqat göstərir ki, başqa mətnə işarə arxaik sözlər, onomastik vahidlər, söz birləşmələri, cümlə və deyimlər, hadisə və epizodun təkrarı şəklində təzahür edir.

## ***Ədəbiyyat***

1. Abdulla K. Yarımçıq əlyazma / K.Abdulla. Bakı: XXI –YNE, 2004. –288 s.
2. Abdullayev K.M. Gizli "Dədə Qorqud". Bakı: Yazıçı, 1991.–152 s.
3. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Abdullayev. Bakı: "Zərdabi LTD" MMC, 2011. –272 s.
4.Anar. Dünya bir pəncərədir / Anar. –Bakı: Gənclik, 1986. –536 s.
5.Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988. –265 s.
6.Qasımlı M. Ozan və qopuz ənənəsi /M.Qasımlı // Dədə Qorqud aliliyi (məqalələr toplusu). – Bakı: Sultan graphics, 1999. –s.135–142.
7.Ахманова О.С. Словарь лингвистических терминов. Изд-е 2-ое стереотип. М.: Советская энциклопедия, 1969. –608 с.
8.Квятковский А.П. Парафраз // Квятковский А.П. Поэтический словарь. М.: Дрофа, 1998. –с. 227–228.
9.Квятковский А.П. Перифраз // Квятковский А. П. Поэтический словарь. М.: Дрофа, 1998. –с.245–246.
10.Москвин В.П. Интертекстуальность: Понятийный апарат. Фигуры, жанры, стили. 2-е изд. М.: Либроком, 2013. –165 с.
11.Русский язык. Энциклопедия / гл. ред. Ю.Н. Караулов. 2-ое изд., перераб. и доп. М.: Большая Российская энциклопедия; Дрофа, 1997. –703 с.

12.еучеж З.Г. Структурно-семантическая и коммуникативно-прагматическая специфика лингвистической парафразы (на материале русского и французского языков). Автореф. дис. ...канд.филол. наук. Майкоп, 2008.-16 с.

## THE PARAPHRASE IN THE NOVEL OF "HALF- WRITTER MANUSCRIPT

***Gurbanova Samira Arif***
***PhD candidate at Ganja State University***

***Summary***

In modern linguistics, there is a diversity of opinions regarding the concept of paraphrase. There is also a dual perspective concerning its terminological expression. In literature, the use of the terms "paraphrase" and "periphrasis" can be observed. Some researchers distinguish between the concepts these two terms represent and provide them with different definitions.

Paraphrasing manifests itself in the retelling of a given event in a different way, that is, by altering its content. Paraphrasing uses expressions that are consistent with the original text.

The novel "Incomplete Manuscript" has intertextual connections with other previously written texts, in particular the epic "Kitabi-Dede Gorgud", Kamal Abdullayev's "Secret Dede Gorgud" monograph, and Farman Karimzadeh's novel "The Battle of Chaldiran" and has created paraphrases with them.

## TOLERANTLIĞIN ÜNVANI AZƏRBAYCAN

***Cabbarova Elnarə Oktay qızı***
***ADPU-nun Şəki filialı***
***Humanitar Fənlər kafedrasının baş müəllimi***
***el_cabbarova1980@mail.ru***

**Xülasə:** *Bu gün beynəlxalq, regional və ölkələr səviyyəsində ən çox müzakirə olunan məsələlərdən biri tolerantlıqdır. Zaman keçdikcə bu mövzu daha da aktuallaşır və bəşəriyyətin gələcəyi baxımından həyati əhəmiyyət kəsb edir. Çünki sürətli miqrasiya və inteqrasiya prosesi ilə müşayiət olunan qloballaşma dövründə tolerantlıq prinsiplərini bərqərar etmədən dünyada qalıcı sülhə və sabitliyə nail olmaq qeyri-mümkün görünür. Bu mənada tolerantlıq hər bir dövlət üçün həm milli, həm də ümumbəşəri məsələdir. Etnik və dini zəmində münaqişələrə bilərəkdən rəvac verilməsi, milli, dini və irqi ayrı-seçkilikdən milyonlarla insanın əziyyət çəkməsi, dini radikalizm və ekstremizm meyllərinin güclənməsi beynəlxalq qurumlardan dünyada dözümlülük mədəniyyətinin təbliği və yayılması üçün daha effektli tədbirlər görülməsini tələb edir. Qürurla deyə bilərik ki, bu gün dinlər və sivilizasiyalararası dialoqun baş tutması üçün əsas şərtə çevrilən və mütərəqqi dünya tərəfindən başlıca demokratik dəyərlərdən biri kimi təbliğ olunan tolerantlıq və multikulturalizm Azərbaycan xalqının əsrlər boyu formalaşan və çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir. Azərbaycan tarixən dinlərin və mədəniyyətlərin qovşağı olub, dini və etnik müxtəliflik zamanla ölkəmizin ən böyük zənginliyinə çevrilərək dövlət siyasətimizin başlıca prioritet istiqamətlərindən birinə çevrilmişdir. İşlənilən bu mövzudada tolerantlığın Respublikamızda formalaşması və inkişafi prosesi ətraflı şəkildə şərh olunur.*

**Açar sözlər:** Tolerantlıq, dinlər, multikulturalizm, milli azlıq, Ulu Öndər Heydər Əliyev, Möhtərəm Prezident, cənab İlham Əliyev
**Key words:** Tolerance, religions, multiculturalism, national minority, Great Leader Heydar Aliyev, Honorable President, Mr. Ilham Aliyev

Azərbaycan ərazisi bütün dövrlərdə dini və etnik ayrı-seçkilikdən əziyyət çəkən insanlar üçün sığınacaq rolunu oynayıb, üstəlik, bura təkcə fərqli dinlərin – yəhudiliyin, xristianlığın mənsubları deyil, həm də müxtəlif səbəblərdən təzyiqlərlə üzləşən İslamla bağlı məzhəblərin nümayəndələri pənah gətiriblər. Bəlkə, elə buna görədir ki, bu gün Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Amma xoşbəxtlikdən müxtəlif dinlərin və dini fəlsəfi cərəyanların yayıldığı Azərbaycanda bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməyib, hətta, yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Azərbaycan dinlərin və mədəniyyətlərin qovuşduğu tarixi məkan kimi indi də eyni funksiyanı uğurla yerinə yetirir. Bu gün Azərbaycan təkcə sosial-iqtisadi uğurlarına, hərbi-siyasi potensialına görə deyil, eyni zamanda, vicdan azadlığının və multikultural mühitin təmin edilməsinə, yüzilliklər ərzində formalaşmış tolerantlıq ənənələrinin, eləcə də tarixi-dini abidələrin bərpasına və qorunmasına görə regionun lider dövlətidir.

Müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti və mədəniyyəti Ümummilli Liderimiz dahi Öndər Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət din siyasətinə uyğun olaraq daha da möhkəmləndi, bu sahədə dövlət siyasətinin prioritet istiqamətinə çevrildi. Dövlət siyasətinə uyğun olaraq dini konfessiyalar arasında dözümlülük mühitinin daha da inkişaf etdirilməsi sahəsində dönüş yarandı, dövlətlə dini qurumların münasibəti yeni mərhələyə qədəm qoydu. Bunun məntiqi nəticəsi kimi, 2001-ci ildə Konstitusiyamızın vicdan azadlığı barədə müddəalarının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarət edilməsi məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Komitə ölkənin bütün regionlarında dini sahə ilə bağlı aktuallıq kəsb edən mövzularda konfranslar, seminar-treninqlər təşkil edir, insanları bu yolla maarifləndirməyə çalışır. Belə tədbirlərdə fərqli din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik, qarşıdurma, zorakılıq hallarına yol verilməməsi, dini icmaların fəaliyyətində tolerantlığın gücləndirilməsi, cəmiyyətdə radikalizm meyllərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması məqsədilə təbliğat və təşviqat işlərinə daha çox üstünlük verilir.

Dini maarifləndirmə istiqamətində aparılan işlər həm də elektron və yazılı KİV, Dövlət Komitəsi tərəfindən hazırlanan elektron nəşrlər vasitəsilə də həyata keçirilir. Bu işlər milli-mənəvi dəyərlərimizin təbliği, ölkəmizdə tarixən mövcud olan tolerantlıq və multikultural ənənələrin inkişaf etdirilməsi baxımından çox önəmlidir. Uşaq və gənclərə dini dözümlülüyün aşılanması məqsədilə aparılan "Dinlər uşaqlar üçün" beynəlxalq şəbəkəsi ilə əlaqələr davam etdirilir. Bundan başqa, mədəniyyətlərarası əməkdaşlığın, tolerantlığın, multikulturalizmirn qorunub saxlanmasında və inkişaf etdirilməsində dövlət qurumlarının, QHT və dini icmaların, mədəniyyət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi də, görülən işlərin tərkib hissəsidir. Qeyd etmək yerinə düşər ki, ölkəmizdə hər il keçirilən, vicdan və əqidə azadlığına həsr olunan tədbirlər dini tolerantlıq, müxtəlif dini baxışlı insanların qarşılıqlı münasibətlərinin inkişaf etdirilməsi baxımından çox əhəmiyyətlidir. Din vasitəsilə sülh mədəniyyəti, milli-dini dözümlülüyün təşəkkül tapması, mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi müzakirələrlə, təkliflərlə, tövsiyələrlə və ən nəhayət, çoxsahəli tədbirlərlə gerçəkləşdirilə bilər. Bunun alternativ yolları yoxdur. Beynəlxalq tədbirlərdə fəal iştirak edən

müxtəlif qurumlar, təşkilatlar, yüksək vəzifəli dövlət və din xadimləri, alimlər də çoxmillətli Azərbaycanda tolerantlığın hökm sürdüyünü, insan hüquq və azadlıqlarının müdafiə edildiyini, bu dəyərlərin hərtərəfli təmin olunduğunu diqqətə çatdırırlar. Vicdan azadlığı sahəsində, dini zəmində yarana biləcək problemlərin həlli, yanaşma fərqliliyinə görə mübahisələrin qarşısının alınması məqsədilə dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının, dini konfessiyaların, icmaların nümayəndələrinin iştirakı ilə "Tolerant cəmiyyət" şəbəkəsinin yaradılması təklifi də təqdir olunan hadisədir. Bütün tədbirlər isə ölkə Konstitusiyasında təsbit olunmuş normalara uyğun olaraq, müxtəlif dini konfessiyalar, irqi və etnik mənsubiyyətə malik insanlar arasında münasibətlərin tənzimlənməsinə, dostluq və birgəyaşayışın qorunub-saxlanmasına, bir sözlə, onların hüquqlarının təmin olunmasına xidmət edir. Bütün bunların fonunda, "Tolerantlığın ünvanı - Azərbaycan" devizinə ölkəmizdə yaşayan hər bir millət və xalqın, etnosların ürəklə qoşulduğu şəksizdir.

Tarixdə dini və milli zəmində çoxsaylı müharibələr olub və milyonlarla insan bu müharibələrin qurbanına çevrilib. Lakin müharibələrin heç biri Yer kürəsinin məhvi ilə nəticələnməyib. Hətta, dini və milli zəmində baş verən münaqişələr çox vaxt lokal xarakterli olub. Bu gün isə vəziyyət tamam başqadır. Qloballaşma dövründə dini zəmində baş vermiş kiçik bir insident qısa müddətdə regional və qlobal müharibəyə çevrilə bilər. Buna görədə bu gün dünyamızın tolerantlığa ehtiyacı həmişəkindən daha çoxdur.Tolerantlıq dünyamızın gələcəyi üçün alternativsiz xilas yoludur. Mədəniyyətin mühüm elementi olan tolerantlıq bu gün müxtəlif inanc, mədəni ənənə, siyasi məslək daşıyıcısı olan insanların ictimai vəhdətləşməsinin zəruri şərti kimi qəbul olunur. Eyni zamanda, tolerantlıq vətəndaş cəmiyyətinin əsas əxlaq prinsipidir.

Tolerantlıq elmi və siyasi ədəbiyyatlarda daha çox dini, milli və irqi müxtəlifliyin etirafı və ona hörmətlə yanaşılması kimi izah olunur. Lakin "dini və milli tolerantlıq" terminləri ilə yanaşı, siyasi, mədəni, hətta, sosial tolerantlıq ifadələri də işlədilir. Şübhəsiz ki, daha çox istifadə olunan **"dini tolerantlıq – dözümlülük"** ifadəsidir. Çünki tolerantlıq ilk dəfə dini dözümlülük mənasında işlədilib və zaman keçdikcə ifadənin "əhatə dairəsi" genişlənib. Bu gün də tolerantlıq dedikdə həm hüquqi, həm də elmi müstəvidə daha çox dini dözümlülük nəzərdə tutulur. Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Tolerantlıq bir mənəvi keyfiyyət, bir əməldir, yəni başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir. **[1]**

Tarixi inkişafımıza nəzər salsaq, bu gün Respublikamızda müxtəlif millətlərin və dini konfessiyaların dinc və mehriban şəraitdə yaşamasının dərin kökləri olduğu aydınlaşar.Tarixi tədqiqatlar göstərirki, eramızdan neçə min il əvvəl Azərbaycan ərazilərində yaşayan insanların həyatında dini ayin və ovsunların önəmli yeri olub. **[2]**

Tarixi məlumatlara görə, eramızdan əvvəl 586-cı ildə Babil hökmdarı II Novuxodonosurun Qüdsü işğal etməsi nəticəsində talan olmuş İudeya çarlığından qaçan yəhudi köçkünləri Azərbaycan ərazilərində özlərinə daha rahat hiss edə bildilər. I əsrin ortalarında Hz.İsa peyğəmbərin ardıcılları Azərbaycan ərazilərinə qədəm basdılar. Onlar burada Alban aftokefal kilsəsinin əsasını qoydular. İslamın Azərbaycana gəlişi ilə dini dözümlülük, tolerantlıq ənənələri daha da möhkəmləndi. Tarixçilər həmin dövrlərdə müsəlmanların müsəlman olmayanlara, xüsusilə də yəhudilik, xristianlıq və zərdüştiliyin tərəfdarlarına qarşı hörmətlə yanaşdıqlarını qeyd edirlər. **[3]**

Bu gün Azərbaycan dini müxtəliflik baxımından çox zəngindir. Xoşbəxtlikdən müxtəlif dinlərin və ya cərəyanların mövcud olduğu vətənimizdə bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında dözümlülük, hörmət, ehtiram hər zaman yüksək səviyyədə olmuşdur. Tarixin müxtəlif dövrlərində Azərbaycanda məskunlaşmış dini-etnik qruplar yerli əhali ilə qaynayıb qarışmış və sözün əsl mənasında birgəyaşayışın harmoniyasını nümayiş etdirmişlər.

Hazırda ölkəmizdə müsəlmanlarla yanaşı, pravoslav, Roma-katolik konfessiyaları, protestanlığın müxtəlif cərəyanları olan Yevangel-lüteranlar, Yevangel xristian baptistləri, Yeddinci günün adventistləri, Molokan ruhani xristianları, Alban-udi xristian dini icmaları, Avropa yəhudiləri-əşkinazilər, dağ yəhudiləri olan sefartlar, gürcü yəhudiləri, ənənəvi olmayan din qruplardan olan krişnaçılar, bəhalər və sair dinlərin mənsubları birlikdə tolerantlıq, əmin-amanlıq içində yaşayır və öz dini etiqadlarını rahatlıqla yerinə yetirirlər. Ölkəmizdə onlarla qeyri-islam təmayüllü məbədlər fəaliyyət göstərir. Hətta xüsusi olaraq Qubada yəhudilərə məxsus olan "Krasnaya sloboda" qəsəbəsini də qeyd etmək lazımdır. Qeyd edək ki, Qubadakı Krasnaya Slobada qəsəbəsi təkcə postsovet məkanında deyil, bütün dünyada dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir.

Azərbaycanda dini konfessiyaların nümayəndələri hər zaman dini bayramlarda bir-birlərinə təbrik məktubları ünvanlayır, hətta dini bayramları birgə qeyd edirlər. Qərb ölkələrində bu hadisələr qeyri-normal qarşılansa da, Azərbaycan tolerantlığın beşiyi olduğu üçün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin hər zaman sərbəst şəkildə dini ritualları həyata keçirə bilməsi və inkişaf etdirə bilməsi üçün lazımi şərait yaradılmışdır. **[4]**

Ölkədə formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Bu Əsas Qanunda da öz əksini tapıb. Konstitusiyamızın 48-ci maddəsinə görə, hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir. **[5]**

Bunlardan əlavə, ölkədə tolerantlığı, dini dözümlülüyü möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır.

Ümummilli lider Ulu Öndər Heydər Əliyev qeyd edirdiki, Azərbaycan vətəndaşları dini, irqi, siyasi və dil mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər. Onların hüquqları dövlət tərəfindən qorunur. Hər kəs əmin ola bilər ki, biz bu prinsiplərə daim sadiq qalacağıq. Həmçinin, Ulu öndər Heydər Əliyev tərəfindən azərbaycançılıq ideologiyasının irəli sürülməsidə ölkəmizdə tolerantlığın daha sürətlə inkişaf etməsinə geniş imkanlar yaradıb. Respublikada bu istiqamətdə mövcud olan bir sıra problemlər azərbaycançılıq ideologiyası çərçivəsində həllini tapıb. Təsadüfi deyildir ki, Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda yaşayan milli azlıqlarla keçirdiyi görüşlərin birində demişdir**: “Mən milli azlıqlarla yox, Azərbaycan xalqı ilə görüş keçirirəm”. [6]**

Müdrik dövlət xadimi Heydər Əliyev çıxışlarında Azərbaycanın çoxmillətli ölkə olmasını, etnik rəngarəngliyi, tolerantlığı xalqımızın böyük sərvəti hesab edib. Məhz onun möhtəşəm xidmətləri nəticəsində hər bir xalqın nümayəndəsi özünü azad və xoşbəxt hiss edir. Cəsarətlə deyə bilərik ki, ölkəmizdə yaşayan xalqların, toplumların qəlbi, nəbzi eyni ritimdə vurur, fərqli dil və din mənsubları ortaq məxrəcə gələ bilirlər.

Qürur hissi ilə deyirik ki, Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etməyə nail olub. O, ölkəmizin uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçərək tolerantlıq ənənələrini keyfiyyətcə yeni mərhələyə çatdırmağı bacarıb.

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə, onun tərkib hissəsi olan dözümlülük və birgəyaşayış ənənəsinə böyük həssaslıqla yanaşan Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkədə ibadət evlərinin bərpası və yeni məscidlərin tikilməsi istiqamətində gördüyü işlər də əvəzsizdir. Fond “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində təkcə ölkədə yeni məscidlər inşa etməyib, həm də bu torpaqlarda yüz illiklər boyu xalqımızla dinc yanaşı yaşamış dinlərin nümayəndələrinin öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək üçün ibadət evlərinin bərpası və inşası işində fəallıq nümayiş etdirib. Azərbaycanın

birinci xanımının bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu layihə çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib. Eyni zamanda, layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb, yəhudi uşaqları üçün təhsil kompleksi istifadəyə verilib. **[7]**

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda tolerantlıq ənənələrinin qorunması istiqamətində həyata keçirilən siyasət bu gün uğurla inkişaf edir. Dahi rəhbərin parlaq ideyaları hər bir sahədə olduğu kimi tolerantlığın inkişafı sahəsində də Tarixi zəfərimizin memarı, ali baş komandan , prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu sahədə apardığı uğurlu siyasət sayəsində bu gün Azərbaycan yüksək mədəniyyətə malik olan tolerant dövlət kimi dünyada tanınır. Respublika ərazisində mövcud olan bütün dillərin, dinlərin, mədəniyyətlərin, etnosların nümayəndələrinin bərabər imkanlar əsasında birgə yaşaması, elmin, təhsilin, qanunvericiliyin və insan kapitalının inkişafına yönələn gələcək rifahın müəyyənləşməsi, bu siyasətin Azərbaycanın digər dövlətlərlə münasibətlərinin formalaşmasında prinsipial məsələlərdən biri kimi qarşıya çıxması ölkəni tolerantlıq və multikulturalizmin təmin edildiyi model dövlət olması ilə yanaşı, bu dəyərlər ətrafında beynəlxalq diskursun keçirildiyi mərkəzə çevirib.

Prezident İlham Əliyev III Bakı Beynəlxalq Humanitar Forumunda etdiyi nitqində həmin tədbirin Azərbaycanda təşkilinin təbii hal olduğunu qeyd edərək bildirib: **"Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur". [8]**

Məhz elə bu səbəbə görə də XXI əsrin Azərbaycanı bu münasibətlər sistemini özündə cəmləşdirərək müasir dünyanın tolerantlıq simvollarından birinə və digər cəmiyyətlər üçün örnək modelinə çevrilib.

Müasir Azərbaycanda qədim alban abidələri, müxtəlif xalqlara mənsub dini və tarixi abidələr, Xınalıq, Malakan, Lahıc, Buduq, Nij, Krasnaya Slaboda və s. kimi müxtəlif tarixi-coğrafi məkanlar dövlət səviyyəsində qorunmaqdadır. Azərbaycan Milli Elmlər Akademiyasında milli azlıqların dil, mədəniyyət, tarix və etnoqrafiyasını öyrənən şöbə, Mədəniyyət və Turizm Nazirliyi yanında Milli Azlıqların Əlaqələndirmə Şurası, etnik və milli azlıqların mədəniyyət mərkəzlərinin işini əlaqələndirən respublika şurası mövcuddur.

Dini tolerantlığın hökm sürdüyü Azərbaycan ərazisində üç səmavi dinin (yəhudilik, xristianlıq və islam) və eyni zamanda, müxtəlif inancların qarşılıqlı hörmət şəraitində yaşaması tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisidir. 2002-ci ilin 22-24 may tarixində Bakıda rəsmi səfərdə olmuş Vatikan Dövlətinin başçısı, dünya katoliklərinin dini rəhbəri olan Roma papası II İoan Pavel ölkəmizdəki tolerantlıq və dinlərə göstərilən diqqətə görə ulu öndər Heydər Əliyevə təşəkkürünü belə bildirmişdi: **"Qoy üç böyük din tərəfindən izhar edilmiş bu məhəbbət şahidliyinə görə Allaha həmd olsun!" [9]**

Azərbaycanda əhalinin 96%-i müsəlmandır. Ölkədə bundan başqa, xristianlıq və iudaizm dinləri də mövcuddur. Xristianların əksəriyyəti rus pravoslav və gürcü pravoslav kilsəsinə məxsusdur. Yəhudilərin çoxu dağ yəhudiləri və əşkinazi yəhudiləridir. Müstəqillik dövründə Azərbaycanda 2 minə yaxın məscid tikilib, son 10 il ərzində, 80 məscid əsaslı təmir edilib. Ölkədə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda, 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında, məhz Bakı şəhərində açılıb. Bütün bunlar isə, bir daha Azərbaycanda dinlərin bərabər

yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir.Məhz dinlər arasında əmin-amanlığın təmin edilməsi, çoxmədəniyyətliliyin inkişafı ölkədə demokratik dəyərlərin tərəqqisinə yol açan əsas amillərdəndir. **[10]**

Həmçinin, Vatikanın Dövlət katibi, kardinal Tarçizio Bertone 2008-ci ilin mart ayında Bakıda olarkən Azərbaycanda müşahidə etdiyi tolerantlığı yüksək qiymətləndirərək, müxtəlif dinlərə sitayiş edən insanların dinc, mehriban şəraitdə yaşaması faktını xüsusi vurğulamışdır. Kardinal Tarçizio Bertone Azərbaycan xalqının və dövlətinin digər millətlərə və dinlərə olan münasibətini yüksək dəyərləndirmişdir. Tolerantlığın Azərbaycan xalqının mentaliteti ilə bağlı olduğunu deyən Vatikanın dövlət katibi ölkə Prezidentinin fəaliyyətində də həmin məqamın aydın göründüyünü bildirmişdi. **[11]**

Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün görülən işlər sayəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si islam, 21-i qeyri-islam təmayüllü dini icmadır. Eyni zamanda ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün görülən işlər sayəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si islam, 21-i qeyri-islam təmayüllü dini icmadır. Eyni zamanda ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. **[12]**

2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab Ilham Əliyevin sərəncamı müasir dövrdə Respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə hər zaman sadiq qalmasının bariz nümunəsidir**.**

Beləliklə, fəxrlə qeyd edə bilərik ki, bu gün Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir. Daim xalqımızın milli-mənəvi dəyərlərinin mütərəqqiliyini vurğulayan dövlət başçısı İlham Əliyev gələcək inkişafımızı zəngin tarixi keçmişə söykənən adət-ənənələrimizlə müasir ideyaların sintezində görməklə, ölkəmizdə milli-dini dəyərlərin qorunub saxlanılması istiqamətində ardıcıl işlər həyata keçirir. Hazırda Azərbaycanın tutduğu prinsipial mövqe, dövlət başçısının qətiyyətli siyasəti, azərbaycançılıq ideologiyasının əmin-amanlıq, bərabər imkanlar, həmrəylik kimi dəyərlərə sadiq qalması Respublikamızı sivilizasiyaların qarşılıqlı əməkdaşlığını təmin edən unikal bir dövlətə çevirib.

Ulu Öndər Heydər Əliyev tərəfindən dövlət siyasətinin əsası kimi müəyyən edilən multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin milli ideologiyasının təməl prinsipidir. Təsadüfi deyil ki, Azərbaycan xalqı bu təməl prinsip əsasında bir yumruq kimi birləşdi və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Tarixi Zəfərimizin memarı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində tarixi zəfərə imza ataraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

### ***Ədəbiyyat***

1.”Tolerantlığın ünvanı – Azərbaycan”.Bakı 2020.43s.
2.Gündüz İsmayılov “Tolerantlıq Bildiklərimiz və bilmədiklərimiz” Bakı – 2014.240s.
3.”Tolerantlıq.nümunəsi.Azərbaycan”.http://www.anl.az/down/meqale/express/2010/iyun/125221.htm
4.“Heydər Əliyev irsi - Tolerantlığın ünvanı Azərbaycan” 525-ci qəzet. - 2023. - 18 may. - № 85. - S. 7,13.
5.”Azərbaycan Respublikasının konstitusiyası”. https://e-qanun.az/framework/897

6.”Heydər Əliyev epoxasının multikultural zənginliyi” https://respublika-news.az/news
7. “Tolerantlığın Azərbaycan nümunəsi”.https://scara.gov.az/az/xeberler/print
8.”Tolerantlığın.Azərbaycan.nümunəsi”.https://www.elibrary.az/docs/qazet/qzt2018_52.htm
9.”Vatikan dövlətinin başçısı Roma Papası II İohan Pavelin Azərbaycana rəsmi səfəri.Roma Katolik kilsəsinin başçısı ibadət mərasimi keçirmişdir” https://azertag.az/xeber
10.”Dini tolerantlıq Azərbaycanın milli kimliyinin ayrılmaz hissəsidir”. https://sia.az/az/newsocial/728487.html
11.“Azərbaycanı tolerantlığın ən mükəmməl nümunəsinə çevirən lider”. https://scara.gov.az/az/xeber/media/xeberler/
12.”Azərbaycanın daxili və xarici siyasətində multikultural və tolerant dəyərlər” https://www.elibrary.az/docs/jurnal/jrn2017_482.pdf

## THE ADDRESS OF TOLERANCE IS AZERBAIJAN

***Jabbarova Elnara Oktay gizi***

***Summary***

Today, one of the most discussed issues at the international, regional and country levels is tolerance. Over time, this topic becomes even more relevant and is of vital importance for the future of humanity. Because in the era of globalization accompanied by rapid migration and integration processes, it seems impossible to achieve lasting peace and stability in the world without establishing the principles of tolerance. In this sense, tolerance is both a national and universal issue for every state. The deliberate promotion of conflicts on ethnic and religious grounds, the suffering of millions of people from national, religious and racial discrimination, and the strengthening of religious radicalism and extremism require international organizations to take more effective measures to promote and spread the culture of tolerance in the world. We can proudly say that today, tolerance and multiculturalism, which have become the main condition for the dialogue between religions and civilizations and are promoted by the progressive world as one of the main democratic values, are characteristic features of the Azerbaijani people that have been formed over the centuries and are an example for many. Azerbaijan has historically been a crossroads of religions and cultures, and religious and ethnic diversity has over time become the greatest wealth of our country and one of the main priorities of our state policy. This topic discusses in detail the process of formation and development of tolerance in our Republic.

*Çapa verildiyi  tarix 02.07.2025*
*Kağızın növü: A3, snequroçka*
*Çap vərəqi: 5,5 ç.v. Tiraj : 300 ədəd*
*Gəncə Dövlət Universitetinin nəşriyyatı*
*Ünvan: Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429*